Bu bir xalq qəzetidi
ƏDALƏT

## Parlamentdə Şəhidlərin xatirəsi yad edilib



**Milli Məclisin dünən keçirilən plenar iclasında noyabrın 30-da Xızı rayonu ərazisində yerləşən Qaraheybət poliqonunda şəhid olan hərbi qulluqçularımizin xatirəsi anılıb.**

Milli Məclisin sədri Sahibə Qafarova bir daha şəhid hərbçilərimizə Allahdan rəhmət, yaralı hərbi qulluqçularımiza isə şəfa diləyib.

Şəhid hərbi qulluqçularımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

## *Hikmət Hacıyev helikopter qəzası ilə bağlı yayılan məlumatlardan danışdı*



**Prezidentin köməkçisi Hikmət Hacıyev DSX helikopterinin qəzası ilə bağlı yayılan məlumatlardan danışıb.**

Adalet.az-ın məlumatına görə, Prezidentin köməkçisi Hikmət Hacıyev Bakıda keçirilən "Mədəniyyət naminə sülh" qlobal kampaniyasının Tərəfdaşlar Forumu zamanı jurnalistlərə açıqlamasında bildirib ki, belə hadisələr zamanı müəyyən ciddi araşdırma, yoxlamalara ehtiyac olur.

Onun sözlərinə görə, ciddi araşdırmalar aparılaraq ictimaiyyətə səhih, dolğun məlumatlar verilməsi başlıca şərtlərdən biridir: "Nəzərə almaq lazımdır ki, insan həyatından danışırıq. Ailələrə doğru məlumat vermək lazımdır. Təəssüf edirəm ki, belə hadisələr zamanı bəzən sosial şəbəkələrdə rəsmi məlumat gəlməmiş hansısa həlak olan, yaralanan insanların adı çəkilir. Bu, ailələr üçün zərbə ola bilər", - deyə o bildirib. H.Hacıyev qeyd edib ki, bu məsələdə Azərbaycan mediası tərəfindən peşəkarlıq göstərildi. "Media peşəkarlıq göstərərək dəqiqləşdirilməmiş məlumatların verilməsinin qarşısını aldı. Amma sosial media məkanında təəssüf ki, bunun şahidi olmadıq. Cəmiyyət olaraq, media məkanında fəaliyyət göstərən insanlar olaraq, bu məsələlərə maksimum həssas yanaşmağımız vacibdir" - deyə Prezidentin köməkçisi bildirib.

## *Naxçıvanın büdcəsi 8 milyon artırıldı*

**"Naxçıvan Muxtar Respublikasının 2022-ci il üçün büdcəsinin gəlir və xərcləri 8 milyon manat artırılıb". Bu haqda məlumat verən deputat Tahir Mirkişilinin sözlərinə görə, Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlir və xərcləri 577,6 milyon manat olacaq.**

## Yaşayış minimumunun həddi 210 manata qaldırıldı



**Milli Məclisin plenar iclasında "2022-ci il üçün yaşayış minimumu haqqında" qanun layihəsi III oxunuşda müzakirəyə çıxarılıb.**

Qanun layihəsinə əsasən, gələn il üçün yaşayış minimumu ölkə üzrə 210 manat, əmək qabiliyyətli əhali üçün 220 manat, pensiyaçılar üçün 176 manat, uşaqlar üçün 193 manat məbləğində müəyyən edilib.

Layihə III oxunuşda təsdiqlənib.

## Bu məhsullara görə ƏDV qaytarılmayacaq



**ƏDV-nin qaytarılması mexanizmi avtomobillər, alkoqollu içkilər və tütün məmulatlarının alışına aid edilməyəcək.**

Bu Vergi Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb. Milli Məclisin plenar iclasında üçüncü oxunuşda müzakirəyə çıxarılan qanun layihəsi səsə qoyularaq qəbul edilib. Qeyd edək ki, qüvvədə olan qanuna əsasən, sadəcə neft və qaz məhsulları ƏDV-nin qaytarılması mexanizmi tətbiq edilmirdi.

## *Elçin Quliyev helikopter qəzasında xəsarət alan hərbçilərə baş çəkib*



**3 dekabr tarixində Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyev hərbi helikopterin qəzaya uğraması nəticəsində yaralanmış və hazırda DSX-nin Hərbi Hospitalında müalicə alan polkovnik-leytenant Cəfərov Emil Məmməd oğluna və kapitan Ədilov Ramin Ramiz oğluna baş çəkib.**

DSX-dən Adalet.az-a verilən məlumata görə, general-polkovnik Elçin Quliyev hərbi qulluqçularla söhbət edib, səhhətlərinin vəziyyətilə maraqlanmış, tezliklə sağalmalarını arzulayıb.

Hərbi qulluqçuların sağlamlıq durumu və müalicələrinin gedişatı Dövlət Sərhəd Xidmətinin rəisinə məruzə olunub, onların sağlamlıqlarının bərpa olunması və qısa müddətdə xidmətə qaytarılmaları üçün bütün lazımi tədbirlərin görüldüyü bildirilib.

**Qeyd edək ki, noyabrın 30-da Dövlət Sərhəd Xidmətinin hərbi helikopteri Xızı rayonu ərazisində yerləşən "Qaraheybət" aviasiya poliqonunda təlim uçuşları yerinə yetirərkən qəzaya uğrayıb. Qəza nəticəsində 14 nəfər həlak olub, 2 nəfər yaralanıb.**

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 101 (5933) 4 dekabr 2021-ci il | Qiyməti 30 qəpik

## TORPAQ DEYİL E, QIZILDI



**Əməkdaşımız Nicat Novruzoğlu aprel ayında Ağdam cümə məscidinin həyətində bir alma ağacı əkib. Bu günlərdə Ağdamda idim, pöhrə kimi əkilmiş ağac artıq 2 metr boy verib. Gələn il çiçəkləyəcək də, məhsul da verəcək.**

Bütün Qarabağ topağı belədir. Şair dili ilə desək;

Daşı da əksən çiçəkləyər.

Və bu gün Ağdamda daşlar da çiçəkləyir. Şəhər tikilir. O alma ağacı kimi şəhər də boy atır.

İnşaatçılarla söhbət elədik, bildirdilər ki, bizə tapşırılan işləri çalışırıq ikiqat yerinə yetirək ki, Ağdamlılar tezliklə öz doğma şəhərlərinə qovuşsunlar.

# 2022-ci ilin dövlət büdcəsi qəbul olundu



**Milli Məclis plenar iclasında "2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsini üçüncü oxunuşda müzakirəyə çıxarıb. Müzakirələrdən sonra qanun layihəsi III oxunuşda qəbul edilib.**

**Qeyd edək ki, Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin gəlirləri 26 816 000,0 min manat, xərcləri 29 879 000,0 min manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 25 874 497,0 min manat, yerli gəlirləri 941 503,0 min manat, mərkəzləşdirilmiş xərcləri 28 900 041,0 min manat, yerli xərcləri 978 959,0 min manat) məbləğindədir.**

## Hikmət Hacıyevdən UNESCO-ya çağırış

**"Azərbaycanın strategiyası budur ki, regionda sülh olsun. Azərbaycan Prezidenti tələb edir ki, ölkələrin suverenliyi, ərazi bütövlüyü qarşılıqlı şəkildə tanınsın".**

Adalet.az xəbər verir ki, bunu Prezidentin köməkçisi Hikmət Hacıyev "Mədəniyyət naminə sülh" Tərəfdaşlar Forumunda deyib. O bildirib ki, hazırda dayanıqlı sülhün bərqərar olması əhəmiyyətlidir.

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycanın əraziləri işğal altında olarkən həmin yerlərdəki mədəni irslər dağıdılıb.

"Biz UNESCO-nu dəvət edirik ki, işğaldan azad edilmiş ərazilərdə Azərbaycanın mədəni irsinə qarşı həyata keçirilmiş addımları görsünlər", - deyə Hikmət Hacıyev əlavə edib.

Hikmət Hacıyev bildirib ki, Cənubi Qafqazda dayanıqlı sülhün, təhlükəsizliyin bərqərar olması vacibdir.



**BİRİ BU ZUBİRƏ DESİN Kİ, FUTBOL ŞAHMAT DEYİL, KOLLEKTİV OYUNDU**

## *MƏN YAZANDA DE BYAZİ QALACAQ, İNANMIRDILAR*



***İndi hamınızın gözü aydın, millimizin baş məşqçisi De Byazi ilə yenidən müqavilə bağlandı. İnşallah, növbəti avropa çempionatında bu dəfə iki xal toplayacağıq.***

***Sonra dünya çempionatında 3 xal, millətlər liqasında 4 xal, beləliklə yaxın 5 ildə qrupumuzda lider də olacağıq.***

***5-6 ağbirçək lazımdı, yığışsın futbolumuz üçün ağlasın.***

## Gələn ilin ehtiyac meyarının həddi 200 manat oldu

**Milli Məclis "Azərbaycan Respublikasında 2022-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsini üçüncü oxunuşda qəbul edib. Layihədə ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2022-ci il üçün ehtiyac meyarının həddi 200 manat məbləğində təsdiq edilməsi təklif edilib.**

**Təklif səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul olunub.**

## *BU YALÇIN QAYALARA SÖYKƏNMİŞDİ...*



***Deyirdi kaş,***
***bax, beləcə daşa dönüm,***
***yavaş-yavaş.***

Və döndü də. Ordumuzun hərbi qulluqçusu Şahin Şəmsəddin oğlu Hüseynov məzuniyyətdə olarkən söykəndiyi qayadan yıxıldı və həlak oldu.

Şəkildə gördüyünüz bu sıldırım qayalar Kəlbəcərdədi. Və o, bu qayaları düşməndən azad elədiyinə görə cənab Prezident İlham Əliyev tərəfindən "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilmişdi.

***Ey daşlaşan,***
***torpaqlaşan,***
***igid Vətən oğlu,***
***qəbrin nurla dolsun!***

## Bakıda NATO-nun təlim kursu keçirilib

**Müdafiə Nazirliyinin NATO ilə 2021-ci il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramı çərçivəsində Silahlı Qüvvələrin Hərbi Akademiyasında NATO-nun Brunssumda (Niderland Krallığı) yerləşən Birləşmiş Qüvvələr Komandanlığının Mobil təlim qrupu tərəfindən "Hərbi ictimai əlaqələr" mövzusunda təlim kursu keçirilib.**

Müdafiə Nazirliyindən Adalet.az-a verilən məlumata görə, kursda dinləyicilərə NATO-nun media və ictimaiyyətlə birgə fəaliyyəti ilə bağlı müxtəlif sahələrdə brifinqlər təqdim olunub. Mövzuya dair fikir mübadiləsi aparılaraq praktiki qrup çalışmaları yerinə yetirilib. Sonda dinləyicilərə sertifikatlar təqdim olunub.

## *Türkiyə-Azərbaycan birgə universiteti yaradılacaq*

**Türkiyə Azərbaycan birgə ali təhsil müəssisəsinin yaradılması istiqamətində işlərə başlanılıb.**

Adalet.az xəbər verir ki, bunu təhsil naziri Emin Əmrullayev Türkiyənin Ali Təhsil Şurasının sədri Erol Özvar ilə birgə keçirdikləri mətbuat konfransında deyib.

Onun sözlərinə görə, bu istiqamətdə müzakirələr aparılır.

"Ümid edirəm ki, qısa zamanda bu layihənin uğurla həyata keçirilməsini təmin edəcəyik. Ölkələrimiz arasında ali təhsil sahəsindəki əməkdaşlığımız yeni bir mərhələyə qədəm qoyacaq" - deyə, nazir bildirib.



## Tarixi bütövlüyə doğru

Bax: səh.3

## RƏŞAD MƏCİD, NƏ ÇOXDUR YER ÜZÜNDƏ AD



**Deməli, Rəşad Məcid yazır ki, viruslara ad qoyan xüsusi qrup var, deyəsən, cazibədar adlar fikirləşirlər.**

Oturub virusa dərman axtarmaqdansa ad axtarırlar. Birindən qurtarmamış, ikincisi, sonra üçüncüsü, sonra dördüncüsü...

Beləcə ömrümüz viruslara ad tapmaqla keçəcək.

Amerikada qasırğalara gözəl adlar tapıblar, özü də çoxu qadın adı.

Rəşad, yaxşı ki hələ qadın adlarına keçməyiblər.

Amma bütün adları bir tərəfə atıb virusa bircə ad qoymaq lazımdı, Ümumdünya Səhiyyə Təşkilatının özünün virusa oxşar sədrinin adını -Tedros Adanom Qebreyesus.

**Bu qədər də mənasız ad olar? Adam deyənəcən yorulur.**

## *AY SƏNİN MƏZƏN OLSUN, MEHMAN MURADLI*



**Belə bir status yazıb: "Cümə namazını bazar gününə keçirsələr yaxşı olar, yoxsa yolda lazımsız yerə tıxac yaranır".**

**Mehman, cümə namazını bazar gününə keçirmək mümkün deyil, amma bazar gününü cümə gününə keçirmək mümkündü.**

**Mehman CAVADOĞLU**

# Slavyan üçbudağı

## Hələ ki, hər üçü Putinin çiynində



**Ukraynayla Rusiya arasında yaşanan gərginliyin hər ötən gün daha da gücləndiyi və artıq pik həddə çatdığı barədə məlumatlar az qala məqribdən məşriqə bütün aparıcı kütləvi informasiya vasitələrinin baş xəbərinə çevrilib. Əgər ekspert və şərhçilər bir müddət əvvəl bu iki "dost və qardaş" ölkə arasında növbəti müharibənin olub-olmayacağı barədə qurduqları hipotetik versiyalar üzərində "gəzişirdilərsə", indi daha çox hərbi əməliyyatların ayın, yaxud həftənin hansı günü, ya saatında başlayacağını proqnozlaşdırmağa köklənibləр. Kənardan baxan üçün müharibə ehtimalı bu qədər yaxın görünür, yəni.**

Bax: səh.3

## *Azərbaycanda qanunsuz ov edən ərəblər 10 min manat cərimələnib*

**Saatlıda qanunsuz ov edən Küveyt vətəndaşları 10 352 manat cərimələniblər. Bunu Xidmət rəisi Hikmət Əlizadə bildirib.**

Nazirlik rəsmisi qeyd edib ki, Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən keçirilən növbəti nəzarət tədbirləri zamanı Saatlı rayonunda Azərbaycan Respublikasının ovçuluq haqqında qanunvericiliyinin tələblərini pozan xarici ölkə vətəndaşları saxlanılıb. "Araşdırma zamanı onların Küveyt vətəndaşları Jarrah Alazemi, Ahmad Alazemi, Saad Alazmi, Marzooq Alazmi, Rashed Alazemi, Ayedh Alazimi, Bəhreyn vətəndaşları Abdulla Rebai Hameed Khalaf, Mohamed Abdulwahab Ahmed Alharmasi Alhajrı və İmişli rayon sakini Dilavər İbişov olduğu müəyyən edilib. Faktla bağlı akt, protokol tərtib edilib və təqsirkarlar ümumilikdə 10 352 manat məbləğində cərimə olunub", - H.Əlizadə deyib.

## GÜNÜN LƏTİFƏSİ

**Bir gün bir restorana kişi gəlir. Qarsona deyir bəs sizin soyuq çayınız var? Qarson deyir yox.**

Kişi çıxır gedir. Hər gün bu hadisə 4-5 dəfə təkrar olunur.

Axırı qarson bezib restoran sahibinə məsələni danışır.

O da deyir ki, çayı qoy dəmlənsin, sonra qoy soyuducuya, gələndə o kişiyə ver içsin.

Qarson belə də edir. Elə həmin gün kişi gəlir, deyir bala soyuq çayın var?

**Qarson yekə-yekə deyir hə. Kişi deyir onda qoy isinsin, gətir içək.**

# Prezidentin qəbulları



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də ABŞ-ın Şimali Karolina Universitetinin biokimya və biofizika fakültəsinin professoru, Kimya üzrə Nobel mükafatı laureatı, DNT sahəsində mühüm kəşfləri ilə tanınan, ABŞ Milli Elmlər Akademiyasının üzvü, dünya şöhrətli alim Əziz Sancarı qəbul edib.**

Adalet.az xəbər verir ki, Əziz Sancar Vətən müharibəsində Qələbə münasibətilə Prezident İlham Əliyevi təbrik etdi və bu Qələbədən bütün türk dünyasının qürur hissi keçirdiyini dedi.

Prezident İlham Əliyev Vətən müharibəsi zamanı Əziz Sancarın Azərbaycanın haqlı mövqeyini şəxsən dəstəkləməsini və təbrik etməsini yüksək qiymətləndirərək bunun ölkəmizin haqq səsinin dünyada ucaldılması işinə xidmət etdiyini vurğuladı.

Dövlətimizin başçısı müharibə dövründə ermənilərin Gəncəni raket atəşinə tutması nəticəsində valideynlərini itirmiş uşağa Əziz Sancarın yardım etməsini xatırladaraq, bunu böyük insanpərvərlik nümunəsi kimi qiymətləndirdi. Əziz Sancarı türk dünyasının önəmli şəxsiyyəti kimi dəyərləndirən Prezident İlham Əliyev onun ölkəmizə səfərə gəlməsindən məmnunluğunu bildirdi və Azərbaycan xalqının ona həm bir alim, həm də bir vətənpərvər insan kimi böyük hörmət və sevgi bəslədiyini xüsusi olaraq vurğuladı.

**Sonda xatirə şəkli çəkdirildi.**

***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də ABŞ Etnik Anlaşma Fondunun prezidenti və təsisçisi Mark Şnayeri qəbul edib.**

Görüşdə Azərbaycanda tarixən mövcud olan tolerant mühit, bütün xalqların və dinlərin nümayəndələrinin, o cümlədən yəhudi icmasının ölkəmizdə bir ailə kimi mehribanlıq və əmin-amanlıq şəraitində yaşaması məmnunluqla vurğulanıb.

Digər dini və etnik icmaların nümayəndələri ilə yanaşı, yəhudi icmasına dövlət səviyyəsində yaradılan şərait və göstərilən diqqət, qayğı yüksək qiymətləndirilib, yəhudilərin ölkəmizin ictimai həyatında fəal iştirakı qeyd edilib.

Söhbət zamanı Bakıda keçirilən və Mark Şnayerin iştirak etdiyi ”Mədəniyyət naminə sülh” qlobal kampaniyasının Tərəfdaşlar Forumu Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafına verdiyi növbəti töhfə kimi dəyərləndirilib.

## Elektriklə işləyən avtomobillər ƏDV-dən azad olundu

**Azərbaycana elektrik mühərriki ilə işləyən avtomobillərin satışı da ƏDV-dən azad edilib. Bu, Milli Məclisin plenar iclasında üçüncü oxunuşda müzakirəyə çıxarılan Vergi Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.**

Qeyd edək ki, indiyədək elektrik mühərriki ilə işləyən avtomobillərin idxalı ƏDV-dən azad idi. Bundan sonra elektrik mühərriki ilə işləyən avtomobillərin idxalı ilə yanaşı, satışı da ƏDV-dən azad edilir.

Bundan başqa, layihədə istehsal tarixi 3 ildən və mühərrikinin həcmi 2500 kubsantimetrdən çox olmayan hibrid avtomobillərin idxalı və satışının, habelə elektrik mühərriki ilə işləyən avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucularının idxalının 2022-ci il yanvarın 1-dən 3 il müddətinə ƏDV-dən azad edilməsi nəzərdə tutulur.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

## Avtomobil nömrələri ilə bağlı rüsum artırıldı

**Milli Məclis ”Dövlət rüsumu haqqında” qanuna dəyişiklik layihəsini III oxunuşda müzakirəyə çıxarıb. Dəyişikliklə avtomobillərin dövlət qeydiyyat nişanlarında əks olunmuş rəqəmlərlə bağlı dövlət rüsumları müəyyənləşib.**

Dəyişikliklə 001, 002, 003, 004, 005, 006, 007, 008, 009 nömrələrin seriyası müxtəlif hərflərdən ibarət olduqda 2000, seriyası eyni hərflərdən ibarət olduqda 3000 manat; 100, 200, 300, 400, 500, 600, 700, 800, 900 nömrələrin seriyası müxtəlif hərflərdən ibarət olduqda 1500, seriyası eyni hərflərdən ibarət olduqda 2000; 111, 222, 333, 444, 555, 666, 777, 888, 999 nömrələrin seriyası müxtəlif hərflərdən ibarət olduqda 1000, seriyası eyni hərflərdən ibarət olduqda 1500 manat dövlət rüsumu tutulacaq.

Dəyişiklik layihəsi müzakirələrdən sonra səsverməyə çıxarılaraq III oxunuşda qəbul edilib.

## Polkovnik: Füzuli və Ağdamda su hövzələri minalardan təmizlənir





**Füzuli və Ağdam rayonları ərazisində su hövzələri minalardan təmizlənir.**

Bunu Trend-ə açıqlamasında Fövqəladə Hallar Nazirliyinin ”N” saylı hərbi hissəsinin komandiri, polkovnik Əbülfəz Süleymanov deyib. Onun sözlərinə görə, su hövzələrinin minalardan təmizlənməsi böyük əhəmiyyət kəsb edir.

”Məqsədimiz vətəndaşlarımız tezliklə geri qayıtdıqdan sonra onların kənd təsərrüfatı işləri ilə rahat şəkildə məşğul olmalarına şərait yaratmaqdır”, - deyə polkovnik qeyd edib.

## Xocavənddə hərbçimizə hücum edən erməni zərərsizləşdirildi

**Xocavənd rayonu ərazisində Azərbaycan Ordusunun mövqelərindən birində döyüş növbətçiliyi aparan hərbi qulluqçumuz dekabrın 3-ü saat 13.00 radələrində erməni əsilli şəxs tərəfindən hücuma məruz qalıb. Həmin şəxs silahı ələ keçirməyə cəhd göstərib.**

Bu barədə Adalet.az-a Müdafiə Nazirliyindən məlumat verilib.

Hərbi qulluqçumuz havaya atəş açdıqdan sonra özünü müdafiə etmək məqsədilə ona hücum edən təxribatçını zərərsizləşdirib.

Hadisə barədə Rusiya sülhməramlı kontingentinin komandanlığına və Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinə məlumat verilib.

Faktla bağlı araşdırma aparılır.

# Laçın Azərbaycanın ən füsunkar bölgələrindən birinə çevriləcək

**Şanlı Ordumuzun 44 günlük Zəfər Qələbəsindən sonra, 10 noyabr 2020-ci il tarixində məğlub olan Ermənistan faktiki olaraq kapirulyasiya aktına imza atdı. Üştərəfli imzalanan razəlaşmaya əsəsən Ermənistan ın işğalçı hərbi birləşmələri 2020-ci il 1 dekabr tarixində 28 il**

Işğal altında saxladıqları Laçın rayonundan çıxarıldı və Laçın rayonu azad olundu.

Laçın rayonu 1930-cu ildən inzibati ərazi vahidi statusu alıb. Azərbaycan Respublikasının füsunkar guşələrindən biri olan Laçın rayonu ölkəmizin cənubqərbində, Kiçik Qafqazda yerləşir. Rayonun ərazisi şimaldan Kəlbəcər, cənubdan Qubadlı, şərqdən Xocalı, Şuşa və Xocavənd rayonları, qərbdən isə Ermənistanla həmsərhəddir. Rayonun 1 şəhər, 1 qəsəbə, 125 kəndi vardır. Ümumi sahəsi 1835 kvadrat kilometri olan Laçın rayonu 72 min hektar yaylaq sahəsinə və 34 min hektar zəngin meşə massivinə malikdir. Relyefi dağlıq olan rayonun dəniz səviyyəsindən hündürlüyü 700 metrdən 3600 metr arasında dəyişir. Ən yüksək dağ zirvəsi Qızılboğazın hündürlüyü 3594 metrdir. Bol su ehtiyatlarına malik olan rayonun ərazisindən axan Şəlvə və Minkənd çayları birləşərək Həkəri çayını (uzunluğu 113 km) yaradır ki, bu çay da Araz çayına qovuşur.

Laçın rayonu zəngin faydalı qazıntılarla, o cümlədən 3 filiz, 37 qeyri-filiz və inşaat materialları yataqları, civə, vermikulit, əlvan və üzlük daşları, sement xammalı və tikinti daşı yataqları ilə zəngindir. Burada sənaye əhəmiyyətli Gilgəzçay, Sarıbulaq, Narzanlı civə, Ahnəzər əlvan daşı, Qarabəyli, Dəlikdaş, Çorman və Narzanlı kimi vermikulit yataqları daha böyük ehtiyatlara malikdir.

Laçın rayonu 18 may 1992-ci ildə işğal olunub. Rayonun işğalını reallaşdıran düşmən qüvvələrinin böyük hissəsi Laçın dəhlizi vasitəsilə daxil olub. Laçın rayonu Şuşadan sonra işğala məruz qalmış ikinci rayondur. Laçın rayonunun işğal altına düşməsi faktiki olaraq Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratmışdır. İşğal nəticəsində Laçın rayonunun əhalisi etnik təmizləməyə məruz qalıb, 300-dən artıq hərbi və mülki şəxs həlak olub və itkin düşüb.Rayonun əhalisi 79.1 min nəfər olmaqla respublikanın 57 şəhər və rayonunda müvəqqəti məskunlaşıb. Əhəmiyyətli geostrateji mövqeyə malik Laçının işğalı Azərbaycan iqtisadiyyatına ciddi ziyan vurdu.

İşğalın nəticəsində rayonda dövlət və xüsusi mülkiyyətə ciddi zərər yetirilib. 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 133 idarə və müəssisə, 5 musiqi məktəbi, 1 internat məktəbi,



1 orta texniki peşə məktəbi, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri talan və məhv edilib. 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qalıb. VI-cı əsrə aid Alban Ağoğlan məbədi, 14-cü əsrə aid Məlik Əjdər türbəsi, Qaraqışlaq kəndində məscid, Zabux kəndində qədim qəbiristanlıq bunların sırasındadır. Laçın Tarix Muzeyi və onun qızıl, gümüş və tunc sikkələrdən ibarət qədim kolleksiyası talan edilib.

Ermənistan işğalçı tərəf olaraq Cenevrə Konvensiyaları ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq, Laçın rayonunda coğrafi adların dəyişdirilməsi, rayonun təbii resurslarının talan edilməsi və qazanc mənbəyinə çevrilməsi, əsasən, Suriyadan olan erməni əsilli qaçqınlar olmaqla məqsədyönlü məskunlaşma siyasətini apararaq demoqrafik tərkibin dəyişdirilməsi kimi qeyri-qanuni əməllərilə məşğul olub.

Azərbaycan xalqı özü, Azərbaycan Respublikasının Hərbi qüvvələrinin Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq qanunlarının aliliyini və tarixi ədaləti bərpa etdi. Vətən müharibəsində əldə etdiyimiz qələbə nəticəsində imzalanmış üçtərəfli bəyanata əsasən, dekabrın 1-dəLaçın rayonu Azərbaycana təhvil verildi. Bundan əvvəl, noyabrın 9-u Laçın rayonunun Güləbird, Səfiyan və Türklər kəndləri Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir.

2020-ci il noyabrın 26-da ”Laçının azad olunmasına görə” medal təsis edilib. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin sərəncamları ilə Laçın rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 8395 hərbi qulluqçusu ”Laçının azad olunmasına görə” medalı ilə təltif olunmuşdur.

Cari ilin 14 fevral və 16 avqust tarixlərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın rayonunda səfərdə olmuşdur. Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş komandanı İlham Əliyev fevralın 14-də Güləbird kəndində Azərbaycan bayrağını qaldırdı.

Laçın istiqamətində dövlət sərhədləri möhkəmləndirilir. Eyni zamanda,Laçın rayonunda fərqli təyinatlı infrastruktur layihələri reallaşdırılır.

Laçın rayonun dagenerasiya gücü 8 meqavat olan Güləbird Su Elektrik Stansiyasını işə salınıb.Bu stansiya təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək. Prezident İlham Əliyev vurğulayıb: ”Bu, azad edilmiş torpaqlarda istismara verilən birinci elektrik stansiyasıdır və bunun çox böyük əhəmiyyəti, böyük rəmzi mənası var. Biz qayıdırıq bu torpaqlara. Biz Kəlbəcər və Laçın rayonlarında ermənilər tərəfindən uzun illər ərzində qanunsuz istismar edilmiş, onlar tərəfindən dağıdılmış bütün su elektrik stansiyalarını bərpa edəcəyik. Düşmən təkcə Laçın rayonu ərazisində 5 su elektrik stansiyasını dağıdıb. Onların hamısı bərpa ediləcək.”

Prezident İlham Əliyevin sərəncamına əsasən tikilən Kəlbəcər-Laçın avtomobil yolunun uzunluğu 72,8 kilometrdir. Birinci və ikinci texniki dərəcəyə uyğun tikiləcək yolun hərəkət hissəsinin eni 9-16 metr olacaq. İki və dörd hərəkət zolaqlı olacaq yol üzərində altkeçidlər və körpü inşa olunacaq. Yol üzərində 3 tunelin tikintisi aparılacaq. Tunellərin ümumi uzunluğu 9450 metr olacaq.

İşğaldan azad olunmuş ərazilərdə, o cümlədən Laçında hava limanının inşası bölgənin beynəlxalq statusunu artıracaqdır. Laçın rayonunda beynəlxalq hava limanının tikintisinə start verilib. Azad edilmiş torpaqlarda ümumilikdə üç beynəlxalq hava limanı tikiləcək. Hava limanlarının mülki aviasiya, yükdaşıma və hərbi əhəmiyyəti danılmazdır.

Qeyd edək ki, Laçın rayonunun Qorçu kəndinin ərazisində inşa ediləcək hava limanı bir neçə mühüm amili özündə ehtiva edir. İlk növbədə, şübhəsiz ki, burada aeroportun tikilməsi ümumilikdə bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək, turizm potensialının artırılmasına səbəb olacaq. Laçın hava limanının inşası həm də işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasını göstərir. Olduqca mühüm strateji əhəmiyyətə malik olan Laçın aeroportu logistik mərkəzlərin yaradılmasına da töhfə verəcək. Laçın hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olacaq. Uçuş-enmə zolağının uzunluğu 3 kilometr olacaq hava limanında 6 təyyarə dayanacağının inşası nəzərdə tutulur. Bu hava limanı Kəlbəcər rayonu ərazisinə hava nəqliyyatı ilə gediş-gəlişi asanlaşdıracaq.

**Prezident İlham Əliyev vurğulayıb: ”Hesab edirəm ki, bu, bir çoxları üçün gözlənilməz oldu. Bəziləri bunu möcüzə hesab edirdilər. Çünki sovet dövründə heç vaxt bu bölgədə - Kəlbəcər-Laçın zonasında hava limanı olmayıb. Məhz bu səbəbə görə. Çünki çox bahalı bir layihə ola bilərdi və məqbul yer də tapmaq mümkün deyil. Ancaq biz bunu edirik. Müstəqil Azərbaycan dövləti buna da qadirdir. Buna texniki imkanlarımız da, maliyyə imkanlarımız da və güclü iradəmiz də var.”**

**Hazırladı:**
**Rüstəm Hacıyev**

# Strategiya layihəsi təsdiq üçün Prezidentə təqdim edilib

**Baş nazir Əli Əsədov Milli Məclisin ötən gün keçirilən plenar iclasında çıxış edib.**

”Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında” qanun layihəsinin parlamentdə aktiv müzakirəsinə, deputatların təkliflərinə görə təşəkkür edən Baş nazir bildirib ki, gələn ilin dövlət büdcəsi müstəqil Azərbaycanın ən böyük büdcəsidir: ”Hamımız fəxr hissi keçiririk ki, işğal altındakı torpaqlarımız Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz tərəfindən azad edilib. İşğaldan azad edilmiş torpaqlarla bağlı məsələlər büdcədə prioritet istiqamət kimi nəzərə alınıb. Tarixi çağırışlar nəzərə alınaraq, Prezident tərəfindən 2030-cu illə bağlı prioritetlər barədə sərəncam imzalayıb, hökumətə sosial-iqtisadi inkişaf strategiyanın hazırlanması ilə bağlı tapşırıq verilib. Strategiya layihəsi hazırlanıb və təsdiq üçün Prezidentə təqdim edilib”.



O bildirib ki, hərbçilərinin sosial, məişət, xidmət sahələri ilə bağlı şəraitin yaxşılaşdırılması hökumətin diqqət mərkəzindədir:

”Ordu quruculuğunun daha da gücləndirilməsi Ali Baş Komandan tərəfindən qarşımıza qoyulan ən vacib məsələrdən biridir. Təhlükəsizliyin təmin olunması üçün zəruri infrastrukturun yaradılması, hərbçilərin sosial təminatının yaxşılaşdırılması hökumət üçün əsas prioritet istiqamətlər sırasındadır”.

Əli Əsədov çıxışında qiymət artımına da münasibət bildirib. Baş nazirin sözlərinə görə, pandemiya istehsal həcmlərinə mənfi təsir göstərib: ”Beynəlxalq təşkilatlar qiymətlərin son 30 ildə ən yüksək həddə çatdığını qeyd edib. Bunun ölkə iqtisadiyyatına mənfi təsirinin qarşısının alınmasına, ərzaq təhlükəsizliyinə xüsusi diqqət yetiriləcək. Qiymət artımı ilə əlaqədar hökumət mümkün olan bütün qabaqlayıcı tədbirləri görür və bundan sonra da görəcək. Süni qiymət artımının qarşısının alınması ilə bərabər, idxalın əvəzinə istehsalın artırılması nəzərdə tutulur”.

Koronavirusla mübarizə məqsədilə dövlət büdcəsindən 1,6 milyard manatdan çox vəsait xərcləndiyini nəzərə çatdıran hökumət rəhbəri bildirib ki, növbəti ildə də pandemiyanın təsirlərindən qorunmağa ehtiyac var.

Əli Əsədov vurğulayıb ki, 2022-ci il üçün dövlət büdcəsində xərclərin 69 faizi sosialyönümüdür. Əməkhaqlarının, sosial müavinətlərin, pensiyaların artırılması üçün əhəmiyyətli maliyyə təminatı yaradıldığını qeyd edən Əli Əsədov şəhid ailələrinin, qazilərin məsələlərinin dövlətin daim diqqət mərkəzində saxladığını vurğulayıb.

**Zəngəzur dəhlizinin ölkəmizin iqtisadi inkişafı üçün əhəmiyyətindən danışan Baş nazir Füzuli Beynəlxalq Hava Limanının artıq istifadəyə verildiyini vurğulayıb, Laçın və Zəngilanda da hava limanlarının da inşasına başlanıldığını diqqətə çatdırıb.**

**Nicat Novruzoğlu**

# Yeniyetmələrə də şəkilli şəxsiyyət vəsiqəsi veriləcək

**15 yaşı tamam olmamış Azərbaycan vətəndaşlarına da fərdi identifikasiya kartı deyil, şəxsiyyət vəsiqəsi veriləcək. Bununla əlaqədar ”15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında” qanun ləğv edilir, ”Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” qanuna müvafiq dəyişiklik edilir.**

Başqa sözlə, 2022-ci il yanvarın 1-dən qüvvəyə minməli olan ”15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında” qanuna əsasən, 15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı Azərbaycan Respublikasının ərazisində onun şəxsiyyətini təsdiq edən sənəd olmalı idi. Ancaq bu qanun ləğv edilir. ”Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” qanuna təklif olunan dəyişikliyə əsasən isə 15 yaşı tamam olmamış Azərbaycan vətəndaşı şəxsiyyət vəsiqəsini onun valideyninin, vətəndaşı övladlığa götürənin, vətəndaşın qəyyumunun və





ya himayəçinin, habelə qanuni nümayəndəsinin notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxsin müraciəti əsasında almaq hüququna malikdir. Layihəyə əsasən, 5 yaşadək olan vətəndaşa verilən şəxsiyyət vəsiqəsi vətəndaşın 5 yaşı tamam olanadək, 5 yaşı tamam olmuş vətəndaşa verilən şəxsiyyət vəsiqəsi isə vətəndaşın 15 yaşı olanadək etibarlı olacaq.

Qeyd edək ki, hazırda ”Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” qanunda əksini tapan və gələn il yanvarın 1-nə qədər qüvvədə olan keçid müddəalarına əsasən 15 yaşı tamam olmamış Azərbaycan vətəndaşlarına şəxsiyyət vəsiqəsi verilir.

**Milli Məclisin plenar iclasında ”Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” qanuna dəyişiklik birinci oxunuşda qəbul edilib.**

*İlqar Rəsul*

# Çörçill və Rey: gələcəyə yatırılan sərmayələr



***İnsanı məhvə aparan da, xilas edən də, ilk növbədə, onun əməlləridir. Əməllərimizdən yaxşı heç nəyimiz olmamalıdır.***

### ÖTƏN ƏSRİN İLK YARISI

***Maraqlı əhvalat: XX əsrin əvvəllərində Uinston Çörçillin atası minnətdarlıq jesti kimi Aleksandr Fleminq adlı britaniyalı bir gəncin təhsil haqqını ödəyir. Fleminq oxuyub dünyanın məşhur mikrobioloqu olur, bəşəriyyətin taleyində ciddi rol oynamış penisilini kəşv edir. Və ikinci dünya müharibəsi zamanı - 1943-cü ildə Uinston Çörçill Tunisin Karfagen şəhərində ağır xəstələnəndə penisilin onun həyatını xilas edir.***

### UYDURMA

***21 dekabr 1943-cü ildə Daily Telegraph qəzeti Çörçillin penisilinlə sağaldığını bildirsə də, əslində onu May and Baker Ltd (Dagenham) tərəfindən kəşf edilmiş sulfanamid qrupunun yeni dərmanı - sulfapiridin xilas etmişdi. Bu qrupun ilk dərmanı olan prontosil isə Almaniyada kəşf edilmişdi. Görünür, həmin vaxt Böyük Britaniya Almaniya ilə müharibədə olduğundan ingilis qəzetləri Çörçilli penisilinin (yəni öz dərmanlarının) sağaltdığı hekayəsini uydurmuşdular.***

### MAHİYYƏT

***Bunları danışmaqda məqsədim, əlbəttə, Çörçilli o vaxt hansı dərmanın xilas etdiyini araşdırmaq deyil. Mənim bu əhvalatda (uydurma da olsa) əsas diqqətimi çəkən məsələnin tamam başqa tərəfidir: Deməli, Çörçillin atası bir gəncin təhsilinə pul***



***xərcləyib, Böyük Britaniyanın dünyaca məşhur, Nobel mükafatçısı alimini yetişdirir, həmin alim də penisilini kəşf edib, Böyük Britaniyanın baş nazirini xilas edir. Dolayısı ilə, Çörçillin atası özü bilmədən həm də oğlunun gələcək həyatına sərmayə yatırmış olub.***

### BU GÜNÜMÜZ

***Bu günlərdə qazi qardaşımız Rey Kərimoğlu ilə kitab təqdimatında idik. Rey çıxış edirdi, birdən qazi yoldaşı Azadın da tədbirdə olduğunu gördü, elə danışa-danışa da yaxınlaşıb, onun boynunu qucaqladı, hamıya müraciətlə dedi: ”1992-ci ilin avqustunda, düşmənin arxasında kəşfiyyat əməliyyatı zamanı minaya düşüb yaralananda, məni orada qoymayıb mühasirədən çıxardan oğlanların biri budur”***

### 1993-CÜ İLDƏN SONRA

***Müharibədən sonra Rey Kərimoğlu uzun müddət jurnalist kimi fəaliyyət göstərib (biz onunla eyni vaxtda parlament müxbiri də olmuşuq). İşlədiyi müddətdə Qarabağ müharibəsinə dair xeyli məqalələr, esselər, araşdırmalar yazıb, vətən fədailərinin problemlərini işıqlandırıb, hüquqlarını müdafiə edib. Bir sözlə, təkcə meydanlarda, etiraz aksiyalarında yox, həm də mətbuatda can qoyub bu adam. Yazılarının toplusundan ”Kod adı Rey” adlı yaxşı, romana bərabər sənədli bir kitab da ərsəyə gəlib. Reyin həmin kitabında cəmləşən yazıları, müəllifi və aparıcısı olduğu məşhur ”Müharibə adamı” televiziya layihəsi zamanında neçə-neçə şəhidin, qazinin haqqının verilməsinə, xidmətinin etiraf edilməsinə yol açıb***

### VETERAN

***Müharibədən illər sonra Şahin adlı bir neftçalalı qazi nə qədər desə də ki, ”mən veteranam, Qarabağda döyüşmüşəm”, sənədi yoxmuş deyə kimsə ona inanmırmış. Qapıda-qonşuda rişxənd edənlər də olurmuş, hər dəfə onun veteranlığından söz düşəndə. Yaxınları da əmin deyilmiş Şahinin Qarabağ qazisi olduğundan.***

***İş o yerə gəlibmiş ki, xanımı da onu hərdən müharibədən söz açdığı üçün qınayır, tənə ilə - ”yaxşı də, bilirik, döyüşmüsən, amma camaat içində danışma, ayıbdır” - deyirmiş.***

***Bir gün Şahin qəzetdə keçmiş döyüş yoldaşı Rey Kərimoğlunun məqaləsini oxuyur, öz adına rast gələndə qəzeti götürüb məhəlləyə qaçır, dost-tanışa göstərib ”baxın, - deyir, - burada mənim də adım çəkilir, amma siz döyüşdüyümə inanmırdınız”. Kimsə qayıdır ki, ”ölkə doludur Şahin adlı adamla, nə bilək haqqında yazılan sənsən?” Yenə inanmırlar Şahinə. Növbəti yazılarının birində Rey Kərimoğlu keçmiş döyüş yoldaşlarının siyahısını da dərc edir.***

***Hamısını da adı, soyadı, atasının adı ilə. Şahin yenə qəzeti aparıb ona inanmayanlara göstərir. Bu dəfə hamı Şahinə inanır, yəqin ki, üzrxahlıq edənlər də olur. Sonradan Rey Şahini efirə - o vaxt hamının, illah da qazilərin, şəhid aillərinin səbirsizliklə növbəti buraxılışını gözlədiyi ”Müharibə adamı” verilişinə dəvət edir, ocaq başında oturub birgə keçdikləri döyüşlərdən danışırlar.***

***Verilişdə Şahin vaxtilə iştirakçısı olduğu ”Umudlu döyüşü” barədə ətraflı danışır. Həmin verilişin və yazıların da sonradan Şahinin döyüşçü haqqının tanınmasına, ona veteran vəsiqəsi verilməsinə təsiri olur***

### SON

***Ogünkü kitab təqdimatında Rey ilə Azadın bir-birinə sarılması məni sevindirmişdi. Tədbirdən sonra birgə kafeyə getməyi təklif etdim. Qırımından anladım ki, Reyin də planı beləymiş. Getdik, oturduq, bu görüşü qeyd elədik. Olandan-keçəndən danışdıq, şəhidləri, qaziləri yad elədik. Sonra söhbət yenə də Reyin yazılarından düşdü və mən Azada dedim:***

***”Bax, siz o vaxt ”məni qoyun, gedin” deyən yaralı Reyi sürüyüb mühasirədən çıxaranda, əslində şəhidlərin, qazilərin haqqı-hüququ uğrunda mücadiləni, sonradan müharibə, ayrı-ayrı döyüşlər, döyüşçülər barədə yazılacaq yazıları, hazırlanacaq verilişləri, eləcə də Qarabağ savaşının gerçəklərini əks etdirən çox maraqlı bir kitabı odun-alovun arasından çəkib xilas edirmişsiniz Dolayısı ilə, o vaxt siz özünüz də bilmədən öz gələcək həyatınıza sərmayə yatırırmışsınız”***

*29 noyabr 2021*

# Tarixi bütövlüyə doğru

**Kəlbəcərin azadlığa, bizə qovuşması deyəndə müharibədən iki il öncə Murov yüksəkliklərinə olan səfərim yadıma düşür. Səfər zamanı yaşadığım duyğular, ümidlər azadlıq gününü mənə daha da doğmalaşdırır.**

Üstəgəl bizə bələdçilik edən korpus komandirinin müavini Babək Səmidlinin şəhid olması düşüncələrimə ayrı rəng, doğmalıq qatır.

2018-ci ilin oktyabrın31-i. Elə həmin vaxt qaralamışdım bu yazını.

"Aprel igidlərinin, qazilərinin, şəhidlərinin döyüşmüş olduğu yerləri görmək, azad edilmiş müqəddəs torpaqlara qovuşmaqümidiylə səfərdəyik.

Murov yüksəklikləri bizi gözləyir...

Müdafiə Nazirliyinin sözçüsü bizi yola salır. Yol boyu həmin yerlərə çatmaq üçün nə qədər darıxsaq da sonradan zamanın necə keçdiyini unuduruq. Ön sırada əyləşmiş ehtiyatda olan zabitlərimizin Qarabağ savaşındakı əməliyyatlardan, öz döyüş yolundan danışması bizi acılı-şirinli keçmişə aparır.Ən arxa sırada otursam da hiss edirəm ki, qulağım məndən qabaq sıra əyləşib.

Yol boyu Qarabağ adlı, işğal olunmuş rayonların adına olan kafelər diqqət çəkir. Vətəni kafeyə, yeyib-içmək masasına qədər necə sığışdırmaq olar deyə düşünürəm. İşğal olunmuş rayonların adını unutmaq istəməyən adını döyüş klublarına, idman klublarına və.s verə bilər, daha əylənmə mərkəzlərinə niyə qoysun ki?! Kafelərdən sonra məcburi köçkünlərçün salınan "Ümid" qəsəbəsinin adı qəmli düşüncələrimin içində yeni bir ümid qığılcımı yaradır.

Bərdədəyik. Zabitlər yataqxanası. 2000-3000 metr yüksəklikdəki postlara çıxıb, nələr edəcəyimizi planlaşdırırıq. Hiss edirəm ki, hamıda qəribə bir sevinc var. Ən çətin şəraitdə xidmət edən zabit, əsgərlərlə bərabər olmaq, əllərini sıxmaq, onlarla bir günü olsa da bərabər keçirmək şansı. Bir də işğal altında olan Azərbaycan torpaqlarını həmin yüksəkliklərdən öz gözünlə görə bilmək hissinin yaratdığı sevinc heç birimizi yatmağa qoymur.

Bu, necə qəddar sevincdir İlahi?!

İşğalda olan torpaqları sadəcə gözlərinlə görə bilmək hissinə insan niyə sevinsin?!

Adı üstündə işğalda olan, əsir torpaq!

Özümə toxtaqlıq verirəm. Müxtəlif müqayisələr tapıram. Bu, sadəcə həbsxanada olan əzizini bir günlük görmək hissinə bənzəyir. Nə zamansa azadlığa qovuşacağına inanırsan. Gözlərimdə yuxunun yaratdığı əzab var. Amma yatmıram, yata bilmirəm. Uşaqların səhər harasa sevdiyi yerə gedəcəyini biləndə yata bilməməsinə bənzəyir bu. Telefonla qurdalanıram. Saat 5-dir. Tez-tez eyvana çıxıb siqareti siqaretə calayıram. Bu təklikdə məni anlayan biri varsa bəlkə də odur.

Qalx komandasına isə cəmi bir saat qalır.

Səlahiyyətli zabitlər qalxacağımız postlarda şiddətli qar yağıntısı olduğunu, əlaqənin az qala mümkünsüz olacağını bildirirlər.



Hər kəsin gözlərində kədər var. Amma bizə başçılıq edən polkovnik Babək Səmidlinin bizi istədiyimiz yüksəkliklərə çıxardacağını bildirməsindən sonra özümüzə gəlirik.

Üç-dörd saata nəhayət iki min metr yüksəklikdə olan postlardan birinə çatırıq. Zabit, əsgərlərlə jurnalistlərin çoxdanın tanışı, doğması kimi görüşüb qucaqlaşması mənə qardaşlıq andını, ən gözəl sevgiləri xatırladır. Qısa zamanda köhnənin dostları kimi maraqlı xatirələrdən, aprel və.s döyüşlərindən danışırıq. Əsgər və zabitlərlə müsahibələr alır, onlarla xatirə şəkilləri çəkdirir.

Polkovnik Səmidlinin bizimlə hərbimizdən, döyüşlərdən danışması, intelektual söhbətləri Azərbaycan ordusunda hərbi aristokratiyanın yarandığı ümidini alovlandırır.

Bu yüksəklikərdən həm işğalda olan, həm də olmayan Azərbaycan torpaqları ovcumuzun içində görünür. Bəlkə də ən gözəl duyğular, ən romantik şeirlər yazılası yerlərdir. Əlbəttə, adam burdakı xidmətin çətinliyini bilməsi elə o xəyallardaca ilişib qalar. Onsuz da ara-sıra atəş səsləri adamı o xəyallardan səngərin qucağına atır. Burda ən gözəl sevgili qucaq səngər qucağı, ən sevdiyinsə silahındır.

Aprel döyüşlərində şəhid olan döyüşçülərimizin həlak olduğu yerləri göstərirlər. O torpaqlar, o yerlər gözümüzdə, ruhumuzda daha da müqəddəsləşir. Həmin torpaqların hər qarışı gözümdə öz cansız simasını itirib canlı Azərbaycan əsgəri kimi görünür. O torpaqlarla qucaqlaşmaq, onları qoxlamaq, bağrıma basmaq istəyirəm.

İnsan sevəndə dizlərindən və çiyinlərindən sevir. Sevdiyi adamın başını bütün varlığıyla dizinə, çiyninə qoymasını istəyirsən. Bunu darıxanda hiss etmişəm. Darxıdanda dizlərim və çiyinlərim ağrıyır. Sanki dünyanın ən böyük ağrısıdır. Yerində qıvrıla-qıvrıla qalırsan. Amma nə dərman, nə də hansısa müalicəvi üsulların buna təsiri yoxdur. Nə revmatizmdir, nə də tanıdığımız başqa bir xəstəlik.

Hə, onu deyirdim, artıq çiyinlərimin, dizlərimin ağrıdığı hiss edirəm. Çiyinlərim keçmiş rütbə üçün, silahımçün darıxır, dizlərim səngər torpağı üçün.

Səhərdən önümüzdə qarlı, dumanlı görünən silsilələrdə qarın yavaş-yavaş əridiyini görürük. Hər şeydə mistika axtaran mən bu görüşdə o yüksəkliklərin də qovuşmaq həsrətindən əridiyi anlamanı verirəm.

Sanki bizə öz mesajını ötürür, yollar da rahatdı, heç bir bəhanəniz yoxdu, gəlin daha, deyə yalvarır...

Hava qaraldıqca soyuğun iliyimə kimi işlədiyini hiss edirəm. Bu soyuqda əsgəri xidmətin necə çətin olduğunu söyləməyə belə ehtiyac yoxdur. Hətta silahdakı güllənin, mərminin də üşüdüyünü duyuram.

"Sağ qalan varmı?!" kitabımı imzalı hədiyyə edirəm. Həyatımda bəlkə də ən maraqlı, ən kreativ imza günü və yeridir mənimçün. İki min metr yüksəklikdə, düşmənlə bir neçə metrlik məsafədə... İnanmıram ki, bundan sonra daha belə imza günüm olsun. Zabit dostumuz ayrılandasa yarızarafat, yarciddi deyir ki, siz narahat olmayın, özünüz qayıtsanız da, kitabınız burada bizimlə birgə xidmət edəcək.

Üç gün sonra postda kitabın şəklini çəkib göndərməsi, şeirlər haqqında fikirlərini bildirməsi isə bir şair üçün möhtəşəm hisdir.

Atəşkəs müqaviləsindən sonra azad edilmiş postları, yüksəklikləri gəzirik. Rayon-rayon itirdiyimiz torpaqları indi qarış-qarış azad edirik. Əsad odur ki, azad olunur. Çünki hər kərə bu filan ildə azad edilmiş ərazidir deyiləndə insanın keçirdiyi duyğunu izah etməyə sözlər aciz qalır.

Səngərdən izləyirik. Önümüzdə Azərbaycanın parçalandığı, bir xalqı ikiyə bölən, o zamandan etibarən itirə-itirə getdiyimiz səbəbkar var. Gülüstan müqaviləsinin imzalandığı Gülüstan qalası. Yarı dağılmış qala divarlarından yüz illərin yarası, iniltisi axır.

Bu görüş o qədər mistik, simvolik anlam daşıyır ki, mənimçün. Tam əmin olduğum, inandığım bir mistik inam yaranır. O qalanın önünə keçdikdən, azad etdikdən sonra Azərbaycanın bütövlüyü bərpa olacaq. O qala kiçik ərazisi ilə birgə Azərbaycan ordusu, Azərbaycan tarixi üçün böyük bir rəmzdir. Məhz o simvolu azad etmək...

Məhz o qalanı!

Yol boyu postlarda keçirdiyim anları xatırlayıram. Bir daha yenidən görüşəcəyikmi? Yox, heç zaman orada görüşməyəcik! Amma mütləq görüşəcəyik. Bu dəfə daha irəliyə çəkilmiş, azad olunmuş torpaqlarla, həmin zabit, əsgər heyəti ilə.

Qulağımda qulaqcıq, xəyallara dalmış halda Elçin Mirzəbəylinin sözlərinə bəstələnmiş, oxunan azadlıq marşı saatlarla təkrar-təkrar oxunur:

*"Ey ulu Vətənim, doğma torpağım,*
*Var tükənməz odun, sönməz ocağın,*
*Azadlığa çıxmaq üçün qalxsın bayrağın.*

*Qalx ayağa millət,*
*Boğmasınlar səsimizi.*
*Bir bayraq altında*
*Birləşdir bizi!"*

**Emin Piri**
**2018**
**Murov yüksəklikləri**

*Mehman Cavadoğlu*

# Slavyan üçbudağı

## Hələ ki, hər üçü Putinin çiynində

**Ukraynayla Rusiya arasında yaşanan gərginliyin hər ötən gün daha da gücləndiyi və artıq pik həddə çatdığı barədə məlumatlar az qala məqribdən məşriqə bütün aparıcı kütləvi informasiya vasitələrinin baş xəbərinə çevrilib. Əgər ekspert və şərhçilər bir müddət əvvəl bu iki "dost və qardaş" ölkə arasında növbəti müharibənin olub-olmayacağı barədə qurduqları hipotetik versiyalar üzərində "gəzişirdilərsə", indi daha çox hərbi əməliyyatların ayın, yaxud həftənin hansı günü, ya saatında başlayacağını proqnozlaşdırmağa kökləniblər. Kənardan baxan üçün müharibə ehtimalı bu qədər yaxın görünür, yəni.**

Od olmasa tüstü çıxmaz. Təbii ki, mətbuatın bu aşırı canfəşanlığı da boş yerdən qaynaqlanmır, artıq hər an partlayası barıt çəlləyini xatırladan Ukrayna-Rusiya cəbhəsində cərəyan edən və getdikcə daha təhlükəli xarakter alan siyasi, diplomatik və hərbi gəlişmələrin məntiqindən qidalanır. Jurnalistlərisə olsa-olsa öz xasiyyətlərinə və "peşə əxlaqı kodeksləri"nə sadiq qalaraq faktları az-maz şişirtdiklərinə və rəngləri bir xeyli tündləşdirdiklərinə görə qınamaq mümkündü.

Son illər dünya siyasətində hərbi təlimlər güc nümayişinin əsas brendinə çevrilib. Əgər əvvəllər belə təlimlər daha çox yeni silahların sınağı və ya şəxsi heyətin döyüş hazırlığı səviyyəsini yüksəltmək üçün keçirilirdisə, indi əsas məqsəd rəqiblə virtual dava-dava oyununa çıxmaqdan, ona müharibənin ilk vizual anonsunu göstərməklə "xox" gəlməkdən və beləliklə, vəziyyəti əsəblər müharibəsi həddinə qədər qızışdırmaqdan ibarətdi. Bu cür situasiyada isə güclülər yox, soyuqqanlı davranmağı bacaranlar udurlar.

Qara dənizdə neçə vaxtdı ardıcıl olaraq müxtəlif kod adı və təbliğat çətiri altında keçirilən qarşılıqlı təlimlərin məqsədi də əslində budur. Rusiya prezidenti zahirən özünü nə dərəcədə soyuqqanlı aparsa da impulsiv qərarlar vermək potensialı yetərincə güclü olan bir siyasətçidi və rəqibləri, heç şübhəsiz, onun bu xasiyyətinə yaxşı bələddilər. Məhz bu məqama görə Qərb Rusiyanın nəinki Ukraynaya, hətta Şərqi Avropanın artıq çoxdan NATO üzvü olan digər ölkələrinə təcavüz edəcəyindən əməlli-başlı qorxuya düşüb, Rusiyasa əksinə NATO qüvvələrinin düz burnunun ucunda təlim keçməklə ona meydan oxumasından narahatdı.

Vaxtilə Putini Qərblə düşmən eləyən əsas məsələ məhz Şərqi Avropanın "natolaşdırılması" siyasəti olmuşdu. O hələ 14 il bundan əvvəl söylədiyi məşhur "Münhen nitqi"ndə Qərbi 90-cı illərin əvvəllərində NATO-nun Şərqə doğru genişləndirilməyəcəyi ilə bağlı götürdüyü öhdəliklərə əməl etmədiyinə görə ittiham eləmişdi. Xatırladaq ki, Rusiya prezidentinin olduqca sərt ritorikaya köklənmiş həmin nitqi SSRİ-nin dağılmasından sonra yaranmış yeni dünya düzənini dəyişdi, rəsmi Moskvayla Qərbin münasibətlərini faktiki olaraq yenidən soyuq müharibə dövrünə qaytardı.

Hərçənd, Qərb siyasi dairələri onun bu ittihamını qəbul etmirlər, çünki ortada kiminsə belə bir öhdəlik götürməsi barədə heç bir saziş və ya nəsə başqa bir sənəd yoxdu. Bu, görünür, həmin dövrdə Rusiya rəhbərliyiylə çoxsaylı söhbətlər zamanı şifahi şəkildə səsləndirilən bir fikir olub ki, hazırda onu kimin deyib kimin eşitdiyi barədə hər hansı bir şahid tapmaq da hardasa olduqca müşkül məsələdi, tapılsa belə bundan sınıq barmağa konkret bir əlac olası deyil. Qərb, sadəcə olaraq, o vaxt inqilabı dəyişikliklərin gətirdiyi məstedici eyforiya içində xumarlanan Rusiya rəhbərliyini çox naşıcasına aldadıb və çətin ki, üstündən üç onillik keçəndən sonra əsrin bu böyük aldanışının əvəzini çıxmaq üçün göstərilən mənasız çabalar vəziyyəti dəyişdirməyə yardımçı olsun.

Rusiya elitası nə qədər Şərqi Avropanın xiffətini çəksə də onun yoxluğunu Ukrayna qədər ağır itki saymır. Çünki Moskvayla Kiyevi bir-birinə təkcə cari siyasi, iqtisadi və geopolitik maraqlar yox, həm də genetik qohumluq, eyni milli kökə mənsubluq, kilsənin təbirincə desək, bir ağacın kökündən çıxan ayrılmaz budaqlar olması amili bağlayır. Rus Pravoslav Kilsəsi hələ XVIII əsrdən başlayaraq rus xalqının "velikoroslar, maloroslar, belaruslar" deyə üç ayrılmaz qoldan ibarət olması ideyasını irəli sürmüş və həmin ideyanı şüurlara daha rahat yeritmək üçün adını da məşhur dini istilaha uyğun şəkildə "triedinstvo" qoyaraq mistik auraya bürümüşdü.

Rusun bu üç budağı arasında beloruslardan fərqli olaraq çoxəsrlik monqol-tatar əsarətini başbaşa yaşayan maloroslarla velikorosların taleləri bir-birinə daha yaxın olub. Rus tarixçisi M. Kaçenovski belorusları adının mənşəyini də məhz bu amillə bağlayır - "ağ ruslar", "təmiz ruslar", "azad ruslar", yəni, monqol-tatar işğalı altında yaşamamış ruslar.

Bəs, bir ağacın bu iki ayrılmaz qolu arasında bitmək bilməyən qatı düşmənçiliyin səbəbi nədir? Bunun açması Putin üçün də çətin olan bir müəmmadı. Yoxsa ilin-günün bu vaxtında işini-gücünü atıb "elmi-nəzəri tədqiqatlar"a baş vurmazdı. Hərçənd, bu "tədqiqatların" nəticəsi olaraq üç-dörd ay əvvəl ortaya çıxardığı "Rusların və Ukraynalıların tarixi birliyi haqqında" tarixi-fəlsəfi opusunda da həmin mistik sualın cavabını tapmaq mümkün deyil. Belə sualların cavabları arxivlərin toz basmış künc-bucaqlarında it-bat düşməyib ki, ordan da tapıb çıxardasan. Belə sualların cavablarını ölkələr arasındakı siyasi münasibətlər sisteminin, əməkdaşlıq modelinin prinsiplərində axtarmaq lazımdı.

Rusiya öz qonşularıyla süzeren-vassal modelindən kənar prinsiplərlə əlaqə qurmaq gerçəkliyini həzm edə bilmir. Zor-xoş müstəqillik verdiyi ölkələrlə bərabərhüquqlu münasibətlər qurmağı şəninə sığışdırmır. De-yurye tanımağa məcbur olduğu müstəqilliyi de-fakto tanımağı özünə ar bilir. Onun istər slavyan, istərsə də digər etnosların təmsilçilərindən ibarət olan bütün keçmiş müstəmləkələriylə ən böyük problemi məhz bu psixoloji baryeri aşa bilməməsi, yəni bir şərq ailəsi sayaq adam balası kimi boşanmağı bacarmamasıyla bağlıdı. Halbuki dünya tarixi keçmiş müstəmləkələrlə metropoliyaların ayrıldıqdan sonra da tam bir qərb ailəsi kimi dost olaraq qalmaları və uğurlu əməkdaşlıq etmələriylə bağlı saysız-hesabsız unikal nümunələrlə doludu.

Bütün bu tarixi-politoloji ricətlərdən fonunda Ukrayna-Rusiya münasibətlərində yaranmış son durum zahirən nə qədər gərgin görünsə də proseslərin açıq hərbi qarşıdurma müstəvisinə keçməsi, konkret desək, müharibə ehtimalı real görünmür. Təbii ki, bu iki ölkə arasındakı münasibətlərin nəinki yaxşılaşması, hətta nisbi olaraq yumşalması yaxın perspektivdə, yəni, ən azı Donbasın geri qaytarılmasına kimi mümkün olmayacaq. Rusiyanın növbəti aqressiyası da ağlabatan deyil, çünki indiki mərhələdə Kremlin Ukrayna üçün müəyyənləşdirdiyi qırmızı xətt onun NATO üzvülüyünə qəbul edilməsidi ki, hazırda belə bir perspektiv Brüsselin planlarına daxil deyil.

Üstəlik, Rusiyanın daha Ukraynadan hərbi müdaxilə yoluyla qoparacağı bir şey qalmayıb. Növbəti işğal faktı Moskvanın özünü çıxılmaz bataqlığa sürükləyə bilər.

Çünki bundan sonra Ukraynada uzunmüddətli azadlıq mübarizəsi başlaya bilər ki, bu basabasda öz qulağının dibində növbəti bir Əfqanıstan yaratmaq heç cür Kremlin maraqlarına uyğun deyil. Bilməyənlər bilsin deyə deyirik: belə bir uzunmüddətli müharibə üçün təkcə Qərbi Ukraynanın özünün kifayət qədər resursları və iradəsi var. Xatırladaq ki, 1945-ci ildə faşist Almaniyasını darmadağın eləyən SSRİ-yə Qərbi Ukraynanı tam olaraq ram etmək üçün nə az, nə çox, düz düz on il vaxt lazım olmuşdu.

Bütün bunlardan əlavə hazırda Ukrayna cəbhəsində yaranmış gərginlikdən rusların özü də məmnun deyil. Putinin bu dəfəki ilhaq təşəbbüsləri artıq Rusiyada əvvəlki eyforiyaya səbəb olmayacaq. Prezidentin yuxarıda adını çəkdiyimiz məqaləsində Ukraynanın hazırkı iqtisadi durumu üzərində də xeyli dayanması və xalqın vəziyyətinin durmadan pisləşməsini vurğulaması bumeranq effekti yaradaraq, onun öz ölkəsinin əhalisi arasında qıcıq doğurub. Çünki bu gün rusların həyat səviyyəsi ukraynalıların güzəranından heç də yaxşı deyil. Üstəlik, Ukraynadakı siyasi azadlıqlar bu ölkəni sadə rusların gözündə daha cazibədar bir məkana çevirib.

Bütün bunlardan başqa bəzi ekspertlərin qənaətinə görə hazırkı mərhələdə Putini Ukrayndan daha çox Belarus ətrafında cərəyan edən proseslər maraqlandırır. Bir müddət bundan əvvəl ABŞ konqresmenləri tərəfindən Putin üçün şəxsi müstəvidə o qədər də xoş olmayan sürpriz bir təşəbbüs irəli sürüldü: "2024-cü ildə yenidən prezident seçiləcəyi təqdirdə onun legitimliyi tanınmasın". Qərblə hazırkı gərgin münasibətlərin fonunda ən azından bir neçə ölkənin bu təşəbbüsə qoşulma ehtimalı çox yüksəkdi.

**Təbii ki, birbaşa öz personasına yönəlmiş belə bir perspektiv istənilən avtoritar liderin nüfuzuna ağır zərbədi və ondan ötrü qəbuledilməzdi. Odur ki, bəzi məlumatlara görə hazırda Putin özünü bu xoşagəlməz ssenarinin hədəfinə çevrilməkdən qorumaq üçün əks planlar üzərində işləyir, 2024-cü il seçkilərinə kimi Rusiya ilə Belarusu birləşdirmək və yeni bir dövlətin prezidenti olmaq uğrunda yarışa qoşulacaq. Bununla da bütün prezidentlik müddətləri sıfırlanacaq, hər şey yenidən başlayacaq və ən azından daha iki dəfə seçilmək fürsəti qazanacaq. Bundan ötrü ilk növbədə Lukaşenkonu neytrallaşdırmaq lazım gələcək ki, bu da bir o qədər asan olmasa da, Belarus prezidentinin hazırkı zəif durumunda o qədər də mümkünsüz görünmür.**

## *Mikroavtobus beton hissəyə çırpıldı*

**Bir neçə gün bundan əvvəl Bakı-Qazax yolunun Kürdəmirdən keçən hissəsində yol-qəza hadisəsi baş verib. Belə ki, Bakı istiqamətində hərəkət edən mikroavtobusun sürücüsü idarəetməni itirib və nəqliyyat vasitəsi beton hissəyə çırpılıb. Qəza zamanı 10 nəfər sərnişin müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Onlar təcili olaraq Kürdəmirdəki Mərkəzi Rayon Xəstəxanasına çatdırılıb.**

Əvvəllər olduğu kimi, yenə sürücü sərnişin dolu mikroavtobusda idarəetməni iti-



rib. Dəfələrlə Baş Dövlət Yol Polisi İdarəsi sürücülərə xəbərdarlıq edir ki, 8 saatdan artıq sükan arxasında əyləşməsinlər. Bu müddətdən sonra nəqliyyat vasitəsini idarə edən sürücü yorulur, əldən düşür və yuxulayaraq avtomobili aşırır. Təbii ki, bu qəzada da ilkin versiya kimi sürücünün sükan arxasında yuxulaması ön plana çəkilir. Ancaq hər şey dəqiq olaraq avtotexniki ekspertizadan sonra bilinəcək. Bir daha Baş Dövlət Yol Polisi İdarəsi sürücüləri məlumatlandıraraq bildirir ki, yorğun halda sükan arxasında əyləşməsinlər. Əgər yuxulayırlarsa, nəqliyyat vasitəsini stasionar postlarının yaxınlığında və digər əlverişli məkanlarda saxlayaraq bir müddət yatsınlar, sonra əlüzlərini yuyub sükan arxasında əyləşsinlər. Bu, qəzadan qurtulmağın yeganə çıxış yoludur.

## *Süni qiymət artımı davam edir*

**Hər gün olmasa da, ən azından hər ay ölkəmizdə ərzaq və qida məhsullarının qiyməti artır. Bir də görürsən ki, səhər açılır, hər hansı dükan, marketə baş çəkirsən, elə həmin anda qiymət artımının şahidi olursan. Təkcə bahalaşan şəkər tozu, şəkər, şirniyyat məhsulları, çay, sosiska, kolbasa deyil, digər qida məhsulları da çox bahalaşıb. Təbii ki, bu da əhali tərəfindən birmənalı qarşılanmır və böyük narahatlıqlar yaradır.**



Eyni zamanda kənd təsərrüfatı məhsullarının və sənaye mallarının qiyməti də günbəgün artır. Yeganə bahalaşmayan iri və xırda buynuzlu heyvanların ətidir. Yəqin onu da Yeni il qabağı artırarlar. Bir dəfə görməmişik ki, qiyməti qalxan hər hansı ərzaq və qida məhsulu ucuzlaşsın. Həmişə bunun əksini görmüşük. Özü də bu qiymət artımı təbii bahalaşma deyil, süni bahalaşmadır. Bəs onda İqtisadiyyat Nazirliyi nəzdində fəaliyyət göstərən və süni qiymət artımının qarşısını almalı olan qurum hara baxır? Bax, onlar barəsində biz bir söz deyə bilmərik.

**Emil FAİQOĞLU**

# *Hərbi ekspert:* "Kənar müdaxilə olmayıb, "Qarakənd-Qaraheybət" ifadələrinin müəllifləri..."

**14 peşəkar hərbçinin bir helikopterdə qəza nəticəsində həlak olması xalqımızı dərin kədərə qərq edib, dərindən sarsıdıb.**

Cəmiyyət hadisənin ağır təsiri altındadır və müxtəlif fikirlər, variantlar düşünür, sosial şəbəkələrdə paylaşırlar

Adalet.az xəbər verir ki, ilkin dəqiq məlumat Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, general-polkovnik Elçin Quliyevdən gəldi.O, hərbi helikopterin qəzaya uğraması ilə bağlı keçirdiyi mətbuat konfransında "Helikopterin pilotu ən yüksək səviyyədə ağır şəraitlərdə uçuşlarda təlimatlı olan pilotlarımızdan biridir. Uçuş imkanı və icazəsi olan pilotlarımızdan biridir. Polkovnik Füzuli Cavadov I Qarabağ müharibəsində də iştirak edib" -dedi.





Hətta DSX rəisi bildirdi ki, helikopter demək olar yenidir və qısa müddət öncə təmir işləri aparılıb..

Bu gün isə helikopter qəzasından sağ çıxan hərbçilərimiz polkovnik-leytenant Emil Məmməd oğlu Cəfərov və kapitan Ramin Ramiz oğlu Ədilov qəzanın baş vermə səbəbləri ilə bağlı ictimaiyyətə geniş məlumat çatdırdı.

**Hərbi ekspertin fikirləri:**

"DSX rəisi general-polkovnik Elçin Quliyevin verdiyi məlumatdan belə məlum olur ki, helikopterin Səngəçal aerodromundan "Qaraheybət" təlim meydanı istiqamətinə 20 dəqiqəyə uçub və təlim meydanında təyin olunmuş meydançaya eniş edərkən qəzaya uğrayıb. Rəsmi məlumatdan əvvəl sosial şəbəkədə şəhid olan 14 nəfərin siyahısı dərc edildi. Bir nəfərin adı, qalanlarının ata adı məlum olmasa da, bu siyahı yanlış deyildi. Belə bir siyahının DSX-nın mətbuat xidmətindən əvvəl şəbəkədə dərc olunması, mütləq araşdırılmalıdır. Bu gələcəkdə dövlət və hərbi sirrlərin digər mənbələrə və ya düşmənə ötürülə biləcəyini istisna etmir".

Bu fikirləri isə hərbi ekspert Ədalət Verdiyev də Moderator.az saytına söyləyib O əvvəlcə,polkovnikin bir " işçi" kimi siyahıda qeyd edilməsinə öz münasibətini bildirib: "Başqa bir məsələ isə siyahıda işçi kimi qeyd olunan Nəbiyev ilə bağlı idi. Yanız şəhidin soyadını qeyd edənlər, DSX-da xidmət edən bütün Nəbiyev soyadı daşıyanların yaxınlarını hansı vəziyyətə düşdüklərinin fərqindədilərmi? İşçi kimi qeyd olunan Nəbiyev Elçin Fikrət oğlu isə ehtiyatda olan polkovnikdir və pilotdur, yaşca ordakıların əksəriyyətindən böyükdür və təcrübəlidir. Bu siyahıda adları olan və olmayan onlarla pilota üçmağı da polkovnik Nəbiyev öyrədibsə, onun adını sonda və işçi kimi qeyd olunmalı deyildi. Bütün bunların məsuliyyəti DSX rəhbərliyinin üzərinə düşür. Baş verən qəza ilə bağlı vaxtında məlumatın dərc edilməməsi və dövlətə aid məlumatın kənara sızması, bəzi mətbuat orqanlarına tələsik çiy məlumatlarla informasiya ilə doldurmağa imkan verdi.

Hərbi ekspert sosial şəbəkədə qəzanı başqa cür ictimaiyyətə sırımaq istəyənləri qınayıb:"Helikopter qəzası ilə xəbərlər dərc olunan kimi sahə ilə əlaqəsi olmayan, ömründə helikoptera bir dəfə əli ilə toxunmayan bəzi vətəndaşlarımız faktlara əsaslanmayan ehtimallar əsasında fikir yürütməklə cəmiyyətdə çaşqınlıq yaratmağa cəhd göstərməsi təəssüf hissi doğurur. Dünyanın heç bir ölkəsi aviasiya vasitələrinin qəzalarından sığortalanmayıb.

Mi-17 helikopterindən 30 dəfə baha qiymətə satılan ABŞ istehsalı 5-ci nəsil F-35B qırıcısının Böyük Britaniya Hərbi Dəniz Qüvvələrinin "Queen Elizabeth" aviadaşıyıcısından uçuşa hazırlaşarkən qəzaya uğramasının görüntüləri cəmi iki gün əvvəl yayılmışdı.

Helikopterin qəzaya uğraması faktı ətrafında dezinformasiyalar yayılması, bizə 44 günlük Müharibədə işğal altındakı ərazilərimizi erməni işğalından azad etməklə bizə Qalib Xalq tutulunu bəxş edən Silahlı Qüvvələrimizin imicinə zərbə vurmaq cəhdlərindən başqa bir şey deyil. Azərbaycan Silahlı Qüvvələri tərəfindən həyata keçirilən təlimlərdə qəza statistikasına nəzər salsaq, görərik bizim aviasiya vasitələri helikopter istehsal edən ölkələrdən dəfələrlə az sayda qəzalara məruz qalıblar".

Ə. Verdiyev daha sonra bildirib ki, hadisə ilə bağlı Baş Prokurorluq Cinayət Məcəlləsinin "uçuş və ya uçuşa hazırlıq qaydalarını pozma ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda" və digər maddələri ilə cinayət işi başlanıb:"Hadisənin baş vermə səbəbləri araşdırılır. Qəzada yaralanan polkovnik-leytenant Cəfərov Emil Məmməd oğlunun və kapitan Ədilov Ramin Ramiz oğlunun sağlamlıq vəziyyətləri normaldır. Onların qəzada sağ qalması, helikopterin aşağı hündürlükdə olması və həmin şəxslərin quyruq hissədə oturması ilə əlaqəli ola bilər. Polkovnik-leytenant Cəfərov Emil Məmməd oğlunun və kapitan Ədilov Ramin Ramiz oğlunun verdiyi ifadələr, həm də hadisə yerindən tapılan qara qutunun araşdırılması zamanı əldə edilən məlumatlar hadisənin əsl səbəblərini təyin etmək mümkün olacaq. Helikopterlərin könhə olması barədə səslənən fikirlər tam əsassızdır. "Mi-17" onilliklərlə müxtəlif ordular tərəfindən istismar edilir və sinifinin ən etubarlı vasitələrindən biridir. Onlar bir neçə il əvvəl LAHAT və "Spike-NLOS" idarəolunan raketlərlə təchiz edilib, modernləşdirilib və Vətən Müharibəsində kifayət qədər intensiv şəkildə istismar edilib. Bu istismar dövründə heç bir qəza hadisəsi qeydə alınmayıb".

"Helikopterə kənar müdaxilə istisnadır, çünki helikopter aşağı yüksəklikdə və enmə zamanı qəzaya uğrayıb. Bunu helikopterin detallarının kiçik bir əraziyə səpələnməsi, onların üzərindəki boya rənginin dəyişməməsi, yanğın və partlayış izinə rast gəlinməməsi də müdaxilə olmadığını istisna edir.

Helikopterin normadan artıq yüklənməsi də müzakirə mövzusu deyil, çünki "Mi-17" 4000 kq yük və ya 28 nəfəri (25 nəfər desant və 3 nəfər ekipaj üzvü) daşımaq üçün nəzərdə utulub.

Helikopterin mühhərikinin nasazlığı barədə deyilənlər də real səslənmir. Helikopterin iki mühərriki mövcuddur, 50 faiz yüklənmə ilə bir mühərrik belə vəzifələri yerinə yeirməyə imkan verir. Amma bunu istisna etmək də doğru deyil. Yuxarıda yazılanları nəzərə alsaq qəzanın səbəbləri bağlı belə bir qənaətə gələ bilərik.

*-Kənar müdaxilə və normadan artıq yüklənmə tamamilə istisna olunur;*

*-Pilot ehtiyatsızlığı ehtimalı mümkündür, araşıdırılır;*

*-Texniki nasazlıq ehtimalı mümkündür, araşdırılır;*

*-Hava şəraiti ehtimalı zəifdir, araşdırılır;*

*-Digər səbəblər, araşdırılır.*

Helikopteri idarə edən şəhid polkovnik Füzuli Cavadovun ağır şəraitdə uçuşlar həyata keçirdiyini, Qarabağ uğrunda döyüşlərdə iştirak etdiyini nəzərə alsaq, pilot ehtiyatsızlığı ehtimalı texniki nasazlıq ehtimalından daha zəif görünür. Amma yenə də bunu istisna etmək olmaz, odur ki, araşdırmanın nəticəsini gözləməliyik".

**Ekspert fikirlərinə bu sözlərlə yekun vurub: "Hazırda şəhidlərimiz yaxınları ilə birlikdə bütün xalqımız dərin hüzn içindədir. Hər bir şəhidin ailəsi bizim nə yazacağımızı izləyir, onlar hər bir əsaslandırılmayan rəylərimizdən narahat olurlar. Gəlin bu ağır günümüzdə şəhid ailələrini "Qarakənd-Qaraheybət" kimi yersiz ifadələrlə narahat etmək əvəzinə, onlara ağrı-acılarını unutmaqda dəstək olaq, bu sahənin araşdırılmasında təcrübəsi olanların, informasiya sektorunda tanınmış pilotların rəylərinə etibar edək. Yaxın günlərdə qəzada sağ qalan iki zabitimiz efirdə "Kənar müdaxilə olmayıb" cümləsini işlədəndə, "Qarakənd-Qaraheybət" ifadələrinin müəllifləri özlərini harada nə necə hiss edəcəklər?**

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**Əntiqə Rəşid**

## *Nə Çin, nə Rusiya: ABŞ-ın əsas düşməni bu ölkədir*



**Amerikalılar Şimali Koreyanı ABŞ-ın əsas düşməni sayır.**

Bu nəticə "Ekonomist" və Britaniyanın "YouGov" məlumatların analizi firmasının keçirdiyi rəy sorğusundan sonra ortaya çıxıb.

Rəyi soruşulanların 55 faizi Böyük Britaniyanı ABŞ-ın əsas müttəfiqi hesab edib. ABŞ-ın əsas müttəfiqləri siyahısında ikinci yerdə Kanada, üçüncü yerdə Fransa və İsrail dayanıb.

Sorğuda ABŞ-a dost olmayan ölkələr siyahısına Rusiya (35 faiz) liderlik edib.

Respondentlərin 58 faizi hesab edir ki, Şimali Koreya ABŞ-ın əsas düşmənidir.

Amerikalılar ikinci düşmən ölkə kimi İranı seçiblər.

**MEHRİBAN**

## *İlk modernləşdirilmiş atom bombası təhvil verildi*

**Amerika hərbi-sənaye kompleksi yarım əsrdir ABŞ-da xidmətdə olan təkmilləşdirilmiş B61-12 atom bombasının ilk istehsal prototipini Müdafiə Nazirliyinə təhvil verib.**



Bu barədə Milli Nüvə Təhlükəsizliyi İdarəsi (NSNS) məlumat yayıb. Təkmilləşdirilmiş B61-12-nin 2022-ci ilin mayında tam miqyaslı istehsalına başlanacağı və 2026-cı maliyyə ilində başa çatacağı gözlənilir. Modernləşdirmə zamanı döyüş sursatının gücü xeyli azalıb, lakin yeni quyruq hissəsinin istifadəsi sayəsində dəqiqliyin artması taktiki və texniki xüsusiyyətlərini saxlayıb.

B61 bombası 1968-ci ildən ABŞ ordusunda xidmətdədir, hazırda 3, 4, 7 və 11 versiyaları var.

B61-12 ilk üçünü əvəz etmək üçün nəzərdə tutulub.

**MEHRİBAN**



*Faiq QİSMƏTOĞLU*

# Bizə savad lazımdı, yoxsa diplom?!

**...Savadsız adam mənən kor, kar və lal olur. Yəni, bu adamın dünyadan xəbəri qətiyyən olmaz. Və olsa da elə-belə olar. Yəni, kimsə desə ki, qatıq qaradı, o dəqiqə həmin adam deyəcək ki, qatıq əlbəttə, qaradı. Yaxud, bir başqası bildirsə ki, qatıq qara yox, yaşıldı, yenə o deyəni deyəcək. Başqa biri Allahını danıb səsləndirsə ki, balam, qatıq nə qaradı, nə ağdı, nə də yaşıldı, qatıq qıpqırmızıdı. Və həmin adam yenə deyəcək ki, bəli, bu insan düz deyir, qatıq qıpqırmızıdı. Çünki qatığın ağ və qara olmasını həmin savadsız adam heç cür anlayıb başa düşə bilməz. Ən azından ona görə ki, o, özü bilmir ki, qatıq ağdı, yoxsa qara...**

**...Bizim millət təhsil almaq yox, diplom almağı daha çox düşünüb və bu gün də elə-belə düşünənlər var. Yoxsa əksər adamlar ölkədə və xaricdə qeyri-qanuni yolla qəbul aparan ali məktəblərdə "oxumaz" və oranın diplomunu almazlar. Axı biz diplom sevən millətik. Sovet dönəmində bu diploma çox böyük önəm verirdilər. Çünki diplomun vardısa, birinci onu səndən soruşurdular. Deməli, işə girmək asan olurdu. Savad isə bir o qədər tələb olunmurdu, yəni, əsas məsələ savad yox, diplom idi. Diplomsuz adamı heç bir vəzifəyə qoymazdılar. Hətta hansısa bir adamın qapısına elçi gedəndə soruşurdular ki, oğlanın diplomu var, ya yox?! Diplomu vardısa, qızın "hə"sini elə həmin an verirdilər. Bilirdilər ki, diplomu varsa, bu gün, sabah işi də olacaq...**

**Bax, Sovet dönəmində bu diplom məsələsi çox böyük önəmli əhəmiyyət kəsb eləyirdi. Hətta müstəqillik dövründə də diplom öz sözünü deyirdi. Ona görə də bizdə əksər insanlar övladlarına təhsil verməkdən öncə diplomu almaq istəyirdilər. Biz o qədər qəribə millətik ki, rüşvət veririk, pul veririk ki, bizim övladlarımıza diplom verin. Ancaq təhsil bizi bir o qədər də maraqlandırmır və bu diplomlu gənclər də bu gün çox yerlərdə işləyirlər. Bunun əziyyətini isə bu xalq, bu millət çəkir. Çünki onları başa salana qədər adamın özü az qala havalana...**

**Həmin gəncin diplomu var, savadı yoxdu. Savadı olmayan adamla da danışmaq çox çətin olur. Eşşəyə başa salmaq olur, amma o savadsız adamı başa salmaq müşkül məsələyə çevrilir. Məsələn, eşşək bir dəfə palçığa batır, ikinci dəfə nə illah eləsən də, o palçığa girməz. Amma savadsız adam nəinki ikinci, üçüncü dəfə, elə tutduğu vəzifədə ömrünün sonuna qədər cahilliyini göstərəcək və qarşısındakı insana dəyər verə bilməyəcək.**

**Artıq biz Avropaya, Amerikaya üz tuturuq. Çünki məmləkətimizdə çox istedadlı, savadlı və zəhmətkeş gənclər var. O gənclər diplom dalınca yox, elm, savad dalınca, adını çəkdiyimiz yerlərə üz tuturlar. Düz də edirlər. Çünki dünyanın gələcəyini yalnız və yalnız elm müəyyənləşdirəcək. Hansı millətin ki, dünya səviyyəsinə çıxa bilən savadlı, bilikli və istedadlı gəncləri var, onlar da dünyaya hökmranlıq edəcəklər. Elmin hökmranlığı bütün silahlardan və var-dövlətdən üstündür və nə yaxşı ki, bizdə bu yolu tutan, bu yolla gedən gənclər var...**

**Mənim bir əmim nəvəsi var - Hüseyn Hüseynov. Bu il 630 balla ADA Universitetinin perstijli bir fakültəsinə daxil olub. Bax, bu cür gənclər dünyaya açılan pəncərədən Avropa təhsilinin həm ab-havasını hiss edəcək, həm də gələcəkdə millətinə, xalqına vicdanla, namusla xidmət göstərəcəklər. O gənclər ki, Avropa təhsilinə uyğun savad alırlar, onlar gün işığı kimidir və bu millət üçün bütün təbii sərvətlərdən - neftdən, qazdan, qızıldan da qiymətlidirlər. Belə ki, neft, qaz nə vaxtsa tükənə bilər, amma onların beyninin işığı, elminin nuru heç vaxt tükənməyəcək. Həmişə əmim oğlu Raminə deyirəm ki, imkanın varsa, o uşağı göndər gedib Avropada təhsil alsın. Çünki Hüseyn ingilis dilini və eləcə də bir neçə əcnəbi dili çox gözəl bilir. Bu yaxınlarda bir status yazmışdım. Çoxları da onu oxuyub. Bir daha həmin statusu xatırlayıram: "Övladlarınıza ev, maşın almayın, öncə onlara savad, təhsil verin!. İmkanınız varsa, Avropada, Amerikada oxudun. Evin, maşının pulunu onların təhsilinə xərcləyin. Sonradan onun xeyrini on qat görəcəksiniz. İnanmırsınız? Sınayın!!!"**

**Sözümüzün canı ondan ibarətdir ki, başqa millətlər elm dalınca gedəndə biz isə ya xoruz döyüşdürmüşük, ya da it boğuşdurmuşuq. İndi nə yaxşı ki, xoruz döyüşdürənlərimizin və it boğuşduranlarımızın sayı azalır. Və gec də olsa anlayırıq ki, balam, bizə xoruz döyüşdürmək, it boğuşdurmaq lazım deyil. Bizə elm lazımdır. Və bizə diplom da lazım deyil. Amma təəssüf ki, bunu anlayanlar çox deyil, azdı. Az da olsa, min şükür! Çünki artıq bu millət yüz ilin, min ilin yuxusundan oyanıb və özünü dərk edib. Özünü dərk edən millətin isə axırı tərəqqi və inkişaf olur.**

**Bir az da özümüzü silkələməliyik, bir az da dərindən düşünməliyik ki, övladlarımıza elm, təhsil, savad verək. Onlara qiymətli maşınlar, ev almaq haqqında az düşünək. Belə ki, həmin savadı Avropada və digər inkişaf eləmiş ölkələrdə alandan sonra o gənclər yeni düşüncə ilə ölkəyə gələcək, rüşvətə, pula meyl eləməyəcək və vətənə xidmət eləyəcəklər. Evi də, maşını da öz halal pulu ilə ala biləcəklər. Mən belə gənclərə çox böyük ümid bəsləyirəm. Onlar gün işığı kimidi. Nə vaxtsa, o gün işığı bu xalqın və bu millətin üstünə düşəcək...**

# Yollar qan gölməçəsinə dönüb

**Elə bir gün olmur ki, respublikanın avtomobil yollarında və Bakıda ağır qəzalar baş verməsin. Bəlkə də belə bir gün olub, biz bilmirik. Amma hər günün statistikası göstərir ki, respublikamızda neçə-neçə yol-nəqliyyat hadisəsi və ölümlə nəticələnən ağır qəzalar qeydə alınır. Təbii ki, bu ağır qəzalar da hər evə, hər ailəyə bir faciə, bir göz yaşı gətirir...**




Bəs görəsən, bu ağır qəzalara və ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinə səbəb nədir? Aydındır ki, baş vermiş qəzalar mütəmadi olaraq Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşları tərəfindən araşdırılır, aydınlaşdırılır və hadisələri törədən səbəblər dərindən təhlil olunur. Çünki bu təhlillər və araşdırmalar olmadan konkret nəticəyə gəlmək və obyektiv fikirlər söyləmək mümkün olmaz. Görünən odur ki, yol polisi baş vermiş və baş verəcək qəzaların qarşısının alınması üçün davamlı olaraq tədbirlər həyata keçirir.

Hər ilin statistikası göstərir ki, əvvəlki illərlə müqayisədə son illərdə respublikamızda baş vermiş yol-nəqliyyat hadisələrinin - ölüm və yaralanma hallarının sayı azalır.



Amma bu qədər tədbirlər görülür, bu qədər maarifləndirmə və izahat işləri aparılır, yenə görürsən ki, qəzalar baş verir.

Xüsusən də yağışlı və yağmurlu havalarda və eləcə də yollar buz bağlayanda qəzaların baş vermə ehtimalı daha da artır. Ekspertlər bir fikri səsləndirirlər ki, bir çox hərəkət iştirakçıları mövcud hava şəraitini nəzərə almırlar. Bəzi sürücülər yağışlı və qarlı havalarda surət həddini aşır, yolun qaranlıq olduğunu nəzərə almır, piyadalar isə birmənalı olaraq bu cür çətin havada təyin olunmuş yerlərdən yox, hərəkətin intensiv olduğu yerlərdən keçirlər. Üstəlik də, yollar yaxşı işıqlandırılmayanda və yağış yağanda sürücülər yolu yaxşı görmür, piyada qara paltarda olduğuna görə, görünmə çətinləşir və nəticədə isə yol-nəqliyyat hadisəsi baş verir. Təbii ki, bütün məsuliyyəti sürücülərin üstünə atmaq düzgün deyil. Məsələn, bu yaxınlarda biz rayona gedəndə Bakı-Qazax avtomobil yolunun Qaradağ istiqamətindən keçən hissəsində yerüstü keçid olsa da, piyadalar elə onun yanından hərəkətin intensiv olmasına baxmayaraq, yolu keçməyə can atırdı. Səhər saatları idi. Hava da yağışlı idi. Daha doğrusu, yağış yağırdı. Piyadalar isə yerüstü keçiddən deyil, yolun hərəkət hissəsindən keçirdilər. Hətta onların bu hərəkətinə bir neçə sürücü etiraz da elədi. Amma buna baxmayaraq, yenə bəzi piyadalar yolun hərəkət hissəsinə keçməkdə israrlı idi. İndi bədbəxt sürücü neyləsin, piyadanı vursa, istintaq orqanlarından canını qurtara bilməyəcək. Ancaq istintaq orqanları da belə şəraiti nəzərə almalı, bütün məsuliyyəti sürücünün üstünə atmamalıdı.

Bizdə ən çox qəzalar respublika əhəmiyyətli yollarda baş verir. Bunun da səbəbləri aydındır: surət həddinin aşılması, ötmə əməliyyatının pozulması, manevr qaydalarına əməl edilməməsi, sərxoş halda sükan arxasında əyləşilməsi, yolun sağı boşaldığı halda sol ilə hərəkət edilməsi, sükan arxasında yuxulaması, ara məsafəsi saxlamaması və avtomobillərin texniki cəhətdən nasaz olması.

Bax, bu səbəblərdən tez-tez istər respublika əhəmiyyətli, istərsə də şəhərdaxili yollarda ağır qəzalar baş verir.

Hansı ki, Baş Dövlət Yol Polisi İdarəsi hər həftə sürücülərə xəbərdarlıq edərək bildirir ki, yuxarıda göstərdiyimiz qayda pozuntularına yol verməsinlər, hava şəraitinə uyğun surət həddi seçsinlər. Yol polisi öz vəzifəsini məsuliyyətlə yerinə yetirir, respublika əhəmiyyətli yollarda qəza şəraiti olan yerlərə əlavə naryadlar göndərir, yağışlı və soyuq havalarda, stasionar postlarda sürücülər saxlanılaraq maarifləndirilir və onlara diqqətli olmaqları tövsiyyə olunur. Hətta sükan arxasında 8 saatdan artıq olan sürücülərə stasionar postlarda şərait yaradılır ki, onlar yuxulayarkən nəqliyyat vasitəsini saxlasınlar. Stasionar postda dincəlsinlər və bundan sonra hərəkətə başlasınlar.

Təbii ki, yol polisinin bu tövsiyələrinə əməl edənlər də var, əməl etməyənlər də. Əməl edənlər mənzil başına sağ-salamat çatır, əməl etməyənlər isə ağır qəzalarla üzləşir.

Yol Patrul Xidmət Alayının 1, 3, 12-ci taqımlarında qışa hazırlıqla bağlı qabaqlayıcı tədbirlər görülüb. Belə ki, onlar yol istismar idarələri ilə əlbir fəaliyyət göstərərək qarlı havalarda avtomobillərin təhlükəsizliyini təmin etmək üçün yolların kənarına qum yığıblar.

Üstəlik də, ayrı-ayrı anbarlarda bu cür mürəkkəb şəraitdə təhlükəsizliyi təmin etmək üçün qum qarışıq duz toplanıb. Artıq noyabr ayında bölgələrə qar düşəndə avtomobil yollarında təhlükəsizliyi təmin etmək üçün bu tədbirlərdən istifadə edilib.

Hələ qış qabaqdadır. Yəni, dekabrın 22-də qış fəslinə qədəm qoyacağıq. Amma havalardan baş çıxarmaq olmur.

Bir də görürsən ki, havanın üzü döndü, qar yağdı və yollar buz bağladı. Xüsusən də, Bakı-Quba, Bakı-Şamaxı-Yevlax, Bakı-Qəbələ-Zaqatala yollarına qar daha tez düşür.

**Ona görə də bu cür havalarda yol istismar idarələri və yol polisi öz missiyalarını yerinə yetirdiyi kimi, hərəkət iştirakçıları da üzərinə düşən vəzifəni icra etməlidir. Çünki baş verən qəzalar nəticəsində yollarımız qan gölməçəsinə dönüb. Neçə-neçə insanın adi ehtiyatsızlıqdan həyatına son qoyulur. Bir daha sürücülər diqqətli olmalı, yol polisinin tövsiyələrinə əməl etməli, hava şəraitinə uyğun surət seçməlidilər. Bax, belə olarsa, ağır qəzalar baş verməz, yollarımız qan gölməçəsinə dönməz...**

**Faiq QİSMƏTOĞLU**

# UNEC İqtisadi Forum 2021 öz işini davam etdirib

**Dövlət müstəqilliyinin bərpasının 30-cu ildönümünə həsr olunan "Zəfər yolu" adlı forumun növbəti paneli "Postpandemiya dövründə biznes transformasiyası" mövzusunda olub.**

Adalet.az xəbər verir ki, Forumda Nobel Sülh mükafatı laureatı Məhəmməd Yunus, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, PAŞA Holdinqin Baş İcraçı direktoru Cəlal Qasımov, BP-nin Kommunikasiyalar, xarici əlaqələr, strategiya və region üzrə vitse prezidenti Bəxtiyar Aslanbəyli, Veon Şirkətinin Rəqəmsal və yeni biznesin inkişafı üzrə vitse-prezidenti (Rusiya) George Held mövzu ilə bağlı məruzələrlə çıxış ediblər.

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov pandemiya dövründə iqtisadiyyatın dayanıqlığının gücləndirilməsi, gözlənilməz risklərə qarşı hazırlıq səviyyəsinin artırılması, eləcə də müasir, innovativ texnologiyalara əsaslanan biznes mühitinin inkişaf etdirilməsinin prioritet məsələlərə çevrildiyini bildirib. Avtomatlaşma, rəqəmsallaşma, süni intellekt və yaşıl iqtisadiyyatın qarşıdakı onilliklərdə qlobal iqtisadi landşaftı müəyyənləşdirəcək meyllər olacağını deyib. KOBİA sədri iqtisadi transformasiyanı həyata keçirmək üçün maliyyə resurslarına çıxış imkanlarının önəmindən danışıb: "Alternativ maliyyə mənbələri, o cümlədən "Fintech" texnologiyaları dayanıqlı maliyyə resurslarının təmin edilməsi üçün qarşıdakı dövrlərdə mühüm əhəmiyyət kəsb edəcək". O.Məmmədov sahibkarların bilik və bacarıqlarının artırılmasının prioritet istiqamətlərdən olduğunu diqqətə çatdıraraq, KOB inkişaf mərkəzlərinin həyata keçirdiyi tədbirlərdən söz açıb. Məruzədə ölkə başçısı tərəfindən təsdiq edilmiş 2030-cu il üzrə Milli Prioritetlər çərçivəsində ortamüddətli sosial-iqtisadi inkişaf strategiyasının hazırlandığı, həmin strategiyanın postpandemiya və postmünaqişə dövrü üçün ölkənin inkişaf istiqamətlərinin əsas konturlarının müəyyən ediləcəyi diqqətə çatdırılıb.

PAŞA Holdinqin İdarə Heyətinin sədri Cəlal Qasımov UNEC-in təşkil etdiyi məzmunlu, keyfiyyətli forumların sayının ilədn-ilə artmasını yüksək qiymətləndirib. Mövzu ilə bağlı çıxış edən holdinq rəhbəri postpandemiyada biznes sahəsində baş verən trendləri açıqlayıb, onları məsafədən çalışma, sürətləndirilmiş rəqəmsallaşdırma, psixoloji və makro faktorlar kimi səciyyələndirib. Bizneslərin çevikliyə və trendlərə, yeni çalışma metodologiyalarına uyğunlaşmalı olduqlarının vacibliyinə diqqət çəkib. "Bacarıqlı mütəxəssislərə tələb artmaqdadır. Xaricdə çalışan bacarıqlı gənclər ölkəmizdə işə cəlb olunmalıdır. Bu istiqamətdə isə hibrid iş modelinin tətbiqi çox faydalıdır. Süni intellektləri aşkara çıxarmaq, İT platformalarını açıq etmək lazımdır, bu sahəyə yatırılan sərmayələr artırılmalıdır. Rəqəmsal bazarlardan istifadə etməyən şirkətlər, biznes qurumları qısa zamanda bazardan çıxmaq təhlükəsi ilə üz-üzə qalacaqlar", deyə C.Qasımov bildirib.



BP-nin Kommunikasiyalar, xarici əlaqələr, strategiya və region üzrə vitse prezidenti Bəxtiyar Aslanbəyli transmilli korporasiyalar və neft-qaz sahəsində onların üzləşdiyi problemlər barədə danışıb, bu istiqamətdə BP təcrübəsini bölüşüb: "Pandemiya böhranında neft-qaz və enerji sənayesi ikiqat çətinliklərlə üzləşərək, strategiyalarında ciddi dəyişikliklər elan etdilər. BP 112 illik beynəlxalq neft-qaz şirkətindən inteqrasiya edilmiş enerji şirkətinə çevrilməyi hədəflədi və neft-qaz resursları ilə bərabər, yeni enerji həllərini müştərilərə təklif etməyi qarşısına məqsəd qoydu". B.Aslanbəyli postpandemiya dövründə iqtisadiyyatın tənəzzülü nəticəsində məhsulların inteqrasiyasının investisiya uğrunda rəqabəti daha da gücləndirəcəyini deyib.

Postpandemiya dövründə ən önəmli məsələlərdən birinin insan faktoru və insanların emosional psixoloji durumunun dəstəklənməsi olduğunu deyən BP rəsmisi, hibrid iş rejiminə keçidin əhəmiyyətindən də söz açıb, bunun peşə transformasiyasına gətirib çıxaracağını bildirib.

Foruma onlayn qoşulan Nobel Sülh mükafatçısı Məhəmməd Yunus pandemiyanın ölkələrə və cəmiyyətə təsirindən danışıb. Pandemiya böhranında yoxsulluq səviyyəsində yaşayan insanların daha da yoxsullaşdığını, sərvətin konsepsiyasının isə artdığını deyib: "Yuxarda nə qədər sərvət artması olacaqsa, digər tərəfdə də yoxsullaşma payı yüksələcək". Alim qlobal istiləşməyə də diqqət çəkib: "10 ildən sonra kritik istiləşmələr baş verəcək, həyat insanlar üçün dözülməz olacaq. Planetimiz, evimiz yanır, lakin buna baxmayaraq, texnoloji nailiyyətlərdən danışırıq. Bir tərəfdən qlobal iqlim dəyişikliyi, digər tərəfdən isə dünya sərvətinin ədalətsiz təmərküzləşməsi prosesi gedir". Süni zəka və texnologiyaların tətbiqinin işsizliyə gətirib çıxaracağını, bunun da yoxsulluğun artımına səbəb olacağını deyən alim, sistemin yenidən işlənməli olduğunu deyib: "Təhsil sistemimiz bizi iş yaradan etməlidir. Lakin biz bunun əksini görürük, gəncləri iş həyatına deyil, həyata hazırlamaq lazımdır. 3.0 ideyası tətbiq olunmalıdır. Gəncləri sahibkar olmağa həvəsləndirməli, 3.0 klubları yaradılmalıdır. Mən çox şadam ki, azərbaycanlı gənclər artıq bu klubu yaradıblar. Bir halda ki, biz planeti qoruya bilmirik, bu missiyanı gənclərə həvalə edək".

Forumun moderatoru, Veon Şirkətinin Rəqəmsal və yeni biznesin inkişafı üzrə vitse-prezidenti George Held süni intellektin biznesin inkişafına verdiyi müsbət töhfələr barədə geniş təqdimatla çıxış edib. O, data analitikası sahəsindəki yeniliklər və onların hazırda iqtisadi, ekoloji, biznes və digər sahələrdə mövcud olan problemlərin aradan qaldırılması yönündə fikirlərini bildirib. Cənab Held dünyada informasiya çoxluğunun bir sıra problemlərə yol açdığını və bunun həll yolu kimi müsbət informasiyaların seçilməsinə ehtiyac olduğunu nəzərə çatdırıb.

Çıxışlardan sonra məruzəçilər mövzu ilə bağlı iştirakçıların suallarını cavablandırıblar.

**Forum "Qarabağa böyük qayıdış: Dayanıqlı məskunlaşma və iqtisadi reinteqrasiya" mövzusunda panel 5 müzakirələri ilə davam edib.**

# "Omikron" ştamının əsas əlaməti açıqlandı

**"Ağır yorğunluq Omikron ştamının əsas əlamətlərindən biridir".**

Adalet.az xəbər verir ki, bunu Lomonosov adına Moskva Dövlət Universitetinin endokrinoloqu Zuxra Pavlova "Sputnik" radiosuna açıqlamasında bildirib.




Bununla belə, həkim bu simptomun müxtəlif xəstəliklər üçün xarakterik olduğu deyib: "Tibbi təhsili olmayan insan üçün yorğunluğun həddindən artıq işləmə və ya xəstəliklə əlaqəli olduğunu anlamaq çətindir. Yalnız həkim müayinəsindən sonra bunun fiziki yorğunluq, yaxud hansısa bir xəstəliyin əlaməti olduğunu demək mümkündür".

Mütəxəssis əlavə edib ki, koronavirus infeksiyası orqanizmdə bir çox orqanların işində ciddi pozuntulara səbəb olur: "Yoluxmuş şəxslərdə yaranan yorğunluq hissi immun sistemində, beynin fəaliyyətində və ya sinir sisteminin toxumasında ciddi dəyişikliklərlə müşayiət olunur. Qanın xassələri kəskin şəkildə dəyişir, bu da bir çox orqanlara qan tədarükünü pozur, ona görə də özümüzü fiziki cəhətdən zəif hiss edirik. Bütün bunlar birlikdə zəifləmiş əzələ tonunda, sıxılmış emosional fonda özünü göstərir".

Endokrinoloq hər kəsi şiddətli yorğunluq hiss etdikdə mütləq COVID-19 testindən keçməyə çağırıb.

# "YAŞAT" Fonduna daxil olan vəsait açıqlandı




**Bu günə qədər "YAŞAT" Fonduna bütün valyuta hesablarından 64 milyon 815 min manat vəsait daxil olub.**

Bunu Fondun rəhbəri Elvin Hüseynov Real TV-yə müsahibəsi zamanı deyib.

O qeyd edib ki, Fondun maliyyə mənbəyi dövlət büdcəsindən deyil, vətəndaşlarımızın, iş adamlarının, dünya azərbaycanlılarının etdiyi könüllü ianələr əsasında formalaşıb.

"Bu ianələr hesabına biz şəhid ailələri və müharibə əlillərinə - qazilərimizə dəstək göstəririk. Bu günə qədər "YAŞAT" Fonduna bütün valyuta hesablarından 64 milyon 815 min manat vəsait daxil olub. Bu da kifayət qədər böyük bir məbləğdir. Daxil olan vəsaitin 49 milyon 353 min manatı Fondun 4 fəaliyyət istiqaməti üzrə xərclənib. Hazırda Fondda 15 milyondan artıq vəsait qalıb", - deyə o bildirib.

# Məktəblilərin Vətən müharibəsi haqqında hekayələri toplanıb




**Təhsil Nazirliyinin V Qrant müsabiqəsinin qalibi olan Emin Piri adalet.az-a söyləyib ki, məktəblilərin Vətən müharibəsi haqqında hekayələri toplanıb.**

Bu hekayələr redaktə mərhələsindədir, yaxın vaxtlarda toplu halında dərc olunacaq.

**Cavid**



*İlhami Cəfərsoy*

# KƏPƏZ DAĞINDA XƏRƏK QALASI

**Var idi, zəlzələdən dağıldı. Tarixi mənbələrdə həmin qala Xərak, əl-Xəraq, Xiraklu, Gərəkli formalarında yazıya alınmışdır. Xərak arxaik türk nəsillərindən biridir. Onlar Urartu dövründə Gök, yəni Göyçə gölü ilə Kəpəz dağının arasında yaşayırdılar. Urartu çarları er.əv.782-ci ildə onları Albaniyaya tərəf sıxışdırdılar. Zəlzələ olanda onlar Kəpəz dağının ətəyində saldıqları əl-Xəraq qalasında yaşayırdılar. Nizami Gəncəvi yazır:**

***Göy bir nərə çəkdi hirslə dərindən,***
***Dağlar parça-parça qopdu yerindən.***

**Xərək yaşayış məskəninin biri də Qarabağda idi. Yerli əhali onu Gərəkli adlandırırdı. Sovet dönəmində ermənilər Gərəkli kəndinin adını dəyişib Martuni elıdilər. Musa Xorenli yazır ki, Kerak H"Ay nəsillərindən biridir. Doğrudur. Ancaq o zamankı h"aylar erməni deyildilər. Türk dillərinə qohum olan bir dildə danışırdılar. 387-ci ildən sonra onların çoxu məhv edildi. Az bir hissəsi, o cümlədən bir neçə Gərəkli oymağı türk və müsəlman varlığını saxlaya bildi. Bax: İlhami Cəfərsoy. H"Ayların və Armenlərin mənşəyi. Bakı, 2020. səh. 3-64. Xərakların sağ qalan müsəlman qanadına son zərbəni ruslar Qafqaza gələndə vurdular. Laçınla Gəncə arasındakı Hərəkli yaşayış məskənləri yerlə yeksan edildi. Həmin qırğınlar haqqında az da olsa, qəmli nəğmələr qalmışdır.**

***Gərəklinin Qız qalası,***
***Ərşə çıxıb ah-nalası.***

**Bu misraları oxuyandan sonra bir gün görsəniz ki, nəvələrimin əlindən tutub rus məktəbinə aparıram, Allaha yalvarın mənim qollarımı sındırıb yanıma salsın.**

*Zaur Əliyev*

# Özümə əmr etdim – Qarabağdan yazma!



*Özümə söz vermişdim ki, daha Qarabağ və ermənilərlə bağlı kitablar yazmayım. Şuşa haqqında kitab yazdım Şuşalılar yaxın durmadı, Ağdam haqqında kitab yazdım, Ağdamlılar yaxın durmadı, Xankəndi, Laçın, Kəlbəcər və digər rayonlarımızın tarixini əhatə edən Qarabağ tarixi yazdım Qarabağlılar yaxın durmadı, İrəvan haqqında yazdım İrəvanlılar yaxın durmadı. Ümumiyyətlə adını çəkdiyim rayonlar özüm Ağdamlı, əslən Şuşalı olsam da alimlərinə dəyər vermirlər.*

*İnciməsinlər məndən, Qarabağlılar müğənniyə bir mahnıya görə beş on min manat verirlər ki, gəlib toyda bir muğam oxusun, bir aliminin onların doğma torpaqları barədə yazdığı kitaba yaxın durmaq istəmirlər. Təkcə mənə qarşı deyil, bütün Qarabağlı alimlərə eyni münasibət göstərirlər. Mərhum Xudu müəllim mənə bunu vaxtında demişdi, amma Ustad sözünə qulaq asmayanın axırı də belə olur...*

*Amma uşaqlarına universitetdə bir balaca çətinlik yaranan kimi adamı elə axtarırlar ki...*

*Ümumiyyətlə belə soyuqluq görəndən sonra bizim Qarabağın niyə ermənilər tərəfindən saxtalaşdırılmasını başa düşürəm. Bizim Qarabağ caamatı üçün muğam oxuyan alim və müəllimdən qat qat dəyərlidir. Bu acı reallığı da qəbul etməliyəm. Necə ki, dünya elminə imza atan Ağdamlı alimlərdən hazırda yaşayan başda Rafiq Əliyev olmaqla özümə doğru gələn yolda onlarla alimə olan soyuq münasibəti görürəm..*

*Özümə söz verdim ki, daha dayanacam.. Özümə əmr etdim..Qarabağ mövzusunda yazma. Dinc dur. Sus. Araşdırma. Oxuma.*

*Amma Zəngəzur tarixi, zəngi tayfasının dünyaya səpələnməsi, dünya tarixində zəngilərin məhşur simaları, Zəngəzurun toponimi, oykonimi və ümumiyyətlə bu regionla bağlı araşdırma məni özünə çəkir yaman.....*

*Bu səfər də Zəngəzuru yazacam, ondan sonra söz dayanacam....Zəngəzurlular kitabı almasalar belə...*

# İcra Hakimiyyətindən vətəndaşlara müraciət

**Başa çatmaqda olan ilin son ayının birinci şənbə günü - dekabrın 4-də Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) tərəfindən paytaxtda ümumşəhər sanitar - gününün keçirilməsi qərara alınıb.**

İcra Hakimiyyətindən Adalet.az-a verilən məlumata görə, gün ərzində şəhərin prospekt və küçələri, səki kənarları, bordür və işıq dirəkləri, məhəccərlər, mağaza vitrinləri, reklam lövhələri, ağaclar və yaşıllıq zolaqları yuyulacaq, zədələnmiş ağaclar budanacaq, digər təmizlik və dezinfeksiya işləri görüləcək.

BŞİH paytaxt sakinlərini bu təmizlik işlərində fəal olmağa çağırır, həmçinin sahibkarlar və özəl sektorda çalışanlara müraciət edərək onları özlərinə məxsus ticarət, ictimai-iaşə və digər obyektlərin fasad və vitrinlərində, obyektlərinin qarşısında təmizlik və səliqə-sahman yaradılmasında iştirak etməyə dəvət edib.

"Gəlin qalib ölkənin paytaxt sakinləri olaraq yeni ili təmiz şəhərlə qarşılayaq", - müraciətdə vurğulanıb.

# Azərbaycan yeni hərbi təyyarə aldı

**Azərbaycan Türkiyədən yeni hərbi təyyarə alıb. Adalet.az xəbər verir ki, "Hürkuş" tipli təyyarə hərbi təlim üçün nəzərdə tutulub.**

Dekabrın 3-də Azərbaycan Ordusunun Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov və Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı təyyarəyə baxış keçiriblər.

Azərbaycanlı və türkiyəli pilotlar təyyarənin üzərində iki ölkənin bayrağını dalğalandırıblar.

Diplomat tviter səhifəsində təyyarə ilə bağlı paylaşım edib.

**"Bu gün Azərbaycanda "Hurkuş" uçurduq", - C.Bağçı bildirib.**

# Bakıda məktəb direktoru iki həftəlik karantinə cəlb edildi

Bakı şəhəri 224 nömrəli tam orta məktəbin direktoru COVID-19 infeksiyasına yoluxmuş şəxslə təmasda olduğu üçün 14 günlük karantinə cəlb edilib.

Bu barədə Bakı Şəhəri üzrə Təhsil İdarəsindən məlumat verilib.

Bildirilib ki, məktəb hazırda fəaliyyətini əyani formada davam etdirir.

"Təhsil müəssisələrində koronavirus infeksiyasına qarşı şagirdlərin və məktəbin pedaqoji heyətinin daha etibarlı qorunması üçün sanitar-epidemioloji vəziyyətdən irəli gələn tələblərə ciddi əməl olunur" - deyə məlumatda qeyd olunub.

# Səmimiyyəti həyat kredosu edən KİŞİ

## Musa Əfəndiyev haqqında düşündüklərim

**Hərdən mənə elə gəlir ki, yaşadığım illəri boşa vermişəm. Necə deyərlər, papağı günə yandırmışam. Çünki çevrəmə baxanda bir boşluq, bir seyrəklik görürəm. Güvəndiklərim, sığındıqlarım, istinad etdiklərim zaman-zaman seyrəlir. Bu, təkcə ömrün payızı demək deyil, bu həm də qədərdi, yazıdı, qismətdi. Çünki Yaradan "Ol" deyəndə, nə məndən soruşmayıb, nə də sizdən. O, yəni Allah "ol" deyib. Biz də olmuşuq, hərəmiz bir tərəfdə, bir ocaqda, bir bələkdə, bir bölgədə. Sonra yollarımız kəsişib. Və baxıb görmüşük ki, "Ol" deyənin bizi yönəltməsi təsadüf deyil. Axı, ululardan, müdriklərdən qalan bir deyim var. Onlar deyib ki, "taylı tayını tapar" və yaxud "su axar, çuxurun tapar". Bu deyimlər də sınanır və yenə də sınanacaq... Olsun, bunun özü də insanın yaşaması, ayaqda olması üçün bir ipucudu, bir təsəllidi. Axı, biz həmişə bir əlimiz sabahın ətəyində yol gedirik. Və həmişə də deyirik ki, inşallah, sabah filan işimizi belə edəcəyik! Bu da o deməkdir ki, içimizdəki ümid və güvənc bizim həyat kredomuzu dəqiqləşdirir, istiqamətimizi təyin etməkdə kompas rolunu oynayır. Və...**

Bəli, mən onun barəsində yazmaq istəyimi xeyli vaxtdır ki, ürəyimdə sözbəsöz cilalayır və onu günün birində kağıza köçürəcəyimə özümü hazırlayırdım. Tam səmimi deyəcəm. Haqqında yazacağım adamın bu yazıya və yaxud mənim onun barəsində deyəcəyim hansısa fikirə ehtiyacı yoxdu. Çünki o, özü əxlaqı ilə, həyat fəaliyyəti ilə və ən vacibi, ən yüksək Tərbiyəsi ilə bu yazını çoxdan yazdırıb. Onu tanıyanlar bu şəxsiyyətin yanında demək olar ki, elə bir auraya düşürlər ki, orda yalnız müsbət enerjinin, istiliyin, doğmalığın, bir də etibarın elementlərini görmək, hiss etmək mümkündü. Bilmirəm, bunun səbəbi nədir? Ancaq bildiyim odur ki, həqiqətən bu insanın yüksək tərbiyəsi şəxsən məndə ona həsəd hissi yaradıbdı...

Qarabağda, xüsusi ilə Füzulidə, eləcə də Füzuli rayonunun timsalında ictimai-siyasi həyatımızın tanınan şəxsiyyətlərindən biri Aslan Mehdiyev, digəri də Nəbi Muxtarovdu. Barəsində yazmaq istədiyim Musa müəllim isə Naxçıvanda, lap dəqiq desəm, Ordubadda doğulub. Musa müəllimlə məni adını çəkdiyim dəyərli ağsaqqallarım - Nəbi müəllim və Aslan müəllim tanış edib. Bu da həyatın bir zərurəti olub.



Zərurətin mahiyyəti yaşla bağlıdır. Bu insanlar Bakı şəhərinin önəmli istirahət yerlərindən biri olan və akademik Zərifə xanım Əliyevanın adını daşıyan parkda hər gün gəzməklə, söhbətlər etməklə günün nəbzini əllərində saxlayır, həyata münasibətlərini bir-birilərinə çatdırırlar. Oxucularıma çatdırım ki, həmin istirahət parkı ilə bağlı yazdığım yazının adını da Nəbi Muxtarov demişdi mənə. O, söyləmişdi ki, bu park əslində fillər məzarlığıdı. Yəni, həmin ətrafda yaşayan sabiq məmurlar, elm adamları, dövlət xadimləri, daha çox bu parkda bir araya gəlib xatirələrini bölüşür, bir-birinin həm kədərinə, həm də sevincinə şərik olurlar.

Bax, günlərin birində Nəbi müəllim məni Musa müəllimlə burada tanış etdi. Elə ilk söhbətdən hiss etdim ki, Musa müəllim qarabağlılar demiş, ağır taxtalı kişidi, sanballı adamdı. Çünki danışığında da, hərəkətində də hər şey o qədər dəqiqliklə ifadə olunur ki, yalnız baxmaq, dinləmək və necə deyərlər, görüb götürmək qalır adama. Həmin tanışlıq aylar, illər ötdükcə daha da doğmalaşdı. Dostumun dostu mənim üçün də əzi zadam oldu. Və burda bir məqamı da qeyd edim ki, Nəbi müəllimlə bağlı hazırladığım kitabda Musa müəllimin ürək sözlərini də çap etmişəm. Onun əlyazmasını oxuyanda, mənə elə gəldi ki, Musa müəllimin daxilində bir redaktorluq da var. Çünki həm cümlə quruluşu, həm təqdim olunan xatirələr bir-birini elə tamamlayırdı ki, sanki hansısa böyük bir mətbu orqanın redaksiyasından keçib gəlmişdi. Ona görə də mən həmin yazının nöqtə, vergülünə də toxunmadım.

Yaxın günlərin söhbətidi. Yenə dostlar bir araya gəlmişdi. Aslan müəllim, Nəbi müəllim, Sədrəddin müəllim və Musa müəllim. Telefonuma zəng gəldi. Arayan Nəbi müəllim idi. Mən də dostlarıma qoşuldum. Söhbətin bir məqamında nə vaxtdan ürəyimdə gəzdirdiyim fikrimi dilə gətirdim. Dərhal Nəbi müəllim də, Aslan müəllim də, Sədrəddin müəllim də mənə dəstək oldu. Onların hər biri Musa müəllim haqqında ağızdolusu, ürəklə, elə fikirlər söylədilər ki, mən hissiyatımda yanılmadığıma bir daha əmin oldum. Və elə o məclisdə deyilən sözləri də köçürtdüm yaddaşıma...

***Aslan Mehdiyev:*** - Musa müəllimlə həm qonşuyuq, həm dostuq. Bu adam Ordubadlıdı. Mən isə Füzulidən. Bizim bir-birimizə bağlılığımızın kökündə təkcə qonşuluq dayanmır, həm də təmkin, təcrübə və bir də yerini, necə deyərlər, oturuşunu, duruşunu bilmək dayanır. Yəni bu kişi heç vaxt bir sözü də artıq deməz, bir addımı da artıq atmaz. Elə bil ki, Allah bunu ağsaqqal kimi dünyaya gətirib. Olduğu hər yerdə Musa müəllim ancaq söhbətləri ilə deyil, həm də davranışı ilə diqqət mərkəzində olur. Uzun illər rəhbər vəzifələrdə işləyib. Kifayət qədər həyat təcrübəsi var. Amma bununla belə, indinin özündə də Musa müəllim yeni, maraqlı nəyəsə rast gəldisə, onu mütləq bizimlə bölüşür, həmçinin onu öz həyatına köçürür. Deməli bu insan öyrənmək və öyrətməkdən zövq aldığı kimi, onu həyata keçirməkdən də zövq alır. O ki, qaldı qonşuluğumuza, kaş hamının Musa müəllim kimi qonşusu olsun. Onda mehribançılığın nə demək olduğunu hər kəs əyani şəkildə görmüş olar.

***Nəbi Muxtarov:*** - Əbülfət, sizi mən tanış eləmişəm. Mən isə Musa müəllimlə bu parkda tanış olmuşam, gəzişəndə qarşılaşmışıq, salamlaşmışıq. Sonra başlamışıq birlikdə bu parkda gəzməyə. Və sonra birlikdə çay içmişik, nərd oynamışıq. Bir də baxıb görmüşəm ki, Musa müəllimlə artıq tanış yox, dostuq. Bir-birimiz üçün darıxırıq, bir-birimizin evinə, telefonuna zəng edirik. Sonra birlikdə məclislərə gedirik. Artıq bu ünsiyyət mənim üçün zərurətə çevrilib. Gözüm onu parkda görməyəndə tez əlimi cibimə atıb telefonuna zəng edirəm. Həyatdakı ən böyük qazanclarımdan biri də Musa müəllimlə dostluğumdu. Sənə bir şey də deyim ki, öncə mənə söylədiyin fikrinlə tam razıyam. Həqiqətən Musa müəllim yüksək tərbiyə, diqqət, səmimiyyət sahibidi. Mən hərdən əsəbləşəndə, Musa müəllimin üzünə baxıb, necə deyərlər fikrimi bir az redaktə edirəm. Çalışıram ki, onun yanında senzuradan kənar söz söyləməyim. Çünki bu adamın üz-gözündən yağan o doğmalıq, o səmimiyyət buna imkan vermir. Dəyərli kişidi, əsl ağsaqqaldı, gözəl ailə başçısıdı, oğul-uşaq, nəvə sahibidi.

***Sədrəddin Məmmədov:*** - Mən Musa müəllimlə həmyerliyəm. Bir-birimizi də çoxdan tanıyırıq. Amma bir gerçəklik var ki, bizi bir-birimizə daha çox bağlayan Nəbi müəllimlə Aslan müəllimdi. Çünki biz üçümüz bir yerdə olan ki, onlar dərhal məndən qabağa düşüb Musa müəllimi axtarırlar. Özü də Musa müəllimdə olan adamlara münasibət qabiliyyəti bu gün çox loru dildə desəm, "defisit" olub. Yəni, şəxsən mən adama adam münasibətinin necə kasadlaşdığını gördükdə ürəyim ağrıyır. Çox şükür ki, Musa müəllim kimi kişilər var. Onunla dost olmaq, həmyerli olmaq şəxsən mənə şərəfdi. Allah Musa müəllimi qorusun, sevdiklərini qorusun...

**...Mən dostlarımı zaman-zaman ürəyimdə yazdığım yazıya əlavə etdikləri bu fikirləri ilə daxilən bir məmnunluq hissi ilə razılaşdım. Ona görə ki, dostumun dostu barəsində düşündüklərim öz təsdiqi tapmışdı. Bu təsdiqin də adı, ünvanı Musa Əfəndiyev Səmimiyyətidir. Şükürlər bu günümüzə ki, Səmimiyyət ayaq altında deyil. Səmimiyyət dəyərli insanlarda, dəyərli kişilərdə yaşamaqdadır. Özünüzün və Səmimiyyətinizin ömrü uzun olun Musa müəllim.**

**Əbülfət MƏDƏTOĞLU**

# Şəhidlik zirvəsinin fatehləri və yaxud ölümə... həyat bəxş edənlər

**Dünyada şərin erməni vandallığı, erməni vəhşiliyi, erməni xəstəliyi, erməni xisləti deyilən murdar bir sifəti də varmış. Amma özgəyə quyu qazan özü düşər - deyib atalar. Necə ki, mənfur erməni faşizminin törətdiyi qanlı, ədalətsiz müharibə haqqa, ədalətə güvənən xalqımızın, dövlətimizin möhtəşəm qələbəsi ilə başa çatdı. Zəfər yolunda qazandığımız bu tarixi qələbə "dənizdən dənizə böyük Ermənistan" yaratmaq xülyasına düşən erməni vəhşiliyinin və onlara havadarlıq ("yiyəlik" daha yaxşı səslənir) edənlərin riyakar arzuları ürəklərində qaldı. Onların mənfur, hiyləgər niyyətləri öz başlarında çatladı.**

Ali Baş Komandanımızın hünərindən, xalqımızın dəstəyindən güc alan rəşadətli ordumuz 44 gündə 30 illik işğala, əslində 30 il yox, bütövlükdə azı 200 illik erməni vandallığına son qoydu. Vətən müharibəsi dediyimiz 2-ci Qarabağ savaşında 2907 döyüşçümüz şəhid oldu. Onlardan 39-u Kürdəmir rayonunun yetirməsidir. Vətən uğrunda canlarını fəda etmiş həmin igidlərdən bir neçəsi haqqında söhbət açmaq istəyirəm.

Zaur Kərimov 1996-cı ildə Kürdəmir rayonunun Atakişili kəndində dünyaya gəlib. 2014-cü ildə hərbi xidmətə çağırılmışdı. Sərhəd qoşunlarında xidmət edirdi. Zaur həyatını hərb sahəsinə bağlamışdı. Ordumuz 2020-ci il sentyabrın 27-də düşmənə qarşı əks hücuma keçəndə Zaur snayperçi kimi döyüşlərə atılmışdı.O, hər dəfə sərrast atəşlə düşməni məhv edirdi. Zaur təlimlər zamanı da öz məharəti ilə seçilmişdi. O, həm də peşəkar idmançı idi.



Zaur döyüş yoldaşları ilə birlikdə Füzulinin, Xocavəndin, Cəbrayılın, Qubadlının , Laçının, Şuşanın azad olunmasında fəal iştirak edib. Onun son döyüşü Çanaxçı kəndində olmuşdu. Bu kənddə gedən döyüşlərdə düşmən Zaurgilin mövqeyinə qəflətən hücum etdi. Gərgin atışma başlandı. Snayperçı Zaur özünün sərrast atəşləri ilə neçə-neçə düşməni məhv etdi. Lakin qaynar döyüş meydanında olan Zaur burada şəhid oldu.

Zaur Kərimov ölümündən sonra Respublika Prezidentinin sərəncamı ilə müxtəlif döyüş bölgələrindəki fədakarlıqlarına görə müvafiq olaraq 7 medalla təltif olunmuşdur.

Rayonun Sorsor kəndindən olan Şiralı Səlimovun da adı mərd igidlərimizin sırasında çəkilir. Ötən il sentyabrın 27-də döyüşlərə atılanda onun 20 yaşı vardı. O, cəbhənin ən qaynar nöqtələrində olmuşdu.

Füzuli və Cəbrayıl rayonlarının, Hadrut qəsəbəsinin və bir çox kəndlərin düşmənlərdən azad edilməsində fədakarlıq göstərmişdir. Şiralı Şuşa uğrunda gedən ağır döyüşlərdə həlak oldu.

Şəhid Şiralı Səlimov ölümündən sonra "Vətən uğrunda" , "Cəsur döyüşçü" medalı ilə, həmçinin Şuşanın, Füzulinin və Xocavəndin azad olunmasına görə medallarla təltif olunub.

Öz hünəri ilə şəhidlik zirvəsinə ucalmış vətən oğullarından biri də Fərrux Hüseynovdur. O, 1995-ci ildə Şilyan kəndində doğulub. Fərrux Heydər Əliyev adına Ali Hərbi Məktəbi bitirmişdi. Tank bölüyünün komandiri kimi xidmətə başlamışdı. Sentyabrın 27-də, Vətən müharibəsi başlayanda Fərrux komandiri olduğu tankçı bölüyü ilə cəsur döyüşçülərimizin sırasına qoşuldu və çox gərgin döyüşlərin iştirakçısı oldu. O, iki dəfə yaralanmışdı. Həkimlərin kəskin etirazına baxmayaraq təkrar döyüşə atılmışdı. Cəsur komandir öz həyatını dəfələrlə təhlükəyə ataraq öhdəsində olan döyüş texnikasını xüsusi məharətlə idarə edirdi. Döyüş yoldaşları deyir ki, Fərrux çox cəsur və qorxmaz idi.

... Fərruxun rəhbərlik etdiyi tank bölüyü Cəbrayıla daxil olan kimi düşmən onları minomyot atəşinə tutdu. Yaxında təkcə Fərruxun tankı görünürdü. Minomyot atəşindən qorunmaq üçün əsgərlər tez tankın yanına qaçıb yerə uzandılar. Ayaq üstdə qalan tək Fərrux idi. O, çox ötkəm, qorxmaz və qətiyyətli görünürdü. Əsgərlər onu belə vüqarlı görüb ürəkləndilər, ruhlandılar.

Fərrux döyüşlərdə 2 dəfə yaralanıb kantuziya almışdı. Dayandığı yerdə huşunu itirib yıxılırdı.

Buna baxmayaraq yenə döyüşdən qalmırdı, daim irəli gedirdi. Hətta döyüş yoldaşları Fərruxdan xahiş edirdilər ki, bölüyün döyüş əməliyyatlarını rabitə vasitəsilə idarə etsin, özünü çox da təhlükəyə atmasın. O isə deyirdi: Yox, ölsəm də, qalsam da sizinlə birlikdə olmalıyam.

Xocavənd Fərruxun son döyüş yeri oldu. O, 44 gün davam edən müharibənin bitdiyi gün - noyabrın 9-da düşmənin atdığı top mərmisindən həlak oldu.

Tank bölüyü komandiri baş leytenant Fərrux Hüseynov ölümündən sonra "Vətən uğrunda" , Xocavəndin, Zəngilanın, Cəbrayılın azad olunmasına görə medalları ilə təftif olunmuşdur.

Öz şücaəti ilə adını ölməz igidlər sırasına yazan Pəhli Qəribov 1993-cü ildə Xirdapay kəndində doğulmuşdu. Vətənin çağırışına ürəklə qoşulan Pəhli döyüş cəbhəsinə könüllü getmişdi.

Döyüş yoldaşları deyir ki, Pəhli müharibənin ilk günündən sonunadək kişi kimi döyüşdü, bir an da olsun qorxub çəkinmədi. Onun bir niyyəti vardı: Bağrının başında gəzdirdiyi müqəddəs Bayrağımızı Şuşada dalğalandırsın...

Pəhligilin döyüşçü hissəsi Şuşa-Laçın dəhlizini çox məharətlə tutmuşdu. Buna görə düşmənin əks hücumlarının qarşısı qətiyyətlə alınırdı. Eyni zamanda düşmən kəskin hücumlara məruz qalaraq özlərinin Şuşada olan əsgərlərinə kömək göstərmək imkanından məhrum olmuşdular.

Pəhlini hər zaman döyüş cəbhələrinin önündə görmək olardı. O, müharibənin ilk günündən cəbhənin Füzuli istiqamətində Xocavəndin, Füzulinin, Cəbrayılın, Şuşanın işğaldan azad olunmasında fəal iştirak etmişdi. Döyüş yoldaşları ilə birlikdə düşmənin xeyli hərbi texnikasını və canlı qüvvəsini məhv etmişdi. Pəhli noyabrın 8-də, müharibənin 43-cü günündə, möhtəşəm qələbəmizin bir addımlığında Şuşa uğrunda gedən ağır döyüşlərdə şəhid oldu. O, ölümündən sonra "Vətən uğrunda" , " Cəsur döyüşçü", Şuşanın, Füzulinin, Xocavəndin azad olunmasına görə medallarla təltif olunub.

Şəhid Əli Məmmədov 1998-ci ildə Atakişili kəndində doğulub. Həyatını hərbə bağlayan Əli Vətən müharibəsinə könüllü getmişdi. Göranboy, Ağcakənd, Murovdağ, Talışkənd və bir sıra yüksəkliklərin alınmasında fəal iştirak etməklə cəbhənin həmişə ön xəttində vuruşmuşdur.

O, igid bir döyüşçü kimi gecə əməliyyatlarında da xüsusilə fərqlənirdi. Bütün döyüş tapşırıqlarına daim yüksək məsuliyyətlə əməl edirdi.

Əsgər yoldaşları deyirlər ki, Əli Bayrağımızı həmişə üstündə gəzdirirdi. O,hər dəfə döyüşə başlayanda sanki nərə çəkirmiş kimi çox gur və ötkəm səslə deyirdi: "Biz gedirik! Düşmənin canını almağa,torpaqlarımızı azad etməyə gedirik!"

Murovdağ silsiləsində Ağuçuq istiqamətində "Uçuq" deyilən yerdə düşmənə arxadan hücum etmək üçün xüsusi döyüşçü qrupu yaradılmışdı. Məharətinə görə Əli də həmin qrupa daxil edilmişdi. Gərgin döyüşlər gedirdi. Qrup gözlənilmədən mühasirəyə düşdü.Əligil çox çətinliklə və məharətlə düşmən mühasirəsini yarıb yaralıları oradan çıxara bildilər. Əli sona qədər döyüşdü. O, ürəyinin üstündə gəzdirdiyi Bayrağı Şuşada ucaltmaq arzusunda idi. Lakin noyabrın 4-də şəhid olan əsgər yoldaşlarını atəş xəttindən çıxararkən özü də şəhid oldu. Əli ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Kürdəmirin yetirdiyi şəhidlərdən olan Qoşqar Ömərov 1994-cü ildə Qarasu kəndində anadan olub. O, ötən il sentyabrın 21-də Vətənin çağırışına qoşularaq ordu sıralarına daxil olur. Sentyabrın 27-də Füzuli istiqamətində döyüşə başlayır. Döyüşlərdə xüsusi fəallığı və şücaəti ilə seçilən Qoşqar kəşfiyyat bölüyünə daxil edilir. O, bir sıra yüksəkliklər uğrunda döyüşlərdə iştirak etməklə yanaşı yaralı əsgər yoldaşlarını döyüş zonasından çıxarmaqda da xüsusi fədakarlıq göstərmişdir. Qoşqar noyabrın 4-də Şuşa ətrafında gedən döyüşlərdə, Daşaltı kəndində şəhid olub. O, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", Füzulinin, Xocavəndin, Şuşanın azad olunmasına görə medallarla təltif olunub.

2001-ci ildə Şahsevən kəndində dünyaya gəlmiş Murad Yunusov da vətən uğrunda müharibədə göstərdiyi hünər və igidliyə görə əbədiyyətə qovuşdu. Zirehli hərbi texnikada topçu, atıcı olan Murad müharibə başlayanda hərbçi yoldaşları ilə birlikdə cəbhənin Füzuli bölgəsinə göndərilmişdir. O, Füzulinin, Horadizin, Cəbrayılın, Zəngilanın, Xocavəndin, Laçının işğaldan azad edilməsi uğrunda 40 gün döyüşmüş, noyabrın 4-də Laçının azad edilməsi ilə əlaqədar gedən döyüşlərdə şəhid olmuşdur. O, ölümündən sonra "Vətən uğrunda", Xocavəndin, Füzulinin, Cəbrayılın azad olunmasına görə medallarla təltif olunub.

1999-cu ildə Çöl-Ərəb kəndində dünyaya gələn Səid Bayramov müharibə başlayanda ölkənin səfərbərlik çağırışına cavab olaraq döyüş cəbhəsinə qardaşı Əli ilə birlikdə getmişdilər. Səid Füzuli istiqamətində, Əli isə Talış kəndi, Suqovuşan istiqamətində döyüşə başlamışdılar. Səid Xocavənd, Hadrut, Füzuli, Cəbrayıl, Zəngilan və Şuşa uğrunda döyüşürdü. O, noyabrın 2-də Şuşa ətrafında gedən döyüşlərdə şəhid oldu.

Səid Bayramov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", Füzulinin, Xocavəndin, Şuşanın azad olunmasına görə medallarla təltif olunmuşdur.

...Bu yazıda ifadə olunan dərin hörmət və ehtiram hissi Vətən uğrunda canlarını qurban vermiş bütün şəhidlərimizə aiddir. Onların müqəddəs ruhları qarşısında baş əyirik!

**Yeri gəlmişkən qeyd edək ki, jurnalist Yaqut Bahadurqızının bu günlərdə çapdan çıxan "Ölümü ömür seçənlər" kitabı Vətən müharibəsində canlarını qurban vermiş Kürdəmirli şəhidlərə həsr olunub.**

**Tofiq Abdullayev,**
**Jurnalist**

# MƏN KİMƏM? SƏN KİMSƏN?



***Mustafa Çəmənli***

**İnsan həyatında bu kəlmələr qədər işlək söz, bəlkə də, yoxdur. Qapı döyülür, soruşuruq:**

-Kimsən? Telefon zəng vurur, dəstəyi qaldırırıq: -Kimi istəyirsiniz? Bu "kiməm", " kimsən" kəlmələrinin altında o qədər məna çaları gizlənib ki, ucundan tutsan, sap təki çözələnə bilər.

Yəqin ki, bu "kiməm", "kimsən" sualı insan insanlığını dərk etdiyi günün elə ilk səhəri ortaya çıxıbdır. Məncə, insanlıq məhz bu "kiməm", "kimsən"in içindən keçərək dəyərlənir, zinətlənir və ümumbəşəri məna kəsb edir.

Şübhəsiz ki, tarix boyu və eləcə də çağdaş günlərimizdə bu sualları özlərinə yaxın buraxmayanlar, ondan yan qaçanlar elə zənn edirlər ki, ruhi sakitlik əldə edib can bəsləyirlər.

Elələri də var ki, sadəcə olaraq insanlığın nə demək olduğunu dərk etmək iqtidarında deyildir. Belələrinə elə gəlir ki, dünyaya ancaq yeyib-içib yatmaq üçün gəliblər.

Mən kiməm? Qaranlıq gecədə də, günün günorta çağında da insan olan kəs bu sualla baş-başa qalmağa borcludur. Mən kiməm? Mətbuat səhifələrində, mavi ekranda, meydanda, mitinqdə etiraf etmədiyini indi-öz mənini xəncəri qınından siyirən sayaq siyirib üz-üzə, göz-gözə oturduğun zaman, heç olmasa, etiraf edəsən. Etiraf edəsən ki, bəs mən buyam - mərdəm, namərdəm, xeyirxaham, zülmkaram, təmizəm, natəmizəm, rüşvətxoram...

Mən kiməm?.. Sən kimsən?.. Həyatda bu iki müsahib tez-tez qarşılaşır. Birisi o birindən soruşur: -Sən kimsən? (Bu gün, az qala, bu sözün söyüş çaları da var.)

"Sən" qürurlu başını dik tutur:

- Mən, hər yerdə millətimin başını ucaldan vətən oğluyam,- deyir.

Özündən razı təkəbbürlü "mən" cavab verir:

-Xeyr, sən hər vaxt millətinin şərəfinə ləkə gətirən vəzifə düşkünüsən.

Bu mükalimə başqa ovqatda da davam edə bilər. Baxır qarşı-qarşıya duranların dünyagörüşünə, ictimai mövqeyinə, mədəni səviyyəsinə... Axı hər kəs öz mənindən, öz fərdi dünyasından çıxış edir.

"Mən kiməm" və "Sən kimsən?" sualı insanın bir şəxsiyyət kimi ailədə, cəmiyyətdə yerini müəyyənləşdirən barometrdir. Sirr deyildir ki, ən böyük dahilər də bu suallarla bir-birinə müraciət ediblər. Və o da gün kimi aydındır ki, "mən"liklə-ri ilə öyünmədikləri kimi, "sən kimsən"i də təhqir səviyyəsinə endirməyiblər, sözü öz ucalığında, xalq və cəmiyyət qarşısında cavabdehlik məqamında saxlayıblar.

"Mən kiməm"-"Sən kimsən?" elə bir bəşəri sualdır ki, ölülər də cavab vermək səlahiyyətini itirmirlər. Təsadüfi deyildir ki, biz tez-tez tarixin dolanbac küçələrində atını cövlan etdirən şəxsiyyətlərin qarşısını kəsib ondan soruşuruq: -Sən kimsən? Sən nə üçün filan işi filan etmisən?

Şəxsiyyətin-padşahın, xanın, vəzirin, sərkərdənin, alimin, şairin, filosofun ruhunu qarşımızda əyləşdirib onlardan keçmişin haqq-hesabını çəkirik. Çünki hər hansı bir tarixi şəxsiyyətin-əsrindən, dövründən asılı olmayaraq-tarixi səhvinin zillətini yüz il, min il sonra onun sələfləri çəkəsi olur. Buna görə də hər kəs öz sağlığında "Mən kiməm"-"Sən kimsən?" sualı qarşısında cavabdeh olmalıdır.

Xalq da öz taleyini tapşırdığı adamlardan həmişə məsuliyyətli olmağı tələb edir. Elə ki, xalq bu tələblərə etinasız münasibət gördü, öz hiss və arzularını əfsanələr, rəvayətlər, lətifələr vasitəsilə bəyan edir. "Qızım sənə deyirəm, gəlinim sən eşit" yolunu tutur. Aşağıdakı məşhur bayatı da xalqın istəyinin təzahürüdür:

***Əzizim Ordubada,***
***Yol gedir Ordubada.***
***Sərkərdə mətin olsa,***
***Getməz heç ordu bada.***

Deməli, sərkərdə mətin olmasa, kimliyini, gücünü, qüvvətini dərk etməsə, böyük bir ordunu fələyin badına verəsidir. Tərpənib hərəkətə gəlməsə, xalqına fəlakət dolu qismət gətirəcəkdir.

Buna görə də hər kəs yaşadığı ömürgün çevrəsində "Sən kimsən?" sorğusundan çox "Mən kiməm?" sualı ilə başbaşa qalmalıdır və qalarsa, daha böyük fəzilət sahibi ola bilər. İnsanlığın fövqünə yüksələr, istedadını, qadirliyini dərk edər, ailədə, həyatda, cəmiyyətdə yerini tez tapar. O zaman yuxarı başdan aşağı başa sürüşdürülməz, əksinə, aşağı başdan yuxarı başa çağırılar. Məhz bu mənada, "hər şey insanın öz əlindədir" deyirlər.

Tarixə müraciət edək. Əgər yağ satan Abdullanın oğlu Babək mən kiməm sualı ilə təkbətək qalmasaydı, özündə şücaət və qəhrəmanlıq nişanəsi axtarıb tapa bilməzdi.

O zaman 23 il ərəblərə qarşı azadlıq mübarizəsi aparan Azərbaycan xalqının sərkərdəsi olmaq səadəti ona nəsib olmazdı və bu gün Babək adı ilə bu qədər fəxr etməz, öyünməzdik.

Xalqın həyatında mənfi, ya müsbət rol oynamış heç bir tarixi hadisə, gün, an belə unudulmur. İllər keçir, ətəklənir və kül altındakı köz kimi təzədən közərib işarır: ya bizi alovlanacağı ilə ümidləndirir, ya da sönüb kül olacağı ilə inamsızlaşdırır. Şirvanşah I İbrahimin hakimiyyətdə olduğu 35 illik bir dövrdən xalqımızın yaddaşında onun yurdumuzun üstünə yeriyən fateh Teymurlənglə görüşünün bir günü, bir anı əbədiləşibdir. Rəvayət edirlər ki, Şirvanşah I İbrahim xalqı qırğına verməmək üçün bahalı hədiyyələr və səkkiz qulla Teymurləngin görüşünə gedir. Şərq adətincə hər bir hədiyyədən doqquz ədəd olmalıymış. Teymurləng qulları doqquz yox, səkkiz görəndə qaşlarını çatır: -Bəs doqquzuncu qul hanı? -soruşur.

Şirvanşah cavab verir:

-Hökmdar, doqquzuncu qul qarşınızdadır!

Teymurləng bu cavabdan çox xoşlanır və Şirvanın üstünə qoşun yeritmir. Doğrudur I İbra-him bu ağıllı siyasətilə yurdunda qan tökülməsinin qabağını alır, lakin yaddaşımızda qul psixologiyasının toxumunu da səpir. Qoç Koroğlu isə heç bir haqsızlığa dözmür, özünü qullar qabağında gedən tir hesab edir və bizi hərhansı qorxudan çıxardıb yeddi min yeddi yüz yetmiş yeddi dəlisinə-igid əsgərinə çevirə bilir.

Bu anımdan tarixi şəxsiyyətlərin həyatından çoxlu misallar, ibrətamiz hekayətlər misal gətirə bilərik. Özünü dərk edənlər, "Mən kiməm?" sualına cavab axtaranlar əsrlərin toz-dumanı arxasından belə çox aydın görsənirlər.

*Məndə sığar iki cahan, mən bu cahana sığmazam,*
*Gövhəri-laməkan mənəm, kövnü məkana sığmazam.*

-deyən Seyid İmadəddin Nəsiminin əzəmətli şəxsiyyəti bizə çox aydın görünmürmü? Yəqin ki, Nəsimi məslək və idealı uğrunda diri-diri soyulsa belə, tutduğu yoldan dönməyəcəyini tarixi edamından çox-çox qabaq özündə tərbiyə eləmişdi. Özünü belə müdhiş bir ölümə mətn hazırlamışdı:

*Zahidin bir barmağını kəssən, dönüb həqdən qaçar,*
*Gər bu miskin aşiqi sərpa soyarlar ağlamaz.*

-deyəndə "Mən kiməm?" sualına çox aydın cavab vermişdi və kimliyini, qadirliyini sübut eləmişdi.

Məhəmməd Füzuli kimi dahi şairimiz belə mən kiməm sualından yan keçməmişdi və böyük səmimiyyətlə etiraf eləmişdi:

*Mən kiməm? -Bir bikəsü biçarəvü bixaniman,*
*Taleim aşüftə, iqbalım nigun, bəxtim yaman,*
*Nəmli əşkimdən zəmin məmlu, ünümdən asiman.*
*Ahü naləm navəki peyvəstə, xəm qəddim kaman,*
*Tiri-ahım bixəta, təsiri-naləm bigüman,*
*Müttəsil qəmxaneyi-sinəmdə yüz qəm mihman.*

" Mən" etirafdı-hər kəsin bacarmadığı səmimi, çox böyük bir etiraf. Həqiqətən, özündən qaçmaq, öz-özünə hesabat vermək vərdişinə yiyələnməmək, tutduğun əməllərin nəticəsini götür-qoy etməməkdən asan nə ola bilər. Özündənrazı, təkəbbürlü, etinasız, tox yaşamağa nə varmış... Bu cür tərbiyə ilə yaşayanlar, ancaq və ancaq yaşayırlar. Öz kobudluqları, harınlıqları, laqeyd və soyuq baxışları, zəhərli sözləri ilə ətrafdakılara əzab verməkdən zövq ala-ala yaşayırlar. Məgər bu yaşamaqdırmı? Ətrafında baş verən haqsızlığa göz yummaq, Qarabağ dağlarında, öz yurdunda qanı şoralanıb tökülən qardaş və bacılarımızın müsibətini isti kabinetlərdən, restoranlardan, barlardan, daha nə bilim nə "xanalardan" seyr etmək yaşamaq deyil, sadəcə harınlıqdır, biganəlikdir, can qayğısına qalmaqdır.

Tarixin "Mən kiməm?", "Sən kimsən?"-əbədi və bəşəri sualından qaçmaqdır. Lakin bu sualların cavabını vermək məsuliyyətindən heç kim, heç kəs, hətta ölülər belə qaça bilməzlər.

**19 yanvar 1992-ci il.**

***P.S. Bu günlərdə şəxsi arxivimi araşdırarkən rast gəldiyim bu esseni heç yerdə çap etdirməmişəm. Yazılma tarixindən az qala 30 il keçsə də insan mənzərələri, insan münasibətləri qətiyyən dəyişməyib, əksinə, müasirlərimiz bir qədər də aqressivləşiblər. Şükür ki, 2020-ci ildə müzəffər ordumuzun, Ali Baş Komandanımızın şücaəti, dəyanəti sayəsində torpaqlarımız işğaldan azad edilib. Bu gün xalqımız çox qürurverici bir ovqat yaşayır.***



*Əbülfət MƏDƏTOĞLU*

# Allaha əmanət etdiklərim

## Həyatımın görünməyən tərəfindən bir not

**Yadımdadı, şeirlərimin birində yazmışdım ki, "Şəhər dolu adamdı, Adam axtarıram mən"... Bunu elə-belə xatırlamıram mən. Ümumiyyətlə, ömrün payızında adam daha çox xatırlamalara, xatirələrə üz tutur, olmuşların qapısını döyür, bir az da səmimi desəm, ölmüşləri xatırlayır. Görünür, bu həyatın yazılmamış qanunudu. Axı, hər birimizin bildiyi bir gerçək var. O gerçəyin də canı bundan ibarətdir ki, insan doğulanda iməkləyir, əllərini, dizlərini torpağa qoyur, sonra başlayır yeriməyə. Yəni, qəddini düzəldir və böyüdükcə də boyu da uzanır. Sonra... Sonra insan başlayır əyilməyə, daha doğrusu, onun qəddi əyilir, özü də yavaş-yavaş. Çəliyə, əsaya söykənir və ...**

Və yenə qayıdır torpağa tərəf. Əllərini, dizlərini qoyduğu torpağa başını əyir, qəddini qatlayır... Mənə görə bu, torpaqdan ucalıb torpağa dönüşün bəlli marşrutudu, yoludu. Və hər kəs də bu yolu keçir. Ona görə də həmişə səsləndirilən, yeri gəldi-gəlmədi vurğulanan bir sözü, bir fikri mən də bu yazımda xatırladıram. Deyirlər ki, ölümdən qaçmaq olmur. Mən də deyirəm ki, ölümdən nə qədər qaçırsan qaç, amma torpaqdan qaçmaq olmur! Göyərdən, bitirən təzədən qollarını açır özünə çəkir, bağrına basır göyərtdiyini, bitirdiyini. Onun üçün də burda fərq yoxdur. O insan kim olur-olsun, hansı mərtəbəyə qalxır-qalxsın, ünvan, son duracaq torpağın qoynudu...

Bax, bu mənada mən şəhərdə adam axtarıram deyəndə, çevrəmin necə boşaldığını, ətrafımın necə seyrəldiyini hiss edə-edə, görə-görə o hisslərdən ayrıla bilmirəm. Şəhərdə axtardığım adamların çoxu indi son ünvandadı. Ürəyimdə olan adam isə ürəyimin sahibi kimi öz istəyinin, arzusunun, məqsədinin yolunda. Deməli, yenə bu şəhərdə tək qalan və təkliyinin içində də adam axtaran mənəm. Bu təklikdən qurtuluşun yolunu kim harda, nədə görür bilmirəm. Mənsə yalnız dörd divarla, Allahla və bir də Sənlə danışmaqda bir təsəlli tapıram, bir işıq üzü görürəm. Bu təsəlli də, o işıq da bütün hallarda hər şeyi kino lenti kimi gözümdən keçirməklə gəlib yenə qələmdə, vərəqdə dayanır. Bəlkə də bu mənim həyatımın ən böyük təsəllisi, ən böyük özəlliyidi ki, qələm, vərəq var. Mən heç kimə demədiyimi yalnız Sənə və Allaha bəlli olanları qələm vasitəsilə vərəqə köçürürəm və yazıram:

*Barışa bilmirəm, sənsiz günlərin*
*Bütün ağrıları çökür canıma.*
*Mən bir ovuc torpaq, həsrət də bulud -*
*Sıxır leysanını, tökür canıma...*

*Əhvalım pozulub, dincliyim itib,*
*Qarşımda cavabsız suallar bitib...*
*Hayıma qəm gəlib, göz yaşı yetib -*
*Onu da ürəyim bükür canıma...*

*Xəyalım xatirə dalınca gedib,*
*Qələmi vərəqlə həmsöhbət edib...*
*Bilmirəm, hörmətmi, ya töhmət edib -*
*Hakimdi, qor büküb fikir, canıma...*

Bəli, insanın sirr yeri, sirdaşı olanda fikir bölüşməyi də sadə şəkildə desəm, dərdləşməyi də rahat olur. Bölüşülən fikir, qəm, kədər müəyyən mənada iç dünyanı bir az rahatlayır. Özünü bir az həmin o bölüşdüklərindən xilas olmuş kimi hiss edirsən. Bunun da iki səbəbi var. Birincisi, kimsə səni dinlədi, ikincisi də səni dinləyən hansısa bir şəkildə sənə yardımçı oldu. Ya məsləhət verdi, ya təsəlli, ya da heç nə olmamış kimi laqeydlik göstərdi. Bunların hər biri də özü-özlüyündə psixoloji vasitədi. Dərdini bölüşən, fikrini bölüşən həmin o psixoloji sınaqdan keçir. Ondan nə isə götürür, yararlanır və nəticədə də içinə, ürəyinə bir yüngüllük hava kimi dolur, sərinləşdirir onu. Beləcə özü də bilmədən, özü də hiss etmədən gəldiyi kimi də sağollaşıb gedir. Amma gedəndə bölüşdüyünü aparmır. Ona görə ki, sirdaşı onunla həqiqətən sirr bölüşdü, sirrini yarıladı. Və...

Deməli, bu payız günlərinin havası da elə payızın özünə oxşayır. Adamı saralmış yarpağa da çevirir, gözlərində yaz ümidi də oyadır. Ona görə də qərar verməк, hətta geyimini seçmək belə çətin olur. Xüsusi ilə cibində təzyiq dərmanı gəzdirənlər bu havanın dilini öyrənə bilmirlər. O cümlədən də mən. Nəticədə haldan-hala düşmək, özünə yer tapa bilməmək adi bir işə çevrilir. Bu durumun adını qoymaq da çətinləşir. Neyləmək olar. İnsan bütün hallarda dözməyə, dəyanət göstərməyə məhkumdur. Əks halda büdrəmək, yıxılmaq çox asan ola bilər. Mən öz üzərimdə, öz həyatımda yaşadıqlarımı və müşahidələrimi müəyyən dövrdə qeydə almağa maraq göstərmişəm və sonda görmüşəm ki, təbiətlə anlaşmaq, ona qarşı çıxmaq heç də asan deyil. Çünki o bizi əhatə edir, biz onu yox. Bu da sonda daxili rahatsızlığa, hətta bəzən adamın özünün özündən bezməsinə gətirib çıxarır. Baxmayaraq ki, işin də var, evin də var, güzəranın da var. Amma həmin o sağlamlıqla bağlı yaşadığın anlar, streslər bunların hamısından güclüdü. Güclü olan da təbii ki, qalibdi. Bax, mənim gəldiyim son nəticə də məhz bundan ibarətdi:

***- Qalib olanın mühakiməsi yadıma gəlmir. Nə kitablarda, nə də həyatda...***

İndi, reallığın içərisində, təkliyimin, tənhalığımın güc gəldiyi bu məqamda həmin o qalib olan, mühakimə edilməyən durumun etdiyi diktəyə boyun əyərək bir gözüm təzyiq ölçəni, o birisi də dərman axtarır. İnanın ki, bu, gerçəklikdi. Özü də tez-tez təkrarlanan gerçəklik. Mən özümün nəyə qadir olduğumu, nəyə gücümün çatdığını yaxşı bilirəm. Bu mənada, sağlıqla bağlı yazdığımın mənim gücümdən kənar olduğuna şübhəniz qalmasın. Amma onu da yazmalıyam ki, Allah, O və dörd divar bir çox hallarda köməyimə çatıblar. Hətta onu düşünəndə, içimdə onunla söhbət edəndə qəribə məqamlar yaşanır. Və yazmışam:

*Ürək səndən danışırdı,*
*Sözünün üstünə gəldin.*
*Göz də yaman səyriyirdi -*
*Gözünün üstünə gəldin...*

*Ruhunu ovcuna alıb,*
*Sahildə xəyala dalıb...*
*Gördün ki, ortada qalıb -*
*Özünün üstünə gəldin.*

*Üzünü tutmuşdu göyə,*
*Dönmüşdü dilsiz bir neyə...*
*Alovun söndürüb niyə -*
*Közünün üstünə gəldin?!*

Fikirlərimi, düşüncələrimi kağıza köçürəndə də, bilgisayara diktə edəndə də həmişə ağlıma hakim olan, ürəyimin şah damarında qərar tutmuş bir fikir, bir söz, lap gerçək bir bənd şeir məni divara dirəyir. Yəni, yaşadıqlarıma, yaşantılarıma görə sorğu-sual edir məni. O bənd belədir:

*Alıb fikir qanadında -*
*Hara daşıyırsan məni?!*
*Sən öz gizli həyatında -*
*Belə yaşayırsan məni?!*

**Doğurdan da, mənim nə yaşadığım, lap dəqiqi, niyə yaşadığım ətraf üçün o qədər önəmli deyil. Buna əminəm. Ən yaxşı halda onlar üçün sıradan biri kimi olmağım bir tanışın, bir yaxının mövcudluğu deməkdi. Amma Allahım və Sənin üçün niyə, necə yaşamağımın yəqin ki, anlamı başqadı, yozumu fərqlidi. Bu mənim fərdi, özəl qərarımdı. Yaşamımdan, həyatımdan çıxartdığım nəticədi. Ola bilsin ki, yanılıram. Amma bütün hallarda yüzə yüz əminəm ki, mən Allahım və Sənin üçün mövcud olmuşam. Yəni, varlığım həmişə gözümüzün önündə, qarşımızda olubdu. Hələ ki də belədir. Bu məqamda Allahı da, Səni də Allaha əmanət edirəm.**

# 55 yaşlı Mahir Qabiloğluyla 55 illik söhbət

***Bu günki müsahibim xalqımızın sevilən şairi Qabilin yadigarı, tanınmış yazıçı, publisist, jurnalist, tərcüməçi Mahir Qabiloğludur.***

***Əvvəlcədən oxucularımıza bildirim ki, Mahir müəllim, maraqlı insan, istedadlı yazar olduğu üçün söhbətimiz də maraqlı alınıb.***

***Adalet.az həmin müsahibəni sizə təqdim edir:***

**- Mahir müəllim, 55 yaşınızı qeyd etdiyiniz bu günlərdə yeni kitabınız - "İTBAŞI" adlı roman-trilogiyanız çapdan çıxıb. Əvvəlcə bu münasibətlə sizi təbrik edirəm. Yaradıcılığınızda yeni uğurlar diləyirəm... Bilirsiniz, hər yaratdığı əsər müəllif üçün doğma balasından ayıra bilmədiyi övladdır. "Bala"nı "valideyn"dən yaxşı kimsə xarakterizə edə bilməz. Elə isə "balanız" - yeni işıq üzü görmus kitabınız haqqında oxucularımıza geniş məlumatı özünüz verin.**

buatda. Müsahibələrim də var idi. Əsasən atamın ad günlərində jurnalistlər müraciət edirdi. O cavan jurnalistlərdən biri avqustun 12-i ərəfəsində zəng etdi. Dedi ki, Cavid Zeynallıdır Azadlıq Radiosu saytından. Bəs ustadlarla bağlı filan rubrikam var. Sizinlə görüşüb söhbətləşmək istəyirəm. Tanışlığımız belə başlandı. Üstündən iki ay keçdi. Ona zəng etdim. Redaksiyalarında görüşdük. Fləşdəki bir yazımı - iki il əvvəl qələmə aldığım "Qabilin o dünyadan Teymur Əhmədova məktubu" yazısını ona göstərdim. Oxudu. Sonra onu göndərdi prosedura uyğun olaraq Varşava bürosuna. Və qoyuldu "Oxu zalı"nın manşetinə. Ertəsi gün isə əsas səhifənin manşetinə. Sonra video-qrup bu yazıyla bağlı kiçik süjet hazırladı. Demək olar ki, əksər saytlar və qəzetlər bu məktubu yayımladılar. Beləcə buz qırıldı. Və digər yazılarımı da üzə çıxartmağa başladım. Amma bilmirdim hara müraciət edim. Dostumuz Tağı

**daha doğrusu ruhunu o obraza təslim etməsən o obraz da, hadisələr də gerçək kimi qəbul edilməz, roman səmimi alınmaz. Elə olub ki, hansısa obraza ruhunuzu qapdırmısınzmı? Yox, deyəsən fikrimi çatdıra bilmədim, belə deyək, yaratdığınız obrazların - insanların hansı daxili aləminizə hakim ola bilib. Təsirindən qurtara bilməmisiniz...**

-Ən incə məqama toxundunuz. "CƏNCƏHİM" romanımın iki yerində, "İTBAŞI" roman-trilogiyasının bir çox məqamlarında - yazı prosesində və dəfələrlə redaktə-korrektə prosesində iyrənirdim. Həmin yerlərə çatanda hətta öyüyürdüm. Ruhən yaşamasan həmin prosesi canlı təsvir edə bilməzsən. Qəhrəmanlarıma gəldikdə "CƏNCƏHİM"dəki Qanlıgün - jurnalist obrazı 80 faiz özüməm. Ümumiyyətlə, bütün qəhrəmanlarımda özüm varam. Kimisində çox, kimisində az.

**- Gələk ədəbiyyatımızın bu**

ustadlıq etmək istəməyənləri də qeyd edim. Yaşlı adamlardır. "Oxumağa vaxtım yoxdur" deyərək, gün ərzində qan təzyiqi və şəkər ölçməkdən başqa bir işləri olmayan atamın dostlarının, əmilərimin qan təzyiqini və şəkərini qaldırmaq istəməzdim. Yazılarımın daimi ilk oxucuları isə - son 25-30 ilin ictimai-siyasi ab-havasını xırdalıqlarına qədər bilən - mənim tənqidçilərim, ortabab yazılarımı belə mənə yaraşdırmayıb "brak" edən Eldəniz Elgün, Füzuli İsmayılov və Əfqan Qafarlıdır. Onların hər üçünün son fikri üst-üstə düşməsə yazılarımı ictimailəşdirmirəm. Spesifik yazılarda isə digər ustadlara da müraciət edirəm. Və əlbəttə ki, oxucularım. Ən böyük qiymət verənlərim onlardır.

**- İndi də gələk günümüzün mövzusuna. Xalqımız qalibiyyətini qeyd edir. Bu mövzuda nəsə bir əsər yazacaqsınızmı?**

- Müharibənin görünən və görünməyən tərəfləri var. Amma görünməyən tərəf görünən tərəf-

-Məndən "İtbaşı" haqqında soruşanda roman-trilogiyanın redaktoru Eldəniz Elgünün annotasiya yerinə yazdığı fikirləriylə qənaətlənirəm: "Yazıcı Mahir Qabiloğlunun "İtbaşı" roman trilogiyası əslində acı reallığı olduğu kimi oxucuya çatdıran bir konsepsiyadır. Bu konsepsiyada dünyanın idarə olunması, dövlətlərin formalaşması, xalqla hakimiyyətlərin münasibətləri öz əksini tapıb. Əsərdə hadisələr məchul bir Şərq olkəsində baş versə də, əsəri oxuyandan sonra görürsən ki, müəllif Qərb dövlətlərinin, krallıqlarının vəhşi qaydalarla formalaşdığı zamanı əks etdirib. Əsərdə həmçinin insan psixologiyasının bütün qaltları, kompleksləri acılır. Mahir Qabiloğlu əsərdə açıq şəkildə iddia edir ki, bu günün özündə belə böyük güclər xırda dovlətləri təsir altında saxlamaq üçün yad ideologiyaları, vərdişləri zorən cəmiyyətlərə qəbul etdirir, qeyri ənənəvi baxışları az qala ilahi baxışlar kimi təqdim edirlər. Bir sözlə Mahir Qabiloğlunun "İtbaşı" roman-trilogiyası təpədən dırnağa qədər alt şüurun məhsulu olmaqla Azərbaycan ədəbiyyatına həm də yeni üslub və fəlsəfi cərəyan gətirdi". O ki, qaldı öz fikirlərimə. Oxucuların fikri, o cümlədən sizin fikriniz mənimçün çox önəmlidir. Bu, artıq mənim əsərim deyil, sizindir. Sualınıza gəldikdə - "Bala"nı "valideyn"dən yaxşı kimsə xarakterizə edə bilməz - fikrinizə qısa belə cavab verərdim: "Heç kim öz ayranına turş deməz". (Gülür)

**- Mahir müəllim, Rəsul Rzanın oğlu Anar, İlyas Əfəndiyevin oğlu Elçin, Səməd Vurğunun oğlu Yusif, Vaqif... və nəhayət Qabilin oğlu Mahir. Maraqlıdır, sizcə, istedadlı ədiblərin övladlarını yazmağa məcbur edən genetik ötürülən istedaddır, yoxsa mənəvi ehtiyacdı, mənəvi borcdur? Yazar atanın balası mütləq yazmalıdırmı?**

-Mənə bu fikri tez-tez deyirlər. Amma əsasən razı deyiləm bununla. Düzdü, təsiri var yazıçı atanın, yazıçı ananın. Amma yazmaq içəridən gələn bir ehtiyacdır. Ananın dünyaya uşaq gətirməsi kimi bir şeydir. Vaxtı çatdı doğulmalıdır. İndi sağlam olacaq, xəstə olacaq, ya ölü - bu sonranın işidir. Yazmaq məqamında mənə qəribə bir baş ağrısı gəlir. Yazandan sonra bu ağrı keçib-gedir. Sualınızdakı bir fikir isə indi daha çox incidir məni: "və nəhayət Qabilin oğlu Mahir". "Nəhayət", yəni ki, son, axırıncı mənası bu sualınıza aid olsa da... Yazıçı, şair uşaqlarından yazan yoxdur daha. Bu da bir utanmaq bəlasıdır, xəstəliyidir. Qarşılarında qoyduqları "Mən atamdan güclü yaza bilməyəcəyəm. Niyə özümü, ən əsası isə atamın adını biabır edim?" sualmaneəsidir. Amma onu da deyim ki, əksəriyyəti istedadlı və ədəbiyyatımızı dərindən bilən, mütaliəli insanlardır. Əlbəttə ki, mən özüm şəxsən tanıdığım yaşıdlarımı deyirəm.

**- Mən bilən qədər, siz özünüz də o "utancaqlar"dan olubsunuz. Yazdığınız bədii-publisistik yazılarınızı "Sandıq ədəbiyyatı" adlandırmağınız da elə burdan irəli gəlir.**

- Bəli, düz dediniz. Yazırdım. Amma üzə çıxartmırdım. Çoxu da xatirələr. Geniş auditoriyanın bilmədiyi, amma tamarzı olduğu hadisələr. Yığılıb qalmışdı...

**- Bəs necə aradan qaldırdınız bu "Mən atamdan güclü yaza bilməyəcəyəm. Niyə özümü, ən əsası isə atamın adını biabır edim?" utancaqlıq maneəsini?**

-Düzünü desəm atam haqqında beş-on xatirəm getmişdi mət-




Türk məni Modern.az saytının baş redaktoru Əfqan Qafarlıyla tanış elədi. Daha doğrusu "Qabildir - öz yerazımızdır" yazısını onun poçtuna göndərdi. Beləcə Əfqanla, saytın baş direktoru Elşad Eyvazlıyla tanışlığımız və dostluğumuz başlandı. Bir il ərzində Modern.az-da 340 köşə yazım getdi. İlk hekayəmi isə köhnə qonşum Aqil Abbas çap elədi. Adı "Ərmən - Şuşanikin sevgisi" idi. Siz də bu hekayəmi çox bəyənmişdiniz. Bir-iki qəzet imtina elədi çap eləməyə - anası, arvadı ermənilər olan vəzifələr barəsindədir bu hekayə - deyərək. Amma Aqil müəllim qəzetin qoşa səhifəsini ayırdı mənimçün. "Ədalət"lə də əməkdaşlığım belə başladı. Aqil Abbası, İradə xanımı çoxdan tanıyırdım. Əbülfət Mədətoğlu, siz və kollektiviniz də belə doğmalaşdı mənimçün. O cümlədən digər saytlarımız, mətbu orqanlarımız. Belə bir deyim var: Puşkini Puşkin edən Belinski olub. İndiki yazıçıları isə xalqa tanıdan saytlarımız, mətbu orqanlarımızdır. Mövzudan uzaqlaşdım deyəsən. Sözümün canı budur ki, sualınızdakı "nəhayət", elə sualınızda qalsın. Yazıçı uşaqları fərasətlərini göstərməyə başlasınlar, utanmasınlar. Mən 45 yaşda başladım. Yaşın isə fərqi yoxdur. *(Gülür)*

**- Özünüz də bilirsiniz ki, sizin bir çox bədii, publisistik yazılarınızı oxumuşam, bəyənmişəm, sosial şəbəkələrdə paylaşmisam...Onda hələ sizi heç şəxsən tanımırdım. Bilirsinizmi, sizin yazılarınızı mənə sevdirən nə oldu? Deyirlər e, gerçəklər zəhər kimi acı olur. Siz o zəhəri adamın xirtdəyinə bir nəfəsə tokmursunuz... Zərrə-zərrə sızdırırsınız. Adam oxuduğu məqalənin təsirindən bir müddət ayrıla bilmir, hara gedirsən, harda olursan ol "zəhər" təsirini əskik eləmir. Maraqlı burasıdır ki, o zəhəri canından çıxartmağa cəhd də etmirsən. Məsələn "Erməni qadınları və Azərbaycanlıların erməniləşdirilməsi prosesi" yazısı. Bu xətt bütün yaradıcılığınızda var, yoxsa yalnız mən oxuduğum əsərlərdədir?**

-Əlbəttə ki, hər bir oxucunun özəl fikri var. Erməni mövzusu isə xüsusilə sizin yaralı yerinizdir. Bildiyim qədər nənəsi erməni olan biriylə hələ də məhkəmə çəkişməsindəsiniz. Əslində bu zəhər deyil. Sizin yaşadığınız qaçqınlıq həyatınıza, aldığınız yaralara bir məlhəmdir. Müvəqqəti unutdurmaq məlhəmidir. Ürəyinizə batan tikanı tam, bəlkə də tam çıxarmayan, heç olmasa azcana yerindən tərpədən bir yazıdır. Buna nail olmuşamsa çox şadam. O ki, qaldı başqa yazılarımda "zəhər"in olub-olmamasına... Qapıbir qonşum, Xalq yazıçısı Bayram Bayramovun qardaşı oğlu, yazılarımın xiridarı, professor Qurban Bayramov mənə "Mahir, yaman ironiyabazsan ha..." deyir.

**- Bilirik ki, yazıçılar tutaq ki, 200-300 il əvvələ aid roman yazır. Təbii ki, o romandakı obrazlara bir-bir görməmişəm,**

**gününə. Sözün həqiqi mənasında - göz açandan bu mühitdə böyümüsünüz. İndi isə artıq qələminizlə bu mühitin bərabərhüquqlu üzvüsünüz. Necə qiymətləndirirsiniz həm yazıçı, həm də bir şair oğlu kimi indiki vəziyyəti.**

- Bütün sahələrdə, hətta vəhşi təbiətdə də məşqçilik, müəllimlik, məktəb yaratmaq missiyası deyilən bir anlayış var. Qartal yuvasına diri dovşan balası gətirir ki, balalarına ov etməyi öyrətsin. Yaxud da şir, pələng ceyran balasına toxunmur. Onu balalarının öhdəsinə buraxır. İdmanda yaşa görə missiyasını başa vuranlar gedib məşqçi işləyirlər. Muğam ustalarının öz məktəbləri var. Çox uzatmayım - usta-şagird məktəbi var hər yerdə, hər sahədə. Leninin dahiyanə kəlamını rus dilindən düzgün tərcümə etsək, "oxumaq, oxumaq, yenə də oxumaq" yox, "Öyrənmək, öyrənmək, yenə də öyrənmək". Əlbəttə ki, öyrənmək istəyən varsa, öyrədən də olmalıdır. Ədəbiyyatda bu cür məşqçilərə ustad deyirlər. "Ustad" sözü bu gün çox ucuzlaşıb. Yaşlıdırsa, titulları varsa həmən ustad xitabı dilə gəlir. Amma o ustad səninçün nə edib? Atam Qabilin 7 cildlik külliyyatının 6 və 7-ci cildləri publisistik və xatirə yazılarıdır: "13 yaşında ilk şeirini Bəbir Məmmədzadə adlı o vaxtlar yaxşı tanınan, amma erkən ölən bir şairə oxuyub. Ondan ilk məsləhətlərini alıb. Yaxud da Yazıçılar İttifaqının nəzdindəki dərnəklər. Şair Böyükağa Qasımzadənin ustad dərnəyi. Yaxud da Səməd Vurğunun, Mirzə İbrahimovun "Dostlar" poemasını qiymətləndirməsi və Qabili namizəd olmadan Yazıçılar Birliyinə üzv seçməsi. Mirzə İbrahimovun "Mehparə" poemasının çapının arxasında dayanması və Qabili ruhi sarsıntıdan, hətta intihardan xilas etməsi. Məmməd Rahimin maddi köməkləri. Məşhur Məsləhətçilər otağı". İndi də var həmin ştat. Görkəmli yazıçımız Seyran Səxavət davam etdirir o müqəddəs missiyanı. Bura pənah gətirən, utana-utana yazdığının həqiqətənmi şeir, hekayə olduğunu bilmək istəyənlər yəqin ki, var.

Amma bir çiçəklə, bir Səxavətlə bahar olmaz. O vaxt dərnəklər, mütəmadi keçirilən "Gənclər günləri" bir xəlbir rolunu oynayırdı. İndi o xəlbir yoxdur. Özümə qalanda isə... Mənim bu baxımdan bir çətinliyim yoxdur. Özümdən yaşca böyük qələm ustalarına ərklə müraciət edirəm lazım gələndə. Xüsusilə də "İtbaşı" roman-trilogiyanın 1-ci hissəsini yazıb qurtarandan sonra ehtiyacım vardı ustadlara. Qəbul edəni də oldu, etməyəni də... (Sabir Rüstəmxanlı oxumadı) Yəni ki, əvvəlcədən oxumaq baxımından. Mən əslində çapa gedəcək yazılarımın - həcmcə böyük və kiçikliyi nəzərə almadan - ilk oxucularını ustad adlandırıram. Çünki onların fikirləri və məsləhətləri mənim üçün çox qiymətlidir. Bəziləri yaşca məndən kiçik olsalar da. Ad çəkmək istəmirəm. Ad çəksəm, gərək

dən daha dəhşətlidir. Əgər bunu təsvir etməyə gücüm çatsa yazacağam.

**- Mümkünsə, ətraflı açıqlayardınız bu fikrinizi.**

-Qalibiyyətimiz öz yerində, pis-yaxşı - İlham Əliyev qalib gəldi. Amma müharibədən bizə miras qalan acı bir statistika var: şəhidlərimizin, yaralılarımızın, itkin düşənlərimizin sayı. Bəs arxa cəbhənin statistikası? Cəbhədə vuruşanların ata-analarının çəkdikləri, hər qapı döyüləndə "Yəqin balamın tabutunu gətiriblər" fikirləşərək ürəklərinin az qala partlamaq həddinə çatması, şəhidi, yaralısı olan ailələrin bu gün çəkdikləri əzab-əziyyətlər? Və bu, bu gün də əsgərlikdə uşağı olan hər bir ailənin yaşadığı həyatdır. Çünki atəşkəs pozulur. Əgər bunu təsvir etməyə gücüm çatarsa, yazacağam. Balaca bir hekayə yazmışam. Adı "Püşk"dür. İcra başçısı gecə yarısı üç işçisini yanına çağırıb deyir ki, gedin filan kəndə, döyün filan qapını və deyin ki, oğlunuz şəhid olub. Hazırlıq işləri görün. Səhər dəfn edəcəyik. Cənazəsi yoldadır. Mən qarşılamağa çıxıram. Biz gələnəcən hər şey hazır olsun. Onlar da gəlirlər kəndə. Biri-o birisini irəli verir ki, sən döy qapını. Heç birinin əli gəlmir darvazanı döyməyə. Axırda çıxış yolu tapırlar. Püşk atırlar... Ədəbiyyatımızda bu mövzuda İsa Hüseynov əsər yazıb: "Tütək səsi". O, 41-45 müharibəsinin arxa cəbhəsini təsvir etmişdi. Mənim, sizin taleyinizə isə 1988-ci ildən başlanan bir müharibəni yaşamaq yazılıb. Hələ də yazılmaqda davam edir.

**- Və son sualım: 55 yaş sizinçün nədir?**

- Müəyyən bir etapın başa çatmasıdır. Allahın verdiklərinin elə Allah tərfindən də yavaş-yavaş geri alınmasıdır. Hələ ki, gözüm zəifləyib. Başqa ciddi bir xəstəliyim yoxdur. Çox çalışıram ki, nikbin qalım. Qarşımdakılara müsbət emosiya bəxş edim. Təbiət dilində desəm - karbonu alıb oksigen verən ağacam. Amma cəmiyyətdə oksigeni alıb karbon verən qoz, əncir ağacları daha çoxdur. Amma tək qalanda, xüsusilə də gecələr özüm-özümlə davaya çıxıram. Həyatda əlindən buraxdığın şanslar, səhvlər yenidən gündəmə gəlir. "Bunu belə eləsəydim, elə olardı" suallarıyla səhərəcən vuruşuram. Sonda mən yox, Günəş qalib gəlir. Baxmayaraq ki, həmişə müdrik olmağa çalışmışam. Keçmişinə, itmişinə, ölmüşünə heyfslənməyən adamlara müdrik deyildiyini yaxşı bilirəm. Dostlarım çoxdur. Düşmənim isə yoxdur. Rəsmi heç yanda işləmirəm. Azad sənətkaram. Beləcə 55-i də başa vururam.

**- Mahir müəllim, sizi xeyli vaxtdır tanıyıram. Tanışlığımız isə sizinlə deyil, ilk sizin əsərlərinizlə başlayıb. Sizin yazdığınız hər yazı, eyni zamanda o yazıda ortaya qoyulan məqsəd, məram, əqidə, insanlara, talelərə, xüsusən, soydaşlarına, vətəninə, gələcəyə baxışla sizin aranızda bir bütünlük var və sizin o yanğınız sizin kimi elinə-obasına vurğun, xalqının düçar olduğu dərdləri şəxsi dərdi bilən hər bir oxucunun içindən keçir. Bu səbəbdən də sizin bütün yazılarınız oxunur, müzakirə edilir, qəbul olunur və nəhayət sevilir! Yeni - yeni yaradıcılıq uğurları arzulayırıq! Yazın, bu xalqın ən dərin və görünməz dərdlərini!**

**Sizi "Ədalət" qəzetinin kollektivi adından doğum günü münasibətilə ürəkdən təbrik edir, can sağlığı arzulayırıq!**

**Söhbətləşdi:**
**Əntiqə Rəşid**

*Vaqif Yusifli*

# Unudulmayan Rasim Kərimli



**O, ŞAİR idi. İndi də şeirləri müğənnilərin oxuduğu mahnılarda səslənir.**

*Dünya mərdlər dünyasıdır,*
*Ərənləri min yaşasın.*
*Sinəsini tufanlara*
*Gərənləri min yaşasın.*

*Ürəyimin gözüsən,*
*Söhbətisən, sözüsən.*
*Sən könlümün özüsən,*
*Gəzə bilmərəm sənsiz.*

Düz 25 il bundan öncə Rasim Kərimli, mənim çox nadir hallarda rastlaşdığım, amma şeirlərini sevə-sevə oxuduğum bir şair vəfat etdi. Cəmi 64 yaşı vardı.

Bu 25 il ərzində Rasim Kərimli unudulmadı, həmyerlisi və ən yaxın dostu professor Qəzənfər Paşayev onun şeirlərini bir yerə cəm edib 2009-cu ildə "Dözmək olmur ayrılığa" adı ilə kirab kimi çap etdirdi, həmin kitaba samballı bir ön söz yazdı. Əslində, Qəzənfər müəllim təkcə dostluq missiyasını deyil, həm də bir şairin müasir poeziyada yerini müəyyənləşdirdi.

Rasim Kərimli Tovuzun Düzqırıxlı kəndində dünyaya göz açmışdı. Tovuzdan nə qədər aşıq və şair yetişibsə, hamısının içində bir saz havası yaşayıb, hamısı qoşma, gəraylı, təcnislə başlayıb şairliyə. Aşıqlar istəyiblər ki, Hüseyn Bozalqanlı və Mikayıl Azaflı yolunu tutub getsinlər. O, saz-söz mühitindən Məmməd İsmayıl, Məstan Günər kimi ustad şairlər yetişib. İndi İslam Sadıq, Ziraddin Qafarlı, Dəmir Çeşməli kimi şairlər də o təntənəni yaşadırlar.

Amma söhbət Rasim Kərimlidən gedir və mən Rasim Kərimlini bir şair kiomi heç kimlə müqayisə etmədən deyə bilərəm ki, o, bütün ömrü boyu - lap uşaqlıqdam ölümünə qədər - nə sazdan, musiqi aləmindən ayrıldı, nə də qoşmadan, gəraylıdan...

Rasim Kərimli xalq poeziyasının qanadlarında əsəbiyyata gəlmişdi.Aşıq poeziyasını - Qurbanini, Tufarqanlını, Ələsgəri, Bozalqanlını əzbər bildiyini Qəzənfər müəllim də təsdiq edə bilər. Və Səməd Vurğunu, Hüseyn Arifi də çox sevirdi. Bu sevgi təbii idi, həm də onun üçün poeziya məktəbiydi.

Rasim Kərimlinin gəraylı və qoşmaları sadəliyin, təbii deyim tərzinin ən gözəl nümunələriydi desəm, daha doğru olar. Bu baxımdan o, Hüseyn Arif, Zəlimxan Yaquba daha yaxındır. İstər qoşma olsun, istər gəraylı bu şeir növlərinin texnologiyasına bələd olanlar yaxşı bilirlər: birinci misra ilə son misra, şeirin ayrı-ayrı bəndləri arasında fikrin ardıcıl inkişaf konstruksiyası nəzərə çarpmalıdır.

*İnsan qılınc çalsın gərək zülmətə,*
*Ağıza su alıb susmağa nə var.*
*Qurdlarla cəngə gir hünərinvarsa,*
*Bülbülün səsini kəsməyə nə var.*

Aşıq poeziyasındakı ustadnamələri xatırladan bu qoşmadan Rasim Kərimli janrın tələblərinə sadiq qalıb. Rasim Kərimlinin şeirləri hansı mövzuda qələmə alınıb - sualı bəsit səslənər. Şair üçün mövzu ürəkdən gələn səsləri şeirə çevirməkdir, istər Vətəndən yaz, istər sevgidən, istərsə də güldən-çiçəkdən... ya səni narahat edən bir fikir varsa, ya ayrılıqdan, ya da sənətinə pərəstiş etdiyin bir insandan... təki ortada ürəklə beynin vəhdəti əks olunan şeir yaransın.

Məsələ ondadır ki, lap dönə-dönə işlənən mövzulardan da fərqlənə biləsən Onun bu adda bir gəraylısı bar: "Nə ləzzəti"... Bu gəraylıda həyat eşqi, ucalıq eşqi tərənnüm olunur.

*Dağa çıxdın, zirvəsinə*
*Çatmadınsa nə ləzzəti.*
*Gül-çiçəyin dalğasında*
*Batmadınsa nə ləzzəti.*

Mükəmməl gəraylıdır. Rasim Kərimlinin bütü qoşma və gəraylılarını oxudum, demək olar ki, dilinin, ifadə tərzinin səlisliyi, xalqdan - eldən-obadan gələn söz və ifadələrin şirinliyi fitri bir keyfiyyətdir, - deyirəm.

Rasim Kərimlinin itabına ön söz yazan Qəzənfər Paşayev söyləyir ki, bir neçə musiqi alətlərində, çalan Rasim Kərimli milli musiqimizin bilicilərindən idi. Onun evinə Qazaxdan, Tovuzdan, Borçalıdan aşıqlar gələrdi.

Hüseyn Arif gələrdi, İ.Tapdıq gələrdi, Zəlimxan gələrdi. Səhərəcən saz çalardılar, şeirlər oxuyardılar. Qəzənfər Paşayev neçə dəfə bunun çahidi olub. Elə bir konsert (Dövlər tədbirləri daxil olmaqla), elə bir şənlik, elə bir toy olmazdı ki, Rasim Kərimlinin sözlərinə yazılmış mahnılar oxunmasın. Baxın:

*Dünya mərdlər dünyası*
*Ərənləri min yaşasın.*
*Sinəsini tufanlara*
*Gərənləri min yaşasın.*

Bu mahnılar 40 ilə yaxındı ki, müğənnilərin repertuarında səslənir. Rasim Kərimlinin şeirlərinə xas olan bu xüsusiyyəti nəzərdən qaçırmayaq. Onun şeir dili sanki musiqi layları üzərində köklənib. Şeirlə musiqinin birliyi isə sözün emosional həddinə yol açır xüsusilə, sevgi şeirlərində:

*Sevda dolu bir çiçəyəm,*
*Ürəyində bitir məni.*
*İlqarıma dönük çıxsam,*
*Həmişəlik itir məni.*

Rasim Kərimlinin təkcə gözəllik, xalq ruhunu tərənnüm edən şair kimi tanımaq məhdudluq olardı. O, cəmiyyətdə, yaşadığı mühitdə qarşılaşdığı mənfiliklərə, neqativ hallara öz etiraz səsini ucaldırdı.

*"Qoşmadan uzaqlaş" - deyirlər mənə,*
*Bilmirlər ağzımın dadı qoşmadır.*
*Dağlardan süzülən bir şəlalədir,*
*Özü can dərmanı, adı qoşmadır.*

*"Ruhani", "ovşarı", "Misri" çaldıran*
*Nərəsi şahları taxtdan saldıran,*
*Qıratın nalından alov qaldıran,*
*Susduran yamanı, yadı qoşmadır.*

Bu şeiri heç də qoşmanı müdafiə kimi dəyərləndirməyək. Qoşmanın (təbii ki, əsl qoşmanın) müdafiəyə ehtiyacı qox. Əsas məsələ, "qoşmadan uzaqlaş" deyənlərə qınaqdır.

Rasim Kərimli xeyli satirik şeirlərin də müəllifidir və o, məhz qoşma və gəraylı ilə şikayət və etirazçı mövqeyində dayanır.

*Alçaqlar ucalıb, ucalar enib,*
*Məhəbbət məhv olub, sədaqət sönüb.*
*Hamı ac aslana, ac qurda dönüb.*
*Heç kimə etibar bağlamaq olmur.*

*Qanqaldan qiymətsiz olub qızılgül,*
*Sərçənin əlinə su tökür bülbül*
*Bu dərddən od tutub alışır könül,*
*Haqsızı haqq ilə dağlamaq olmur.*

Rasim Kərimli bu fani dünyadan 64 yaşında köçdü. ("Aparmağa yarayırsan Ancaq şirin canı dünya")

Amma şeiri də yaşayırsa, ölüm deyil bu. Bircə şeiri yox, onlarla şeiri yaşayan Rasim Kərimli unudulmayır...

Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 90 (2271) 4 dekabr 2021-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Sabahımızın Zəngilanı

**Azərbaycanın cənub-qərb bölgəsində yerləşən Zəngilan rayonunun özünəməxsus təbiəti, coğrafiyası, həm də maddi-mədəni özəlliyi ilə seçilən dünyası var. Yəni bu rayon həm Qərbi Azərbaycan torpaqları, həm də Qubadlı və Cəbrayılla həmsərhəd olduğundan Zəngilanda həyat səviyyəsinin inkişaf tempi, eləcə də iqtisadi resursları həmişə diqqəti çəkib. Bu isə Zəngilanın coğrafiyasının ona verdiyi üstünlüklə yanaşı, həm də zəngilanlıların özlərinin əməksevərliyi, qurub-yaratmaq məharətlərinin yüksəkliyindən xəbər verir.**

Biz ölkəmizin Regionlarının İnkişafına Dair Dövlət Proqramı çərçivəsində Zəngilan rayonuna səyahət etməyi qərarlaşdıranda təbii ki, öncə bu bölgənin tarixinə diqqət yetirdik. Onda məlum oldu ki, Zəngilan rayonu bir ərazi vahidi kimi sovet dönəmində, yəni 1930-cu ildə təşkil edilib. Və bu rayon yaradılarkən, hətta Qubadlı və onun 18 kəndi də eyni ərazi vahidində birləşdirilmişdi. Lakin 1933-cü ildə Qubadlı və onun 18 kəndi Zəngilan rayonundan ayrıldı və həmin vaxtdan etibarən Zəngilan Azərbaycanın cənub qərbindəki ən böyük rayonlarımızdan biri kimi formalaşmağa başladı, rayonun tarixi özəlliklərinə diqqət yetirəndə onda görmək olur ki, hələ XIV əsrdən adı elmi ədəbiyyatda keçən Zəngilan şəhəri əslində Pircavan şəhəriymiş. Yerli sakinlər bu gün də Zəngilan sözünün kökündə dayanan Pircavan anlamını yaxşı xatırlayır. Söylənilən fikirlərə görə, ”pir” sözü sovet bolşeviklərini rahatsız etdiyindən onlar 1930-cu ildə Pircavanı Zəngilan kimi adlandırmışlar. Və 1957-ci ildən bu ad rəsmiləşmiş, 1967-ci ildə isə rayon mərkəzinə şəhər statusu verilmişdi. Rayon ərazisində qədim abidələr, maddi-mənəvi nümunələr kifayət qədərdi. Onların arasında Məmmədbəyli türbəsi, Yenikənd sərdabəsi, Bartaz qız qalası, Koroğlu daşı, Hacallı dairəvi bürcü, eləcə də Zəngilan şəhərinin özündəki qədim məscid bu coğrafi ərazinin həm məskunlaşma tarixinin qədimliyinin, həm də burada memarlığın, arxitekturanın inkişaf səviyyəsinin göstəricisidir. Bu daş abidələrlə həmsöhbət olub tarixə baş vuranda həm Zəngilan ərazisinin, həm də bütövlükdə Azərbaycan coğrafiyasının zənginliyi insana qürur hissi bəxş edir. Çox təəssüf ki, 1993-cü ilin oktyabr ayının 29-da Ermənistan silahlı qüvvələri Azərbaycanın bu rayonunu da işğal edərək buradakı tarixi abidələrimizə, maddi-mənəvi sərvətimiz olan ziyarətgahlara, arxitektura nümunələrinə, hətta bu ərazidəki həyat əlaməti olan hər şeyə faşist təfəkkürü ilə yanaşaraq məhv etmişlər.

Elə bugünlərdə həmin bölgəyə səfər edən ölkəmizdəki xarici səfirliklərin nümayəndələri, media təmsilçiləri talanmış Zəngilanın real mənzərəsinin şahidi oldular. Düşmənin yerlə yeksan etdiyi Zəngilan böyük qələbəmizin hesabına işğaldan azad edildikdən sonra bu rayonun bərpası, yenidən qurulması üçün Azərbaycan prezidentinin verdiyi tapşırıq və sərəncamlar artıq işə düşüb. Yəni əlaqədar qurumlar Zəngilanda yolların, işıq və su xətlərinin yenidən qurulmasına, bərpasına başlayıblar. Böyük Qayıdışın tərkib hissəsi olan Zəngilanda əvvəlkindən də yüksək səviyyədə quruculuq işlərinin gerçəkləşdirilməsi qarşıda duran ən böyük vəzifələrdən biridi. Bu vəzifələrin icrası həm dövlət qurumlarının, həm də özəl sektorda çalışanların bir növü qayəsinə çevrilməlidi. Çünki Zəngilanın özünün həm təbii, həm də coğrafi imkanları burada müasir şəhər-kənd salma üsullarından istifadəyə geniş meydan açır.



Əgər Zəngilan ərazisindən 4 çay keçirsə, deməli, bu özü-özlüyündə bu regionda balıqçılığın inkişafına imkan yaratmış olur.

Yəni Araz, Oxçuçay, Həkəri və Bəsitçay sularından yararlanaraq burada süni balıq yetişdirmək zənnimcə, həm bölgənin, həm ölkənin, həm də bu sahə ilə məşğul olacaq hər kəsin rifahına müsbət təsir edər. Bundan başqa, Zəngilan ərazisində bağçılığın, üzümçülüyün inkişaf etdirilməsinə də real şərait var. Hətta sovet dönəmində məşhur olan ”Ağ Oyuq”un üzüm plantasiyalarının səsi-sorağı ətraf rayonlara da gedib çatmışdı. Zəngilan ərazisində dənli bitkilərin, tütünün yetişdirildiyi də tarixi bir gerçəklikdi. Burada heyvandarlıqla yanaşı, ağac emalı sahəsinin də daha geniş miqyasda təşkilinə imkanlar var. Çünki planetin ikinci ən böyük çinar meşəsi məhz Zəngilan rayonu ərazisində yerləşir.

Məhz Zəngilanın çinar meşəsinin ərazisini genişləndirmək və bərpa etməklə media istehsalı sahəsində uğurlar qazanıb ölkə hüdudlarından kənara da çıxmaq mümkündü.

Bu gün Zəngilan rayonunun işğaldan azad olunmuş torpaqlarında bostan-tərəvəz məhsullarının yetişdirilməsi, quşçuluğun inkişafına meydan verilməsi yəqin ki, iqtisadçılarımızın diqqət mərkəzində olacaq. Çünki planlaşdırılma aparılanda regionun həm xüsusiyyətləri, həm də burada yaşayanların özlərinin illərlə formalaşdırdığı təsərrüfat modelləri nəzərə alınmalı və məhz yerli modeldən çıxış edərək daha müasir modelin yaradılmasına dəstək verməklə bahəm nümunələr də ortaya qoymaq işin xeyrinə olar. Əgər biz ”ağıllı şəhər” və ”ağıllı kənd” modellərilə işğaldan azad edilmiş bölgələrimizin inkişafını dəstəkləyiriksə, bu quruculuq işləri özü-özlüyündə kənd təsərrüfatının, iqtisadiyyatın, bütövlükdə sosial həyatın həmin bölgəyə uyğunluğunu nəzərə almağı da tələb edir.

Bir anlıq Zəngilanın işğaldan öncəki təsərrüfat həyatına nəzər salsaq, görərik ki, rayonun dağətəyi ərazisində daha çox kənd təsərrüfatı sahəsinə üstünlük verilmişdi. Yəni dənli bitkilərin əkini, üzümçülük, bağçılıq, tütünçülük, heyvandarlıq, eləcə də həmin heyvandarlığın inkişafında önəmli məqam olan yemçilik və örüş sahələrinin də nəzərdə tutulması xarakterik cəhədlərdən idi. Yeri gəlmişkən, onu da qeyd edim ki, Zəngilan rayonunda arıçılıq təsərrüfatı da fəaliyyət göstərirdi. Ümumiyyətlə, rayon ərazisindəki çayların suyundan istifadə etməklə, burada quşçuluğun inkişafına da geniş imkanlar açmaq olar. Bu da öz növbəsində quş ətinin və quş tükünün tədarükü baxımından diqqəti çəkir.

Zəngilan iqtisadi rayonunun bir coğrafi ərazi olaraq yeni tarixə qədəm qoyması artıq birmənalıdır. Belə ki, bu rayonun ərazisində artıq ”Ağıllı kənd” layihəsinin reallaşmasının yaxın müddətdə şahidinə çevriləcəyik. Yəni, bu ərazidə həmin layihənin gerçəkləşdirilməsi üçün başlamış böyük işlər artıq yekunlaşmaq üzrədir.

Aparılan tikinti-abadlıq işlərində bu yeni layihənin gerçəkləşdirilməsində bir çox ölkələrin həm təcrübəsindən, həm də onların mütəxəssis gücündən istifadə olunur. Xüsusilə qardaş Türkiyənin burada gördüyü işlər həqiqətən ürəkaçandır. Yeri gəlmişkən onu da xatırladaq ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Prezidenti ilə birlikdə Zəngilanda olması, burada keçirilən görüş, həmçinin Zəngilan Beynəlxalq Hava Limanının bünövrəsinin qoyulması Böyük Qayıdışın əsas parametrlərindəndir. Bütün bunlar göstərir ki, Azərbaycan Prezidentinin Regionların İnkişafına Dair tapşırıq və göstərişləri böyük sürətlə, vətəndaş əzmkarlığı ilə reallaşdırılır.

**Doğrudur, sovet dönəmində rayon ərazisindən keçən dəmiryolu xətti həm sakinlərə iş yeri, həm də dəmir yolunun imkanlarından istifadə etmək baxımından çox sərfəli idi. Həmin dövrün faktlarına üz tutanda məlum olur ki, rayon ərazisində 21 dəmir yolu müəssisəsi və 6 dəmir yolu vağzalı fəaliyyət göstəribdi. Bu gün həmin dəmir yolunun bərpası təbii ki, daha böyük imkanların yaradılmasına səbəb olacaq. Eləcə də Zəngilandan Naxçıvana quru sərhəddinin açılması da gələcəkdə bu rayonun inkişaf perspektivini daha da artıracaqdı. O ki, qaldı rayonda aparılacaq tikinti işlərinə, qeyd etmək lazımdır ki, hələ sovet dönəmində rayonun qum, çınqıl və daş təminatı baxımından imkanları yetərincədi. Deməli, Zəngilanın, yeni dörd çay arasında olan bu ərazinin inkişaf imkanları daha genişdir.**

*Əbülfət MƏDƏTOĞLU*

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Qəribə əhvalat



*Gülnaz Qubalı*

**Bayaqdan danışmaq istədiyi sözləri seçib, fikirlərinin telinə düzürdü Oktay muəllim. Qəlb yenə də inad göstərməyə çalışırdı. Ağlı və şüuru ılə ürəyini barışdıra bilməyərək söhbətə belə başladı. 1969-cu ilin qışı, soyuq dekabr ayı idi. Hamı kimi mən də əskərlik xidmətinə çağırılmışdım deyə, sözünə ara verdi. Evdə masanın ərafında əyləşən digər qonaqların da tələbedici gözlərlə ona baxdığını görüncə məclisin ruhunu ələ alaraq söhbətinin davamını gətirməyə çalışdı. Onun səsi minlərlə qəlbin dilsiz həyacanıyla dolu idi. Qarşısında qoyulan büllur armudu stəkanındakı buğlanan ətirli çaydan da bir qurtum alaraq, ömrünün izinə düşdü. Əlbəttə ki, bu vəzifəmi, bu vətən borcumu yerinə yetirməli, bu iki il ərzində heç bir səhv buraxmadan komandirlərimin hər əmrini layiqincə və vaxtında yerinə yetirərək, əskər yoldaşlarımı incitmədən alnı açıq, üzü ağ geriyə öz ana vətənimə, Azərbaycana dönməli idim.**

O, anların qatarında yol gedir, gedirdi. Saçlarını qocalıq öpmüşdü. Ürəyi dolu idi. Danışdıqca qəlbi, ötən illərin sıxlığından çətinliklə keçib, geriyə gənclik, uşağlıq illərinə həyatın lap başlanğıcına qayıdırdı. Oktay müəllim ətrafa baxıb qeyri-adi qüvvəylə sözünə əlavə etdi. Bu nöqteyi-nəzərdən ailə üzvlərimə əsasən də canımdan çox cevdiyim anama necə söz vermişdimsə elə də etməli idim. Artıq əskərlik dövrüm başlanmışdı. Tiflis şəhərindəydim. Hamımız əynimizə bir nəfər kimi eyni rəngdə, eyni formada olan ulduz simvolu həkk olunmuş qızılı düyməli əskəri geyim, belimizə qızılı toqqası olan enli kəmər, ayağımıza xrom çəkmə geyinib, başımıza isə boz rəngdə oraq-çəkicli ulduz simvollu qulaqlı yun papaq qoymuşduq.

Bu geyim mənə təmamilə ayrı görkəm verib, çox dəyişmişdi. Burada hər şey təmamilə başqa cür idi. Qanun-qayda sərt, komandirlər isə zəhmli. Həmişə amiranə danışmağı özlərinə adət, peşə etmiş rus komandirlərimin zəhmli və zabitəli üzünə ciddilik elə bil həkk olunmuşdu. Laklı furaşkasının altından baxan xırda, göy gözlərində daima qəzəb atəşi parıldayırdı. Heykəl kimi dik gəzərək ancaq əmr və göstərişlər verən hərbi geyimli zabitlər, hər gün əskərləri hər hansısa işə cəlb edir yönəltməyə çalışırdılar.

Düyünlənmiş qaşlarının arası daima bizi onlardan ehtiyatlı olmağımıza, belindəki kəmərinə bağladığı tapancası isə, onları daha da zəhmli göstərməklə yanaşı, məsafəli davranmağımıza sövq edirdi. Buna baxmayaraq məcburiyyət qarşısında onların hər əmrinə tabe olub əməl etməli idik. Əskəri xidmətimin ilk altı ayını bizə verilən kolaşnikov tipli avtomatın dilini öz qanun-qaydası ilə öyrənməkdən ibarət idi. Belə ki, bizə etibar olunan silahımızla çox ehtiyatlı davranmalıydıq.

Cəmi on patronumuz olardı ki, onu da ən zəruri hallarda istifadə edə bilərdik. Tapşırıqlara əsasən müəyyən olunmuş günlərdə hər bir əskər öz silahını sökub, bütün hissələrini təmizləyərək yağlayıb, sökülmüş hissələri yenidən düzgün bir şəkildə yığaraq silah halına gətirməli idi. Müntəzəm surətdə bizə komandirlərim hədəfə sərrast atəş açmağı, silahımızla düzgün davranmağı, onu göz bəbəyimiz kimi qorumağı tövsiyə edirdilər. Çünkü ən çətin vaxtlarımızda bizi qoruyan vasitə təkcə silahımız idi. Hər bir halda qanunsuzluqlara yol vermək qəti qadağan olunmuşdu.

Evimizdən uzaqlarda tanımadığım millətlərdən ibarət insanlar arasında günlərim əslində haqqında eşitdiyim, bildiyim amma başıma gəlməyən qəribəliklərlə dolu olan əskərlik həyatı ilə keçirdi. Günlərimiz hadisə doğurdu. Arada anamdan ailə üzvlərimdən məktub alır, sevinir və sevə-sevə oxuduğum tanış sətirlər məni ancaq təsəlli edirdi. Poçt vasitəsilə gələn məktublardan ürəyim riqqətə gəlir, çox uzaqlarda qalan, doğulduğum ana vətənimin ətrini alır, evimizi ailə üzvlərimin, dostlarımın həsrətini çəkirdim. Günlərim beləcə ardıcıllıqla hər tapşırılan əmri yerinə yetirməklə, rejim çərçivəsində verilən xüsusi yeməklərlə qidalanaraq və rejim çərçivəsində yatıb-durmaqla keçirdi. Buradakı həyatım demək olar ki, bütünlüklə rejim çərçivəsində idi deyə, Oktay müəllim dərindən bir ah çəkdi. Ancaq vətənimdən gətirdiyim xatirələrlə ovunurdum.

Hər gün isə komandirlər bizə iş qrafiki üzrə müxtəlif çətin əmrlər, hərbi təlimatlar və tapşırıqlar verərək, lazimi göstərişlər üzrə lazimi yerlərə və hər hansı lazımı bir işə göndərirdilər. Biz əskərlər də çox ciddi-cəhdlə komandirlərin hər bir əmrinə, tapşırığına əməl etməyə çalışırdıq. Əskərlərdən kimisinə aşpaz, mətbəxdə çalışmaq, həyətdə odun doğramaq, yük daşımaq və hətta sanitar qovşağında təmizlik işləri tapşırılırdı.

Hamı da bir nəfər kimi bu işləri canla-başla qəbul edirdilər ki, təki karaula getməsinlər. Karaulda keşik çəkmək on beş kilometr ərazisi olan yüksək gərginlikli elektrik cərəyanı ilə əhatələnmiş girilməsi qəti-qadağan olan, qorunması son dərəcə məsuliyyət tələb edən hərbi obyekti qorumaqdan ibarət idi. Həmən hərbi obyekti qorumaq çox məsuliyyət tələb etdiyindən çoxları bu işdən boyun qaçırırdılar. Hətta karaul zamanı bu işin çətinliyinə, məsuliyyətinə dözməyərək silahı ilə özünə qəsd edən əskərlər də olurdu. Bu əhatəsi geniş zonada yerləşən hərbi obyektə çatmaq üçün düz yeddi mərhələ, yeddi etap keçmək lazım gəlirdi ki, buna baxmayaraq həmən yerə zərər vermək məqsədi ilə ora keçmək üçün cəhd edənlər də olurdu. Günlərin bir günü həmin hərbi obyekti qorumaq növbəsi mənə düşmüşdü. Yəni əskər dili ilə desəm karaul. Gördüyüm etibarilə bu yer hər iki tərəfdən daş bardyorlardan səki çəkilmiş ara hissəsi asfalt örtüyü ilə döşənmiş dar yoldan ibarət bir yer idi. Ön tərəfdən isə yerə qum döşənib hamarlamışdılar ki, kənar adamlar buraya girsələr qumda ləpirləri qalsın. Təsadüfən həmən günü hərbi hissəyə yoxlama da gəlibmiş.

Belə olan təqdirdə, çox diqqətli olmalıyam deyərək, öz-özümə qəti surətdə qərar verdim. Karaulda, hərbi hissəni müdafiə zamanı keşik çəkən hər bir əskər qanunən heç bir işlə məşğul ola bilməzdi. Gözlərini qırpmadan əlində silahı hər iki saatdan bir, iki saat fasılə ilə bir sutka keşikdə olmalı və bu müddət başa çatdıqdan sonra isə başqa bir əskər növbəni təhvil alaraq məni əvəz etməli idi. Və mən komandirlərimə keşikdə olduğum muddətdə heç bir qanunsuzluqun olmadığını, xoşagəlməz bir hadisənin yaşanmadığına dair raport verib, hərbi hissəmə kazarmama qayıtmalı idim. Amma bu dəfə belə olmadı, belə ki, on kilometr uzaqlıqdan durbin vasitəsilə məni izləyən komandirlərim həmən yerdə yəni karaulda bir əskərin daş səkinin üzərindən nə səbəbdənsə hoppanaraq o tərəf, bu tərəfə gəzdiyini müşahidə edirlər. Elə bu əsnada həyacan siqnalı verilir.

Ümumiyyətlə burada qayda elə idi ki, keşikdə olan əskərləri on kilometr uzaqlığı çox dəqiq və ən xırda detalları ilə göstərən ən müasir texniki vasitə ilə təchiz olunmuş durbinlər vasitəsilə izləyirdilər. Bunu da qeyd etməliyəm ki, mən altı ay Tiflis şəhərində qaldıqdan sonra Belarusiyanın Brest şəhərinə göndərilmişəm. Və bu qəribə əhvalat da elə həmin şəhərdə əskəri xidmətim zamanı baş vermişdir. Və gəlib öz komandirlərimə raport verirəm ki, mən siravi əskər Kərimov həmən ərazidə keşik çəkdiyim müddətdə hər şey öz qaydasındadır. Heç bir qanun pozuntusu yoxdur. Uca boylu, kurən rus komandirlərim mənə inanmayaraq öz dillərində nə isə deyinə-deyinə iri addımlarla gəlib həmin əraziyə baxış keçirirlər. Çox gərgin, əsəbi və amiranə bir tərzdə, uca bir səslə nə üçün hoppanaraq gəzdiyimi soruşurlar.

Mən də cavabında səbəb olaraq dar yolun üzərindəki qarışqa yuvalarını və yerdə topa şəklində qaynaşan minlərlə qarışqaları göstərib, onları çəkmələrimlə tapdalayıb əzməməkdən ötrü həmən yerdən hoppanaraq keçdiyimi söylədim. Komandirim Ştanko və başqaları doğrudan da keşik çəkdiyim dar yolun üzərində topa-topa qaynaşan qarışqaları görüb eyni zamanda mənim həmin mühitə üyğun olmayan cavablarımı eşidib mat-məəttəl qalırlar.

Belə qaynar bölgədə hərbi hissənin tam yaxınlığında belə çətin şəraitdə qarışqaya mərhəmət göstərmək, bu hal əlbəttə ki, soyuqqanlı rus komandirləri üçün həm gözlənilməz həm də, qeyri-adi bir hal idi. Və bu əsnada o tərəf, bu tərəfə qaçışaraq gəzən əllərində nə isə dartaraq öz yuvalarına aparmağa tələsən minlərlə qarışqalara tamaşa edərək, arada həm də mənə tərəf baxırdılar.

Araya çaxnaşma düşmüşdü. Birdən hikkəsindən qəzəb qusan, gözləri dəhşətdən bərəlmiş Polkovnik Ştanko zəhmli üzünü mənə tutaraq yenə də amiranə və əsəbi bir tərzdə bağıraraq dedi; - Oktay Kərimov əyər sən adi, balaca həşarat olan qarışqanı tapdalaya bilmirsənsə, düşməni necə öldürəcəksən? Sən düşməni deyil, düşmən səni öldürər. Sənə on beş sutka qavbaxta. Mən isə cavabında hərbi nizamnamə qaydalarına uyğun formada əlimi gicgahlarıma qədər qaldırıb, "baş üstə" yoldaş komandir dedim. Qavbaxta, yəni sulu, nəm zirzəmidə on beş gün qalmaq cəza növüdür ki, komandirim tərəfindən mənə verilmişdir.

Mən isə, öz komandirimə yoldaş komandir baxmayaraq ki, mən qarışqaları tapdalamıram, amma düşməni əllbəttə ki, məhv edərəm deyə, ərklə cavab verdim. Ümudsizlik bütün çılpaqlığı ilə görünməyə başlamış, ifrat dərəcəsinə çatmışdı. Çaşqınlıq içərisindəydim. Müvəqqəti bir qənaət yaratmaq üçün, izin alaraq təvazökarcasına böyük rus şairi Krılovun "Qarışqa və çəyirtkə" təmsilində şairin qarışqaya necə müsbət obrazda yanaşdığını, qarışqanı tərənnüm edən, bir çox şair və yazıçıların öz əsərlərində qarışqaya xüsusi yer verdiyini, bu heyvanın necə ağıllı, zəhmətkeş olduğunu yay fəslində qış fəsli üçün necə yem tədarük gördüyünü, özündən neçə dəfə ağır yükü ağlı sayəsində yuvasına necə daşıdığını, bizim ölkəmizdə Azərbaycanda evdə anamın bapbalaca həşarat olan qarışqaya heyvan deyil, bir insan kimi yanaşdığını, necə böyük hörmət bəslədiyini ağızdolusu danışdım. Komandirlərim çaşqınlıqla məni dinləyir və ortalıqda var-gər edirdilər. Bu sözlər onların qanında heç bir zaman duymadığım bir coşğunluq yaratmışdı. Və birdən nə oldusa öz aralarında pıçıldaşaraq və bu fikirdən daşınaraq məni, mənə verdiyi həmən ağır cəza növündən azad etdilər.

Gözləmədiyim bir iş olmuşdu. Bircə ədalətli fikir butun zəncirləri qırmışdı. Düşdüyüm mühitdən asılı olmayaraq onlar yekdilliklə mənim necə rəhmli, cəfakeş bir insan olduğumu dillərinə gətirərək gülümsünüb mənə öz kazarmama getməyə icazə vermişdilər. O zamanda, o mühitdə yüksək rütbəli rus komandirlərlə bapbalaca həşarat olan qarışqa haqqında belə cəsarətli və müfəssəl cavablar vermək hər əskərə də müyəssər olan bir iş deyil.

Həm uzun, yorucu və mübahisəli söhbətdən sonra çox sevincək və sonsuz təlaş içərisində tez-tələsik öz hərbi hissəmə kazarmama əskər yoldaşlarımın yanına qayıtdım. Əsas məni sevindirən səbəb isə muqəddəs heyvan olan qarışqaları ayaqlarım altında əzib-tapdalamaqdan xilas etməyim olmuşdu. Axşamustü əskər yoldaşlarıma başıma gələn bu qəribə əhvalatı danışaraq onların da orada olan qarışqa yuvalarını əzməmələrini dönə-dönə tövsiyə etdiyim indiki kimi yadımdadır.

Bu əlamətdar, xoş hadisədən əskər yoldaşlarımın da əhval-ruhiyyəsi yüksək, ovqatları xoş olmuşdu. Və ürəkdən sevinərək gülümsünmüşdülər. Artıq əskəri xidməti dövrüm başa çatmışdı və mən Azərbaycana öz doğma, doğulduğum vətənimə qayıtmışdım. Yaxın-uzaq yerlərdən bizə gələn yaxınlarım, dostlarım məni bu münasibətlə təbrik edirdilər və hər kəsə əskərlik dövrü zamanı başıma gələn, bir-birindən maraqlı hadisələri və eyni zamanda bu xoş, təəssüratı məndə dərin iz buraxan "qarışqa əhvalatını" da nəql etdim. Əsasən anamın qarışqaya böyuk hörməti olduğundan bu hadisəni eşidib çox təsirlənərək üzünü mənə tutub, oğlum, sən necə də mərhəmətli ürəyə sahibsən deyərək, əli ilə başımı sığallayıb yanağımdan öpdüyü indi də yadımdadır. Bu da yaxşı xatirimdədir ki, deyə Oktay müəllim dərindən bir nəfəs alaraq ətrafdakı qonaqlara nəzər salıb, söhbətinin ardını həvəslə və kövrək səslə danışmağa başladı. Böyük vətən müharibəsi iştirakçısı babam isə mənim bu cəsarətimi böyük bir şücaət hesab edərək mənə əsl qəhrəman adı vermişdi. Xülasə, çətin, eyni zamanda çox məsuliyyətli günləri geridə qoyaraq kişilik məktəbini uğurla başa vuraraq, vətənimdə sərbəst həyatın qoynuna atılmışdım. Taleyin çox sınaqlarından, məngənə kimi ürək sıxan günlərindən, keşməkeşli yoxuşlarından keçərək alnı açıq, üzü ağ vətənimə ailəmin yanına qayıtmışdım. Sevincimin həddi-hüdudu yox idi. Hər kəs məni təbrik edir, bir ağızdan həyatda uğurlar, naliyyətlər arzulayir və bir qəhrəman kimi baxırdılar. Ailə üzvlərimin arasında özümü vətənə layiq bir övlad kimi hiss edirdim.

Əlbəttə ki, əskəri xidməti borcumu yerinə yetirib evə döndüyüm zaman yaşımın üzərinə daha iki yaş da əlavə olunmuşdu. Bu iki il məni yetkinləşdirib öz sərt həyat tərzi ilə daha cəsarətli, öz sərt qanunları ilə isə daha əzmkar etmişdi. İndi isə mən yetmiş yaşlı, iki övladı, dörd nəvəsi olan bir babayam. Amma bu xoş, həmən mühütə uyğun olmayan qəribə əhvalat indi də mənim gözlərimin qarşısında bir kino lenti kimi canlanır.

Və mən o keçən günləri bu günkü kimi yad edərək xoş təəssuratlarını həm yaşayır, həm də sizinlə bölüşürəm. Mənə cəza vermiş komandirim Ştanko yoldaş ilə sıx dostluq əlaqələri quraraq çox səmimi şəkildə qəlbdən, Azərbaycana paytaxt Bakıya qonaq dəvət etmişdim.

Bir neçə gün Bakıda qonaq saxlayaraq gəzməli, görməli yerlərlə tanış edib çox hörmət və ehtiramla vətəninə uzaq Rusiyaia yola salmışdım.

Oktay müəllim, öz xoş xatirələri ilə dolu olan keçmişini vərəqləyərək başına gələn bu qəribə əhvalatı böyük bir həvəslə, birnəfəsə danışdı. Dərindən nəfəs alaraq söhbətinə ara verdi. Əlinin içi ilə ağappaq qar kimi saçlarını hamarlayıb kövrək nəzərlərlə öz yatağında sakitcə əyləşən və bu söhbəti çox diqqətlə dinləyən ağsaçlı, sinni doxsanı ötmüş nurani anasının üzünə, bir də dinməzcə oturmuş qonaqlara nəzər saldı. Əlbəttə ki, qonaqlar da hörmət əlaməti olaraq Oktay müəllimin sözünü kəsmədən sonacan dinləmişdilər. Onsuz da onun gülümsər olan üzünə bir az da təbəssum qonmuşdu. Yaşlandıqca insan daha kövrək olur deyirlər. Ömür isə ruzigarın dəyirmanında bir dən kimi üyüdülür. Və mən xəyalən Oktay müəllimin o günlərə getdiyini hiss etdim. Həyəcandan titrəyən səsi ikiləşmişdi. Bəlli idi ki, özünün danışdığı bu keçmişi xatırladan əhvalatdan təsirlənib çox mütəəssir olmuşdu. Üz-gözü məyusluğa bələnmişdi. Axı, Oktay müəllimin nə on səkkiz yaşı vardı, nə də o çılğın dəli-dolu cavanlığı.

Bəlkə də o, bu əhvalat ilə gənçliyinin əlvan tablolarının cəzbedici pərdəsini qarşısında açmış, onunla qovuşub-öpüşmüş, təsəlli tapmışdır. Amma, artıq o çağlar çoxdan geridə qalıb bir kölgə kimi gözəgörünməz olmuşdular. Axı, zaman heç vaxt lövbər salmayan gəmidir. Sonra Oktay müəllim, sağ əlini başına dayayıb qayğılı və mükəddar nəzərlərini yerə dikərək bir anlıq sükut etdi. Səssizliyə büründü. Bəzən səssizlik də o qədər şeyi ifadə edir ki? Və birdən bir gilə yaş damlasının sağ yanağından aşağıya tərəf süzüldüyünü gördüm. Üzünü əli ilə gizlətməyə çalışsa da artıq gec idi. Bayaqki gülüş qonan gülər üzü birdən-birə dəyişmişdi. Bəlkə də yalnız indi, bu dəqiqələrdə xatırladı ki, nə vaxtsa gənc olub? Bəlkə də yalnız indi, gəncliyin özünə məxsus bir fəlsəfəyə malik olduğunu və bir çiçək ömrü qədər cavanlığını yad etmişdi Oktay müəllim. Kim bilir? Ana da eynilə oğlunun bu danışdığı əhvalatı dinləyərək kövrəlib qəhərlənmişdi. Göz bəbəkləri nəmli idi. Başını aşağı əymişdi. Həyat nə qədər çaşdırıcıdır, qəribədir. Hamımız susaraq bir kəlmə də danışmırdıq. Elə bil ovsunlanmışdıq. Və, bu əsil sənət əsəri olan möhtəşəm tablonu pozmaq istəmədiyimizdən sakitcə bu kövrələn ana ilə oğula tamaşa edirdik. Oktay müəllim o anları canlandıraraq, keçmişi geriyə qaytararaq yaddaşını təzələmişdi. Artıq axşam düşmüşdü. Getmək vaxtı idi. Sərin və lətif ruzigar yay fəslinin çöhrəsinə düşən ləkələri silib təmizləyirdi. Bununla belə havada sezilməsi çətin olan yad bir əhval-ruhiyyə də hiss edilirdi. Daha sonra bir-bir, iki-bir sağollaşıb evdən çıxan qonaqların üzündə isə mən, ana-bala sevgisindən doğan bir məmnunluq və eyni zamanda nigarançılıq ifadəsi də sezdim. Bu hal qonaqlar uçun başqa bir düşüncə və zehniyyət versə də, mənim üçün isə sanki, bu əhvalat vasitəsilə o uzaq yolları seyr edib və o günləri ziyarət etmişdim.

**O günkü qonaqlıq beləcə "qarışqa əhvalatı" adlandırdığımız ibrətamiz əhvalat ilə yadda qaldı. Oktay muəllimin təxminən əlli il bundan əvvəl olmuş hadisəni belə təfərrüatı ilə danışmağı məndə xoş təəssüratlar oyatmışdı. Hər kəs kimi mən də vüqar və əzəmət ilğımına bürünmüş bu şəxsin sözünü kəsmədən axıra qədər dinlədim və nadir rastladığım bu hadisəni və bu həyatı mütləq və mütləq qələmə almağı öz-özlüyümdə qərarlaşdırdım. Azərbaycandan uzaqlarda, qürbət ellərdə bu hadisə ilə bir çoxlarına ibrət olaraq, təkcə insana deyil ən xırda heyvan olan qarışqaya rəğbəti bu əməlinizlə öyrədərək, mərhəmət hissini aşılayaraq ürəklərdə məhəbbət oyatmağınız alqışlanası haldır. Bu əlamətdar işi vətənə və ailəyə gətirdiyiniz ən yüksək bir titulla müqayisələndirirəm. Və bəşəriyyəti idarə edən isə, ancaq tərbiyədir deyirəm.**

## "TÜRKÜN TALEYİ" ANKARADA TƏQDİM OLUNDU




**Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayevanın təşəbbüsü ilə noyabrın 27-də Xalq şairi Zəlimxan Yaqubun yenicə nəşr olunmuş "Turkun taleyi" adlı kitabının Ankarada ilk təqdimat mərasimi keçirilib. "Türk Ocaqları" Baş Qərargahında bas tutan təqdimatda Q?nir? Paşayevanın başçılıq etdiyi nümayəndə heyəti iştirak edib.**

Tədbirdə iştirak etmiş Əməkdar mədəniyyət işçisi, Zəlimxan Yaqub ədəbi irsinin tədqiqatçısı Musa Nəbioğlu bildirib ki, "Türk Ocaqları" İdarə Heyəti üzvləri, ocağın gənc üzvləri və başqa qonaqların da iştirak etdiyi tədbiri giriş sözü ilə "Türk Ocaqları"nın başqanı Prof. Dr. Mehmet Öz açaraq Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin keçmişdəki və günümüzdəki durumundan, Qarabağ Zəfərinin önəmindən danışıb, bütün Türk dünyasında böyük söz ustadı kimi tanınan Zəlimxan Yaqubun yaradıcılığından söz açıb, onun əsərlərinin Türk coğrafiyasında yayılmasının vacibliyini vurğulayıb.

Azərbaycan nümayəndə heyətinin rəhbəri, Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Q?nir? Paşayeva təqdimatda geniş nitq söyləyərək Türk birliyi, Azərbaycanla Türkiyə arasındakı qardaşlıq və Qarabağ müharibəsindən söz açıb.

Xalq şairi Z?limxan Yaqubun Türk dünyasına, o cümlədən qardaş Türkiyəyə sonsuz sevgi-sayğısından, Türkiyənin, Türk dünyasının yüksəlişini, Qarabağda qazanılacaq qələbəni şair fəhmi ilə bütün aydınlığı ilə öncədən görməsindən danışıb: "Zəlimxan Yaqub bütün bu vurğulanan yüksəliş və qələbələrdən öz gözəl əsərlərində bəhs edib, bu mövzularda qiymətli şeirlər, poeamalar yazıb.

Mən Zəlimxan müəllimlə ailə dostu olmuşam. Onun ailədə, cəmiyyətdə, parlamentdə, Türk dünyasında və əlbəttə, şeir-sənət dünyasında necə sayğılı, etibarlı bir yerə sahib olduğunu görmüşəm. Şairin haqqın rəhmətinə qovuşmasından 6 ilə yaxın vaxt keçsə də, onun dillər əzbəri olan şeirlərinə, ümumən şəxsiyyətinə və yaradıcılığına maraq azalmamışdır. Biz bu il şairin "Qarabağ şikəstəsi" şeirlər və poeamalar kitabını onlayn təqdim edərkən, belə bir fikir hasil oldu ki, onun türk dünyası ünvanlı şeirlərini ayrıca kitab şəklində çap edək. Budur, böyük məmnuniyyətlə bu gün burada "Türkün taleyi" kitabının təqdimatına yığışmışıq. "Türkün taleyi"nin ilk təqdimatı üçün ən uyğun yerlərdən birinin məhz "Türk Ocaqları" olduğuna inanıram. Necə deyərlər, amal eyni, yol eyni, baxış eyni...

Mən "Türk ocaqları"mızın başqanı, hörmətli Mehmet xocaya, "Türkün taleyi"ni nəşrə hazırlayan Əməkar mədəniyyət işçisi Musa Nəbioğluna, bu təqdimatın hazırlanmasında, kitabın gün üzü görməsində əməyi keçən hər kəsə könül dolusu təşəkkülərimi yetiririəm!

Çox şadam ki, bu təqdimat Türkiyəmizin dünyada nüfuzunun böyük ölçüdə artdığı, Türk Dövlətləri Təşkilatının yarandığı və Vətən Müharibəsində tarixi Zəfərimizin sevinc, fərəh və qüruru içində keçiririk. Bütün bu tarixi uğurlarımızın şairin ruhuna agah olduğuna inanıram. Ruhu şad olsun"!

Sonra Azərbaycanın TÜRKSOY-dakı təmsilçisi Elçin Qafarlı, "Ozan dünyası" Aşıq Yaradıcılığının Təbliği İB-nin sədri, Əməkdar mədəniyyət işçisi Musa N?bioğlu, "Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası"nın sədri Səkinə Babayeva, "Dədə Əl?sg?r Ocağı" İctimai Birliyinin başçısı X?tai Əl?sg?rli və digərləri çıxış edrək Zəlimxan Yaqub yaradıcılığından söz açıblar.

"Türk Ocaqları" Mərkəz Məsləhət qurumunun üzvü Dr. Lütfü Şahsuvaroğlu öz çıxışında Türk birliyindən və birliyimizin güclənməsində ədəbiyyatın, mədəniyyətin rolundan danışıb, çıxışının sonunda Zəlimxan Yaqubun Türk birliyinə çağırış ruhlu şeirini oxuyub.

Təqdimatda Z?limxan Yaqubun şeirlərindən örnəklər oxunub.

Tədbirin sonunda Azərbaycan heyəti adından "Türk Ocaqları"na və tədbir iştirakçılarına Qarabağ motivli xatirə hədiyyələri və Zəlimxan Yaqubun digər kitabları təqdim olunub. Öz növbəsində "Türk Ocaqları" da Azərbaycan nümayəndə heyətinə hədiyyələr bağışlayıb.

Xatırladaq ki, Xalq şairi Zəlimxan Yaqubun Türkiyədə təqdimatı keçirilmiş "Türkün taleyi" kitabı 2021-ci ildə Bakıda"CBS PP"-də nəşr olunub. Layinənin rəhbəri Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva, kitabın tərtibçisi və redaktoru Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu, məsləhətçilər Beynəlxalaq "Alaş" ədəbi mükafatı laureatı Əkbər Qoşalı və "Nəfəs" İB-nin sədri Firəngiz Balakişiyeva, buraxılışa məsul isə Regional Hüququ və İqtisadi Maarifləndirmə İB-nin sədri Arzu Bağırovadır.

**ƏBÜLFƏT**

# Adanada söz və musiqi bayramı

**Adanada düzənlənən 6-cı Türk Dünyası Çukurovada Şeir və Musiqi festivalı pandemiya səbəbindən bir il gec, yəni 21-22-23-24 noyabr 2021-ci il tarixdə reallaşdı. Şübhəsiz, bu qəbildən olan tədbir və festivallar Türk Dünyası insanlarının birlik və bərabərliyi üçün onların biraraya gəlməsində misilsiz rol oynayır. Qeyd edim ki, Çukurova Ədəbiyyatçılar Dərnəyinin Başqanı çox hörmətli Halise Tekbaş xanımın böyük zəhməti ilə düzənlənən bu festivallar öz zənginliyi və maraqlı keçməsi ilə iştirakçıların yaddaşına həkk olunaraq şirin xatirələrə çevriləcək.**

Festivala, əvvəlcədən planlaşdırdığımız kimi, Azərbaycan nümayəndə heyəti ilə birlikdə Özbəkistan və Qırğızıstandan olan dostlarla bir gün öncə paytaxt Ankaraya gələrək Mustafa Kamal Atatürkün və Məmmədəmin Rəsulzadənin anıt qəbirlərini ziyarət etməklə başladıq. Bu ziyarətlər zamanı Türk insanlarının Atatürkə olan sonsuz sevgisinin bir daha şahidi olduq. Sıradan bir gündə anıt qəbrini ziyarət edən insan seli dayanmadan hərəkətdə idi. Bu mənzərəni, bu ziyarətləri həftənin hər günü müşahidə etmək mümkündür.






Məni çox kövrəldən isə, Məmmədəminin anıt qəbrini ziyarət edənlərin seyrəkliyi idi. Bununla belə, bayraqlara bürünmüş anıt qəbrin ətrafı insan selini xatırladırdı. Əminəm ki, bu qutsal ziyarətlər yaddaşlarda qalmaqla xoş xatirələrlə anılacaq.

5 gün ərzində davam edən 6-cı festivalın ilk günündən Bələdiyyə başqanlarının sevgi və qayğısı ilə əhatə olunan iştirakçılar onların ədəbiyyata və sənətə nə qədər önəm verdiklərinin şahidi oldular. Onların festival iştirakçıları ilə bərabər olması, bir masada yemək yeməsi türk insanının nə qədər sadə və təvazökar olduğunu, xalqın onları bu vəzifələrə doğru seçdiklərinin bariz nümunəsi idi.

Festivalın maraqlı keçməsinə proqramın zənginliyi də əsas verirdi. Salonlarda şeir və musiqi dinləmələri ilə yanaşı Adananın digər bölgələrinə edilən səyahətlər, tarixi yerlərin ziyarəti çox yaddaqalan idi.

Bütün festivallara hər il öz isti qucağını açan Karaisalı Bələdiyyəsinin bu ənənəni davam etdirməsi, Kozana bölgəsinə səyahət və bu bölgənin Bələdiyyə başqanının və digər dövlət qurumlarının rəhbərlərinin, xüsusilə də, insanların festival iştirakçılarını coşqu ilə qarşılamaları bizi son dərəcə məmnun etdi.

Festivala ev sahibliyi edən və onun möhtəşəm keçirilməsində əvəzsiz xidmətləri olan Adana Böyükşəhər Bələdiyyə başqanı sayın Zeydan Karalara, Karaisalı Bələdiyyə Başkanı sayın Saadettin Aslana, Başqan vəkili Cemalettin Sürmeye, Karaisalı Kaymakamı Mert Kumçuya, Kozan Bələdiyyə Başkanı Kazım Özgana, Kozan Bələdiyyə Başkan yardımçısı Adem Saygıcaka, Kozan Bələdiyyə Başkan yardımçısı Yaşar Göke, Kozan Bələdiyyə Başkan yardımçısı Süleyman Şenoğluya, Kozan Bələdiyyə Başkan yardımçısı Arif Dağlıya, Kozan Kaymakamı Şafak Gürcama, Sarıçam Bələdiyyə Başkanı Bilal Uludağa, Sarıçam Bələdiyyə Başkan yardımçısı Lütfi Doğana, Sarıçam Bələdiyyə Basın Yayın və Xalqla Əlaqələr Müdiri Şükrü Gedikə, tədbir üçün salonu üzümüzə açan Seyhan Bələdiyyə Başkanı Akif Kemal Akaya, festivalda iştirak edərək bizləri şərəfləndirən qiymətli kültür müdirlərinə, tədbiri fasiləsiz lentə alan OTAĞ TV əməkdaşlarına verdiyi dəstəkləri üçün çox-çox təşəkkür edirəm.

Bu festivala Qırğızıstan Mədəniyyət və Turizm naziri Jamankulov Azamat Kaparoviçin və onun müavini Amanova Saltanat Abdildayevnanın, Qırğızıstan Yazarlar Birliyinin sədri Kalıbekov Nurlanbek Oskonaliyeviçin, Qırğızıstan Kitab palatasının rəhbəri Koyçuman Momunkulovun, "Yanqi Ovoz" Orta Asiya Yazarlar və Tarixçilər Birliyinin sədri Joldoşbek Monoldorovun, Özbəkistan Yazarlar Birliyinin və Qazaxıstan nümayəndələrinin Türk Dünyası insanlarının biraraya gəlməsi üçün verdikləri önəmi də qeyd etmək istəyirəm. Son üç ildə Orta Asiya Türk respublikaları ilə əlaqələrdə "Yanqi Ovoz" Orta Asiya Yazarlar və Tarixçilər Birliyinin sədri Joldoşbek Monoldorovun gərgin əməyini də xüsusilə qeyd etmək istəyirəm. Bu çalışmaların nəticəsi olaraq, Qırğızıstan üzrə Çukurova Ədəbiyyatçılar Dərnəyinin Onursal Başqanı seçilməsindən dolayı dəyərli dostum və qardaşım Joldaşbek Monoldorovu səmimi qəlbdən təbrik edirəm.

**Bu qısa qeydlərimin sonunda bir daha Çukurova Ədəbiyyatçılar Dərnəyinə və onun Başkanı sayın Halise Tekbaş xanıma uğurladığı bu festivallarla türk insanlarının birlik və bərabərliyi üçün biraraya gətirilməsində gördüyü misilsiz işlərə görə öz səmimi minnətdarlığımı və təşəkkürlərimi sunuram. Var olun!**

**Yaşasın Türk Dünyası!**

**İlqar Türkoğlu**

# Balaca Məryəmin rəng dünyası



**Bu aləmin rəngləri balaca Məryəmi heyran edir. Öz xəyal rənglərini qabağında sıralanmış rənglərə qarışdıraraq başqa bir dünya yaradır, balaca rəssam.**

Rənglər üstə, ağ vərəqlər üstə balaca uşaq əllərinin hərarətini dərk edirsən. Yaratmaq həvəsilə rənglərdən ayrılmır, balaca Məryəm. Ən çox da göyləri çəkir...bəşər övladı paklıq, təmizlik , ucalıq axtarır, həyat rəmzinə çevrilən göylərə üz tutur. Uca göylər qədər saf və təmiz uşaq baxışlarına tuş gəldikdə isə yaşamaq həvəsimiz artır. Məryəmin rəsmlərində təbiətə bağlılıq, uşaq maragından boylanan yurd sevgisi, bəşəriyyətin əşrəfi olan insan və təbiət mənzərələləri əsas yer tutur. Heyvanət aləmi - at, dəvə, it, pişik və s. balaca rəsamın əsas mövzusudur.

Məryəm Nemətzadə Bakıdakı 6 saylı məktəbin 4 - cü sinif şagirdidir. Məryəmin ibtidai sinif rəhbəri Nərgiz Bəşirova şagirdlərin təlim-tərbiyəsinə xüsusu diqqətlə yanaşır. O, şagirdlərin zehni fəallığının təmini, müstəqil işləmələrin qayğısına qalır, yetirmələrini düşündürücü suallar üzərində çalışdırır, hər keçilən mövzunu müasir həyatla əlaqələndirir, hər bir dərsin həm də tərbiyəvi xarakter daşımasına, uşaqların mənəvi aləminin zənginləşməsinə ciddi diqqət yetirir. Əlbəttə, bu işdə güclü idarəedici, xüsusilə də müasir tələblərə cavab vetrən, müəllimlərin pedaqoji fəaliyyətinin yüksək keyfiyyət səviyyəsində təşkilinə qadir olan məktəb direktoru Gülşən Orucova vardır.

9 yaşı olmasına baxmayaraq balaca Məryəm bir çox uğurlar əldə edir. Onun ülvi hisslər, sonsuz arzularla yaratdığı bu şəkillər öz rəngarəngliyi, dolğun məzmunu, cizgilərinin ahəngdarlığı ilə zövq oxşayır.

Məryəm öz rəsmlərindən ilk sərgisini açmaq istəyir. O, hazırda yeni rəsmlər üzərində çalışır.

Məktəbdə vaxtaşırı müxtəlif rəsm müsabiqələrinin keçirilməsi bir ənən halına gəlmişdır.

Bu bir həqiqətdir ki, şagirdlərin gördüyü, eşitdiyi, toxunduğu, qoxuladığı və s. ilk şeylər onların beynini, yaradıcılıq qabiliyyətini stimullaşdırır. Bu stimullaşdırma ömür boyu öyrənmə, sağlamlıq və davranış üçün əsas rol oynayır.

Düzdür, uşağın inkişafının 70 faizi qazandığı öyrənmə, təcrübə, 30 faizi isə genlərdən aslıdır.

Əlbəttdə onu əhatə edən ətraf mühit də şagirdlərin formalaşmasına və inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir. Çalığqan şagird elmə, mədəniyyətə və incəsənətin müxtəliv növlərinə maraq göstərir və özünü təsdiq edir. Məryəm təkcə kitablarla deyil, rənglərlə danışmağı da bacarır. Bu utancaq qız danışdıqca onun qabiliyyətini dərindən dərk edir, istedadına vurulursan. Etiraf etmək lazımdır ki, rəssamlıq çox çətin, maraqlı və səbr tələb edən bir sənətdir. Rəssam səbrli olmalı, hissiyyata qapılmağı və ondan tez azad olmağı da bacarmalıdır. Çoxları buna bir əyləncə kimi baxır. Əslində belə deyil. Məryəm sərbəst işləməyi çox xoşlayır, o deyir ki, sərbəst olaraq düşünürsən, axtarırsan.. bi isə olur sənin işin.

**Bu balaca qız rəssamlıq sənətinə nə qədər vurğundur!**

**Məryəm Nemətzadənin rəsmə olan sevgisi sonsuzdur. Biz də balaca rəssama dərslərində əla oxumaqla yanşı, can sağlığı arzulayırıq.**

**Sənə bu yolda uğurlar olsun, Məryəm!..**

**Sabir Hüseynbala oğlu**

## *Azərbaycan kubokunda 1/8 finalın oyun cədvəli*




**Azərbaycan Kubokunda 1/8 final mərhələsinin oyun cədvəli müəyyənləşib.**

**Qol.az xəbər verir ki, bir qarşılaşmadan ibarət mərhələnin görüşləri iki günü əhatə edəcək.**

**10 dekabr (cümə)**

**14:00. "Zaqatala" - "Səbail"**
**Zaqatala Olimpiya İdman Kompleksinin stadionu.**

**17:00. MOİK - "Qəbələ"**
**"Dalğa Arena".**

**11 dekabr (şənbə)**

**15:00. "Keşlə" - "Qaradağ Lökbatan"**
**"ASK Arena".**

**18:00. "Sabah" - "Kəpəz"**
**"Bank Respublika Arena"**

# Qaranlığa işıq saçan müəllim ailəsi

*Ancaq elm bəşəriyyəti həqiqətə, ədalətə və xoşbəxtliyə apara bilər.*

*Emil Zolya*



**Elm elə bir qapıdır ki, onu açdıqdan sonra oradakı xəzinəni görmək mümkündür. Elmdə son hədd, axırıncı kəşf anlayışı yoxdur. Elm enişli yoxuşludur. Bəzən çox çətin, bəzən də içiləcək su qədər asan gəlir insana. Elmin əhatə dairəsi hüdudsuzdur. Həmişə nə isə öyrənməyə, bildiklərimizi öyrətməyə çalışmalıyıq. Bu yolda atılan addım lap uşaq yaşlarından olmalıdır. Təbbi ki, bu yolda bizlərin ömrümüz boyu zəhmətlərinin dəyərini, qiymətini ödəyə bilmədiyimiz müəllimlərimizin əziyyətləri böyükdür. Müəllim öyrədəndir, hər bir peşə sahibinin bünövrəsini qoyan memar müəllimdir. Bəzən ağ saçlı müəllim görəndə düşünürəm görəm hər birimizin dilinin əzbəri olan "Müəllim" şerindəki sözlər kimi bu şərəfli peşə sahibinin minlərlə bağının bəhəri var.**

Bir insandan dəfələrlə yazanda elə bilirsən ki çümlələr təkrarlanar, sözlər eyniləşər. Amma illərdir bu xanım haqqında qələm götürüb yazı yazanda elə bil ilk dəfə görüb və onun haqqında oxuculara məlumat verirəm.

Bir müəllim ömrü. Artıq 77 yaşını çatan, həyatda ilk addımlarını atandan xeyirxah işlər arxasınca istiqamətlənən bir insan. Öz çörəklərini halallıqla qazanan atası Polad və anası Zəhra Rənanı da zəhmətə qatlaşmağı və xeyirxah olma ruhunda tərbiyə ediblər. Onların bu zəhməti yerdə qalmayıb. Rəna xanım öz zəhməti ilə həmişə ucalıb, xeyirxahlığı ilə çoxlarına örnək ola bilər.

Ailənin yeganə övladı. Ata ananın illərlə gözlədiyi övlad. Mükəmməl. Sözün hər mənasında, hər bir işində qüsursuz Rəna Cəbrayılova. Zəhmətkeş ailədə dünyaya göz açdı.

Valideynlərin tək arzusu Rənanın oxuyub savadlı, gərəkli bir övlad olması idi. Onun üçün çox peşə seçdilər, amma sonda müəllim olmaq qərarını bu balaca qız özü verdi. Müəllim bütün insanların öz peşələrinə yiyələnməsində əməyi olur cavabını verdi valıdeynlərinə. Elə də oldu. Orta məktəbi bitirdiyi il Bakı Dövlət universitetinə qəbul oldu. Hər yerdə fərqləndiyi kimi burdada öz tələbə yoldaşlarının, hətta müəllimlərinin də hörmətini qazandı.

Həyat yoldaşını da müəllim seçdi. Hacı Rəna xanım müəllim ailəsi yaratdı. İllər keçdi, müəllim kimi çox şagirdlərin yoluna şam kimi işıq saçdı, eləcə də öz övladlarının. Övladlarının müəllim peşəsinə yiyələnməsində də rolu az olmadı. Öz ocağına gəlin gətirəndə belə müəllim olmağını arzuladı.

Xalqını, millətini, dövlətini çox sevir Rəna xanım. Qələbə sevincini hər kəs kimi o da böyük fərəhlə yaşadı. Şəhid analarının dərdinə daima şərik oldu. Valideynlərinin öyrətdiyi kimi xeyirxahlıq etməyi, yaşlılara hörmət edərək imkanı daxilində qayğı göstərməkdə davam edir. Bu gün də Rəna xanım övladlarına, məktəbdəki şagirdlərinə və nəvələrinə də bunu aşılamağa çalışır.

*Çalış öz xalqının işinə yara,*
*Geysin əməlindən dünya zər-xara.*

Hacı Rəna xanım onu tanıyan hər kəs üçün dəyərlidir, əzizdir. Zəfər günü münasibəti ilə bu müəllim ailəsinin başda qocaman müəllimimiz professor **Malik Cəbrayılov olmaqla bütün ailə üzvünü təbrik edirik. Uzun ömür arzulayırıq. Qoy bu gələcək nəsil həyat yolunda düzgün addımlamaq üçün sizdən örnək götürsün.**

**Ruhiyyə Göyüşqızı**



***RƏHMƏT BABACAN***

*Rəhmət Babacan (Rəhmətcan Babacanov) 1998-ci il dekabr ayının 19-da Xarəzm Vilayətinin Şavat rayonunda anadan olub. Urqanç İctimai-İqtisadi Kollecini bitirib. Hazırda "Kitab dünyası" qəzetində özbək ədəbiyyatı şöbəsinin redaktorudur.*

### URQANÇA SƏFƏR

**Baxıb getməkdədir əsrim ilbəil,**
**Miladi məhəbbət, hicri məhəbbət.**
**- Urqançda gün görən intizar könlüm,**
**Bir səni axtarıb, bir səni, fəqət.**
**-Amma ağır gələn qəmdə yetişmək.**
**Özünü hər kəsə yetirər hər an.**
**Birgə gülə bilmək, birgə ötüşmək.**
**Bir şəhərdə olub görüşməmək var,**
**Bir şəhərdə olub, ayrı düşmək var.**
**Ruhidən qayğısın eyləyib sürgün,**
**Məsrurluq geydirib sonra gələn rəng.**
**Yara gedən yola tutmayıb üzün,**
**Köhnəlmiş olsa da, yaddadır Urqanç**
**Hələ almamısan şadlıq anını,**
**Min olan ləhzədən tək bahar anı.**
**Adıma qoşmadım Yarın adını,**
**Nə Dişan qalanı, nə də Uçanı.**
**Mən səni kəşf etdim... Yox, əvvəl ondan,**
**Ağır günlərinin saçı ağardı.**
**Ömürdən günlərim uçdu - dərbədər.**
**İndi anlamışam, bəlkə o zaman,**
**Mənim hisslərimi duymazdı şəhər,**
**Oğuz ləhcəsində yağış yağardı.**
**Sən orda oyaqsan, mən burda oyaq.**
**Sən orda sakitsən, mən dincəm burda.**
**Bu yalan ömürdə bir düz var ancaq -**
**Mən səni axtarıb, tapmışam orda.**

***

**Hüzurlarından danış, hər açılan səhərdə,**
**Bu yerləri ikimiz, qoşa gəzib dolaşaq.**
**Yeddi aləm könlümdə, könlünlədir bu yerdə,**
**Mənim ruhumdan sənin ruhuna bir yol açaq.**
**Köksündə zərrə qədər qərar tutmasın həsrət,**
**Axırda yola çıxaq, gedək eşqə sarı biz.**
**Gördüklərini dastan etsin bu şəhər - həzrət,**
**Şeirə dönsün burda bizim ürəklərimiz.**
**Həyatına günəştək girmək olmazdı əzab,**
**Qələmindən nur yağa, ola səxalı dahi.**
**Bizim bu eşqimizə sona qədər ola bab,**
**Yazı bağışlayardı sənə Munis, Agahi.**
**Qismət - bizi bir edən, o xoş, o gözəl dəmlər,**
**Daha güclü olacaq arzuların, həm əhdin.**
**Qırx günü dayanmadan şadlıq edər adamlar.**
**Qırx günə təntənəsin başa çatdırmaz bəxtin.**
**Bu yalan ömrümdə bir həqiqət var -**
**Mən səni axtardım, mən səni tapdım...**

***

**Soy adım: Qəmoğlu... Varlığım: miras,**
**Cənnətdən atılıb, gəldim atadan.**
**Aşiq-məşuqların qismətinə xas -**
**Mən özüm xətayam, sən də xətasan.**
**Həyatım: Qarışıq... Sonsuz dərd-xətər,**
**Ruhuma toxunma - günah meyvəsi.**
**Yaşaram həsrətin işgəncəsində.**
**Qəm yeyib adınıçəkib hər səhər,**
**Axtardım qəm dolu gecələr boyu.**
**Əzab anladığı dərd ləhcəsində.**
**Gözün - məni görməz, qayğışəvəsi.**
**Özün tapa bilməz bahar əyamı,**
**Özünü unudar dərdli payız həm.**
**Sənə xəyalımı de, çatdırarmı,**
**Aramsız dərdlərdən danışan qüssəm.**
**Bəla üçün vermə məni qabağa,**
**Köksüm doyub gedər olsa bu candan.**
**Sənsiz tənhalığa ağayam, ağa,**
**Sənsiz duyğulara mənəm sərgərdan.**
**Asiyəm, ürəyim bəxt istəyən gün,**
**Cənnətdən qovuldum... Eşq - cənnət mənə.**
**Məni qəbul eylə, ey dünya, mümkün -**
**Məni qəbul eylə, ey Havva nənə!**

***

**Qorxmadım deyirsən, yox, hamsı yalan,**
**Axşamlar ağlarsan, gələrsən zara.**
**Duyarsan: dünya top, sonsuz asiman,**
**Yanıma dönməyi istərsən sonra.**
**Qucağa atılıb çıxmadın, yürü,**
**Ruhunu ağrılar vurub, alıbdır.**
**Saçların darıxar çiynimdən ötrü,**
**"Bəlkə söyləməyə sözü qalıbdır"...**
**-Xəyalımda: balam, sevinib durub,**
**Əriyir sinəmin daşı, buzları.**
**Sevinc bəxş etmirsən, təşrif buyurub,**
**Sayıram ötüşən avtobusları.**
**De, mənim olmayan bəxti neynərəm,**
**Dan yeri açılsa, evə gedərəm.**
**Onda bəlkə olmaz qəmli gözüm yaş,**
**Həsrətin önündə əyməz idim baş.**
**Qismət yol açıbdır ali qədərə,**
**Şeirlə oxşanar gecəm, biləsən.**
**Göz yaşın üstündən gülər şəhərə,**
**Bu dəm haralarda, kimlər iləsən?**
**Mehirə, sevgiyə, bir sözə dursam,**
**Əzilmə, üzülmə əzab dilənsəm.**
**Sinəmdə alovlar ona baş vursam,**
**Etibar etməyin gözdə yaşıma,**
**Ən son çəkişməmdə xeyri yox, yəni,**
**Tanrı çıxarmayıb səni qarşıma -**
**Mənim əzabımdan əzab çəkəni.**

***

**Mən yoxam, yuxumda mənsiz darıxıb**
**Zəif ayrılıqdan yaralanar söz**
**Qapıya başını vurub, ağrıdıb,**
**Sənin kandarında qalıbdır payız.**
**Baharı ötürüb yola düşməz bağ,**
**Quşlara çiynini tutmaqda ağac.**
**Və hamı hamıya açmaqda qucaq,**
**Və hamı hamıya etməkdə əlac.**
**Xətalar sözlərin hamsın uçurar,**
**Ağırlıq - şeirlə alınan qandır.**
**Yada salmasan da səni bağışlar,**
**İllər ötüb keçər, ötən zamandır.**
**Mən yoxam, yuxumda var olsan əgər,**
**Dəyişməz bir anda heç hikmət, dua.**
**Həmişəki kimi, canlanar şəhər,**
**Daim olduğutək, işində dünya.**
**Can təslim edərmi, yalqız qalan ruh?**
**Gözlərin darıxar, ürəyində ah.**
**Bircə istəyim o - mən varam, ya yox,**
**Səni incitməsin heç zaman Allah!..**

**Azərbaycan dilinə uyğunlaşdıran:**
**Şahməmməd Dağlaroğlu**

## *"Barselona" onlarla yolları ayırır*

**"Barselona" qış transfer pəncərəsində bir neçə futbolçusu ilə yollarını ayıracaq.**

Qol.az xəbər verir ki, bu barədə İspaniya mətbuatı məlumat yayıb.

Həm transferə pul ayırmaq, həm də maaş limitini azaltmaq istəyən rəhbərlik yüksək məvacib qazanan bəzi oyunçuları komandadan göndərmək istəyir. Klub Sergio Dest, Klemen Lanqle, Ronald Arauxo, Frenki de Yonq, Mark-Andre ter Ştegen kimi oyunçularla yolları ayıracaq.

Qeyd edək ki, La Liqada 14 oyunda 23 xal toplayan "Barselona" turnir cədvəlinin 7-ci pilləsində qərarlaşır.

## *"Zəfər klubu"nun növbəti görüşü*



**Xızı rayon akademik M.A.Dadaşzadə adına Şorabad qəsəbə tam orta məktəbində şagirdlərlə II Vətən müharibəsi iştirakçısı, gənc yazar Emin Piri nin görüşü keçirilib. Görüşdə Vətən müharibəsi iştirakçısı şagirdlərə II Vətən müharibəsi zamanı Ali Baş Komandanın rəhbərliyi ilə Rəşadətli Ordumuzun qəhrəmanlığından danışıb.**

Emin Piri "Zəfər klubu" layihəsi çərçivəsində yaradıcılıq, şagirdlərin yaradıcılıq məhsullarının dərci barəsində fikir mübadiləsi aparıb.

Görüşdə Xızı rayon təshil şöbəsinin müdiri Oqtay Abdullayev, Xızı rayon akademik M.A.Dadaşzadə adına Şorabad qəsəbə tam orta məktəbinin direktoru Xatirə Həşimova, rejissor Məzahir Həşimov iştirak edib.

**Cavid**

Samux rayon Dövlət Arxivinin möhürü itdiyi üçün etibarsız sayılır.

Mehman Cavadoğlu, İbrahim İbrahimli, Əlövsət Talışxanlı, Azad Mahmudov və Etibar Bayramlı

**Vidadi Həmidlinin**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Aslan Mehdiyev, Nəbi Muxtarov və Əbülfət Mədətoğlu **Avtandil Əliyevə** qardaşı

**Məzahirin**

vəfatından kədərləndiklərini billdirir və dərin hüznlə başsağlığı verirlər.

Əlövsət Başirli **Faiq Qismətoğluna** əzizi

**Səkinə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

İsmayıl Tale, Qədir Xurşudov, Loğman Əsgərov və Hicran Bədəlov **Araz Pənahova** atası

**Məhəmməd Əbdül oğlunun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 144**
Çapa imzalanmışdır: 03.12.2021